Aləm Kəngərli

NAMƏLUM ADAM

Aləm Kəngərli. NAMƏLUM ADAM
Bakı, QANUN nəşriyyatı, 2018, 224 səh., 500 tiraj
Çapa imzalanmışdır: 26.07.2018

Redaktor: Adilə Nəzər,
filologiya üzrə fəlsəfə doktoru

Korrektor: Hicran Hüseynova,
jurnalist

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-577-1

© Aləm Kəngərli, 2018
© QANUN nəşriyyatı, 2018

Ön söz

İlk nəsr kitabını oxuculara təqdim edən Aləm Kəngərli gənc deyil, 60 yaşı var. Fizika müəllimi olsa da, uzun müddət müxtəlif istehsalat sahələrində çalışsa da, ədəbiyyata orta məktəb illərindən başlanan marağı itməyib; mətbuatda ara-sıra şeir, hekayə və publisist yazıları çap olunub.

Ədəbiyyata ötən əsrin 80-ci illərində gəlmiş və tanınmağa başlamışdır. O, eyni zamanda, ölkədə gedən ictimai-siyasi proseslərdən də kənarda qalmamışdır. Milli müstəqillik, torpaqlarımızın qorunması uğrunda gedən mübarizələrin fəallarından biri olmuşdur.

Mətbuata verdiyi müsahibələrdən görünür ki, Aləmin ilk kitabını nəşr etdirməyə tələsməməsi daha çox onun ədəbiyyata, kitaba məsuliyyətli münasibətindən qaynaqlanır.

"Naməlum adam" adlandırdığı kitabı vərəqləyəndə öncə onu hiss elədim ki, bu yazıların müəllifi nəsrə jurnalistikadan gəlib, hekayələrinin dili daha çox publisistik üsluba yaxındır. Lakin kitabda publisistikanın

özəlliklərindən doğan başqa bir cəhət, yəni cəmiyyətin bütün mürəkkəb mənzərəsini dərindən öyrənmək imkanı da açıq müşahidə edilir..

Jurnalist gözü ilə baxanda insan talelərində, yaşadığımız həyatda nə qədər tükənməz mövzu, süjet və problem olduğu daha aydın görünür.

Aləmin mövzuları da ətrafımızda cərəyan edən və müşahidə etdiyimiz olaylardır. Qəhrəmanları hər gün yolda-izdə, iş yerlərimizdə, dükanda-bazarda rastlaşdığımız adamlardır: sadə, kasıb, qayğısı başından aşan qonşu, iş yoldaşı, övladlarını böyüdüb ev-eşik sahibi etmək istəyən ata-ana, öz gənclik həyatını yaşayan, sevən-sevilən gənclər və sair.

Onların arasında vəzifə sahibləri, zənginlər, dilənçilər, oğrular, bir tikə çörək dalınca gedib ailəsindən həmişəlik uzaq düşən tərki-vətənlər, hətta gələcəyin robotları da var. Aləm hekayələrinin mövzusunu başqalarının diqqətini cəlb etməyən, sıradan, solğun görünən hadisələrdən alaraq, heç bir bəzək vurmadan oxucularına təqdim edir. Yan-yana düzüləndə bu olaylar hər gün içində olduğumuz həyatımızın mənzərəsini yaradır.

Bu mənzərənin ağ rəngi ilə qara rəngi, yaxşılığı ilə pisliyi, sevinci ilə kədəri, düzlüyü ilə əyriliyi iç içədir; bu mənzərənin qarışıqlığında xalqın ruhunu əzən, mənəvi dəyərləri yıpradan, şəxsiyyəti sarsıdan sosial ədalətsizlik və yaramaz yönətiçilik, cəmiyyətin canın-

da rişələnən rüşvət və korrupsiya xərçəngi – bir sözlə çağımızın bütün ziddiyyətləri görünür.

Məsələn, adicə qocalıq təqaüdü üçün idarələrdən arayışlar toplayan və qanuni haqqı olan sənədi heç yerdə rüşvətsiz ala bilməyən Cəfərxan kişi, rüşvət verə-verə gəlib parkda dilənçilərin arasına düşür; axırıncı qəpiklərini də onlara verir. Ondan sonuncu idarədə də rüşvət istəsələr, artıq o özü də dilənməyə məcbur olacaq. "Dilənçi" adlanan bu hekayə cəmiyyətimizin bəlası və faciəsi haqqındadır. Küçədə dilənçi, böyüklü-kiçikli bütün idarələrin məmurları dilənçi... Bu mühit sonda hekayənin qəhrəmanını da dilənçi vəziyyətinə salır.

İnsan və cəmiyyət, insan və ictimai mühit arasındakı bu ziddiyyətlər Aləmin bir sıra hekayəsinin əsas mövzusunu təşkil edir və oxucunu mübarizəyə və bu tipli bəlalarla barışmamağa səsləyir.

"Naməlum adam" povesti dil və üslub baxımından hekayələrdən yaxşı mənada fərqlənir və Aləmin detektiv janrında yazmaq qabiliyyətini nümayiş etdirir.

Povestdə müəllifin bir sıra hekayələrinə mövzu olan ictimai bəlalar və mənəvi düşkünlükdən fərqli olaraq – dostluq, etibar, nümunəvi ailə münasibətləri, gözəl insanlar ön plandadır.

Belə yazılarında müəllif ən sadə həyat hadisələrini əxlaq və mənəvi dəyərlər baxımından fərqləndirməyi və öz nəsr əsərlərinin mövzusuna çevirməyi bacarır.

Lakin məncə, gələcək yazılarında Aləm seçdiyi süjetləri, mövzunu bədii mətnə çevirərkən qəhrəmanlarının həyatlarında baş verənlərə həm də onların ürəklərində və psixologiyasında baş verənləri əlavə etməli və səthilikdən qaçmalıdır.

Bədii əsər yaratmağın başqa yolu yoxdur.

Kitabda müəllifin realist hekayələrlə yanaşı dedektiv və fantastik yazıları da yer almışdır. Bu baxımdan robotlar haqqında hekayə maraqlıdır.

İlk kitabı Aləmin bundan sonra yazılarının bədii keyfiyyətinə daha diqqətlə yanaşacağına və zəngin həyat təcrübəsini yeni maraqlı əsərlərə çevirəcəyinə inam doğurur.

Sabir Rüstəmxanlı

Müəllifdən

Salam, əziz oxucu!

Hər bir şair, yazıçı üçün ən gözəl görüş oxucu ilə ünsiyyətdə olmaqdır. Əgər oxucular hər hansı bir yazıçının əsərlərini oxumursa, onu qəbul etmirsə, onda nə o yazıçıya ehtiyac var, nə də ki, o yazılara. Odur ki, hər bir müəllif üçün önəmli olan onu oxucuların necə qarşılamasıdır.

Hörmətli oxucum!

Bu, mənim sizinlə ilk görüşümdür. Özümlə bağlı onu deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikası, Kəngərli rayonunun Qarabağlar kəndində, kolxozçu ailəsində dünyaya göz açmışam. Atam Sovet dönəmində uzun müddət kənddə dəmirçi kimi fəaliyyət göstərib. Böyük Vətən müharibəsi illərində yaxşı işinə görə dövlət onu "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edib. O, Kəngərli mahalında Usta Qulu, tayfada isə Qulu dədə kimi tanınır.

Mən Naxçıvan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini (1978) bitirmişəm. İxtisasca fizika

müəllimiyəm. O zamanlar müəllimləri əsgər aparmasalar da, ömrümün il yarımını hərbi xidmətdə keçirməyə müvəffəq ola bildim. Bu təcrübə mənə 90-cı illərdə könüllü dəstələr sırasında Vətənimizin düşmənlərdən qorunmasında yardımçı oldu. Şəhidlik zirvəsinə yüksələ bilməsəm də, Vətəni qorumaq şərəfinə nail oldum. Ehtiyatda olan zabitəm.

İlk yazım rayonun "İşıqlı yol" qəzetində səkkizinci sinifdə oxuyarkən işıq üzü görüb. Yaradıcılığa şeirlə başlamışam. Mətbuatda, əsasən, 80-ci illərdən tanınsam da, sonra uzun müddət bədii yaradıcılıqdan ayrı düşmüşəm. İndi sizlərlə yenidən görüşdüyüm üçün çox məmnunam.

Ümidvaram ki, mənim kimliyimi, hansı əqidəyə sahib olduğumu qələmə aldığım yazılardan hiss edəcəksiniz.

Hamınıza can sağlığı arzusu ilə,
Aləm Kəngərli

Hekayələr

Vətən

Səfər kişi uşaqlıq dostu Kərimin dəvəti ilə Rusiyaya üz tutanda gənc, gümrah və yaraşıqlı bir oğlan idi. Artıq o vaxtdan illər keçmişdi. Qocalıb əldən düşən Səfər kişi hiss edirdi ki, daha əvvəlki gücü, taqəti qalmayıb.

Son vaxtlar ancaq bir şey haqqında düşünürdü: görəsən, bundan sonrakı həyatı necə olacaq? Əvvəllər özünü idarə edə bilirdi; çay qoyur, xörək bişirir, hətta çirkli paltarlarını belə yuyurdu. İndi onun əvvəlki qıvraqlığından əsər-əlamət görünmürdü. Ötən illər Səfər kişinin cavanlığını da alıb aparmışdı. Əvəzində ürəyinə bir dünya qayğı, dərd yükləmişdi; Vətəndən uzaqda olmağın dərdi, Larisadan olan övladlarının gələcək taleyi sarıdan nigarançılıq... Heç cürə çıxış yolu tapa bilmirdi Səfər kişi.

Qızı Marina orta məktəbi bitirən kimi sinif yoldaşı Zaxara qoşularaq Moskvaya getmişdi. Zaxar hərbi xidmətə çağırılandan sonra yataqxanada birotaqlı mənzildə məskunlaşan Vadimin yanına köçüb onunla yaşamağa başlamışdı. Vadimlə nikahları olmasa da, Vera adında iki yaşlı qızları onları bir ailədə birləşdirirdi.

Oğlu İlya Səfər kişi ilə bir yerdə olurdu. Yaşı otuzu haqlasa da, hələ ki evlənmək barədə düşünmürdü. İlya dünyaya gələndə ilk oğul övladı olduğundan Səfər kişi çox sevinmişdi. Lakin uşağın ad məsələsində arvadı Larisa onunla razılaşmadığı üçün qanı bərk qaralmışdı. Səfər kişi oğluna atasının adını qoymaq istəyirdi – Vəli. Arvadı "Şto takoy Vali? Eta imya mne ne nravitsa", – deyib uşağa İlya adını vermişdi. Ovqatı korlansa da, bu ad ona rəhmətlik İlyas əmisinin adını xatırlatdığından barışmaqdan başqa çarəsi qalmamışdı.

Boş vaxtlarını dostları ilə yeyib-içməkdə keçirən İlya subaylığını yaşayır, atasının məsləhətlərinə məhəl qoymurdu. O, məsuliyyətsizliyi üzündən iş yerlərindən tez-tez qovular, çox vaxt bekar qalardı. Atasını çox istəsə də, onun qulluğunda durmağa ərinərdi. Axı İlya heç özünə fikir verən deyildi, atasına hardan qayğı göstərəcəkdi? Yeməyinin də, yatıb-durmağının da vaxtı-vədəsi bilinməzdi. Nə bu gününü, nə də gələcəyini düşünən adam deyildi. Çox vaxt evə də gəlməzdi. Dost-aşnaları ilə içki məclislərində ilişib qalar, elə oralarda da gecələyərdi. Səfər kişi çox çalışsa da, oğlunu istədiyi kimi böyüdə bilməmişdi. Görünür, İlyanın bu cür tərbiyə almasında yaşadığı mühitin də təsiri az olmamışdı.

İndi, ömrünün qürub çağında dərdi dərdə qarışmışdı Səfər kişinin. Qocalıq ötən illəri daha tez-tez xatırlamağa sövq edirdi onu. Doğulub boya-başa çat-

dığı eldən ayrı düşməsi, orada qoyub gəldiyi ailəsinin, qohum-əqrəbasının, dostlarının yanında olmaq istəyi ürəyini sızladırdı. Nə qədər götür-qoy edir, ölçüb-biçirdisə, geriyə dönmək üçün özündə bir cəsarət, iradə tapa bilmirdi. Axı yurduna, məmləkətinə necə qayıdaydı? İki körpə qız övladını həyat yoldaşı ilə birlikdə ata-anasının ümidinə qoyub, "işləmək" adı ilə evdən çıxmış və bir daha geri dönməmişdi. "Kaş ki ailəmi atıb gəlməyəydim", – deyə özünü qınayırdı. Sonrakı peşmançılığın faydasız olduğunu anladığı üçün çarəsizlikdən yanıb-tökülürdü.

Səfər kişini fikir aparmışdı. Düşünürdü ki, əgər geri qayıtsa, qonşuların, qohumların artıq qalan yeməkləri, köhnə paltarları hesabına mənəvi əzablar içində min bir əziyyətlə iki övlad böyüdüb ərsəyə gətirən keçmiş həyat yoldaşına nə deyəcək? Hər cür məhrumiyyətlərə dözən, iztirablara sinə gərən, atalarını sifətdən tanımayan qəlbiqırıq, boynubükük qızlarına özünü necə təqdim edəcək? Bütün zəhmətlərə qatlaşaraq qapılarda camaatın işlərinə əl atmaqla oğul böyüdən, illər uzunu övlad həsrətilə gözləri yol çəkən, indi isə yataqda halsız vəziyyətdə qalan xəstə anasının üzünə necə baxacaq? Övlad dərdi çəkməkdən əriyib çöpə dönən, axırda da oğlunun nankorluğundan, vəfasızlığından bağrı çatlayan atasının məzarını hansı üzlə ziyarət edəcək? Ata əvəzi bildiyi Səfərin cavanlıq şəklini bağrına basaraq aramsız göz yaşı axıdan yeganə bacısı Züleyxa-

nın ağarmış saçlarına sığal çəkib yaralı könlünü ovuda biləcəkmi? Bilmirdi. Təkcə onu bilirdi ki, daha Vətəndən kənarda yaşamaq gücündə deyil. Qəriblikdə özünü tənha və kimsəsiz hiss edirdi.

Son vaxtlar Səfər kişinin yuxusu tez-tez ərşə çəkilirdi. Ürəyini göynədən vətən həsrəti onu yatmağa qoymurdu.

"Qızlarımın qarğışı məni niyə tutmadı, ilahi?!" – deyə Səfər kişi dərindən bir ah çəkib qeyri-ixtiyari yenidən fikrə getdi: "Yaxşı, deyək ki, indi birtəhər dolanıram. Bəs beş-altı ildən sonra nə edəcəyəm? Axı burada insanlar bir-birinə həyan olmur. Bəlkə, yorğandöşəyə düşməmiş intihar edim, canım qurtarsın?" – beynində qəfil bir fikir dolaşdı. Bu düşüncəsindən tez də vaz keçdi. "Əgər ölsəm, məni harda dəfn edəcəklər, hansı cəhənnəmdə basdıracaqlar? Bəs sonra? Məni yad edib qəbrimin üstə gələn tapılacaqmı?... Allah bilir, hansı çuxura atıb üstümü torpaqlayacaqlar. Yəqin ki, dəfndən sonra araqdan vurub özləri üçün şellənəcəklər də".

Günlər ötür, Səfər kişi fikirlər məngənəsindən qurtula bilmirdi. Düşünürdü ki, görəsən, öləndən sonra Allah onun günahlarını bağışlayıb didərgin düşmüş ruhunun öz doğma ocağına – ata-baba yurduna dönməsinə izn verəcəkmi? O, sinsimiş xəyallarının yad ellərdə fəryad qoparıb-qoparmayacağını da bilmirdi. Təkcə onu bilirdi ki, daha ağsaqqala, ağbirçəyə məhəl qo-

yulmayan bir yerdə yaşamaqdan bezib. Əgər doğma övladları onunla maraqlanmırdısa, başqalarından bir qayğı, kömək ummağa dəyərdimi?!

Vətən, yurd həsrəti Səfər kişini bir an da olsun tərk etmir, çəkdiyi iztirablardan xilas olmağa, rahat yaşamağa qoymurdu. Cavan ikən atdığı səhv addımın cəzasını indi çəkməyə başlamışdı. Çox götür-qoydan, çək-çevirdən sonra qəti qərara gəldi ki, vətəninə dönməlidir.

Arvadı Larisa evdə yox idi. Hardasa vaxtını keçirirdi. Kağız-qələm götürüb qızı Marinaya məktub yazdı: "Maya milaya Maşa! Ya payedu na Rodinu. Navseqda. Mne ne astalsa dolqo jit. Luçşe umeret tam, qde ya radilsya, çem zdes. Jelayu vam sçastya. Çeluyu. Papa". Sonra yatıb yuxuya qalan oğlu İlyaya səsləndi:

– Vstavay, sınok, vstavay. Uje pozdna.

İlya gözlərini ovuşdura-ovuşdura yerindən dilləndi:

– Şto sluçilos, papa? Day spat.

– Dela yest, sınok. Vstavay. Paqavarit nada.

– Sluşayu, papa, qavari.

– İlya, moy radnoy, – deyə Səfər kişi sözə başladı, – tı znayeş, kak ya tebya lyublyu.

– Znayu, papa. A şto? – deyə oğlu cavab verdi.

– Sınok, ya reşil vazvraşatsa na Rodinu. Navseqda.

– Çevo?! V takom vozraste? – İlya təəccübünü gizlədə bilmədi.

– Da, İlya, da. Ya uje pastarel. Maya jizn na isxode. Pasledniye qodı svoyey jizni xaçu pravesti tam.

– Smatri, papa, tebe luçşe znat. Kak xoçeş, – sonra əlavə etdi, – kaqda sabirayeşsya uyexat?

– Sevodnya.

– A mama znayet? – İlya soruşdu.

– Net, paka ne znayet, – əlindəki kağızı oğluna tərəf uzatdı, – a eta pismo praşu peredat Marine.

– Xaraşo, papa. Peredam. Ne valnuysya, – sonra sözünə davam etdi, – papa, a na çyom payedeş? S poyezdom, ili na samalyote?

– Na çyom papala, – deyə atası cavab verdi.

– Ladna. Ya tebya pravaju.

Səfər kişi hələ yola çıxmasa da, artıq özündə böyük bir yüngüllük hiss edirdi. Elə bil üstündən dağ götürülmüşdü. Axı uzun illər həsrətini çəkdiyi doğma Vətəninə qayıdacaqdı.

Gülümsədi. Günlərdir ürəyini oyan nigarançılıqdan əsər-əlamət görünmürdü. Harda yaşayacağı, necə keçinəcəyi artıq onu maraqlandırmırdı. Müxtəlif suallara cavab axtarmaq fikri də yox idi. İndi onu yalnız bir məsələ düşündürürdü: tezliklə Vətənə qovuşmaq. Cavanlığında oxuduğu və uzun müddət təsirindən çıxa bilmədiyi əsərdən bir epizodu xatırladı. Gərək ki, belə idi: şah əsir götürdüyü müğənni oğlanın oxuduğu mahnını dinləyəndən sonra onun səsindəki yanğının səbəbini Vətənindən ayrı düşməsində görür. “Sənin o yerlərdə ürəyin qalıb”, – deyir müğənni oğlana.

Elçinin əsəri olduğunu bilirdi, amma hansı əsəri?... Heç cür yadına sala bilmədi Səfər kişi. "Gərdişi-dövrana bax..." – deyə gülümsədi öz-özünə. Nə vaxtsa ruhunu sarsıdan alovlu sözlərin hədəfində indi onun özü idi.

***

Bakı vağzalında qatardan endi. Fərəhlə ətrafa nəzər salıb dərindən köks ötürdü. Sonra yaxınlıqdakı boş oturacaqlardan birində əyləşib fikrə daldı. Hava qaralmağa başlamışdı. Hara gedəcəyini, kimin qapısını döyəcəyini bilmirdi. Elə bu vaxt çiyninə bir əl toxundu:

– Səfər?!

Dönüb baxdı. İllərin o tayından boylanan tanış sifəti xatırlamağa çalışdı.

Atasının balası

Abdulla kişi çox narahat görünürdü. Kənd içində var-gəl edə-edə o baş-bu başa gedib-gəlir, ətrafa göz gəzdirir, bir yerdə qərar tuta bilmirdi. Neçə gün idi, ha çalışırdı ki, Əbülfəz müəllimin yaxasını ələ keçirsin, alınmırdı. Əbülfəz müəllim hər gün axşamüstü kəndə çıxan adam idi. Abdulla kişi fikirləşdi ki, onun gözə dəyməməsi ya xəstələnməsi, ya da yeni vəzifəyə keçməsi ilə əlaqədar ola bilər. Elə bu barədə düşünürdü ki, kəndin yuxarı başından Əbülfəz müəllimin ağır-ağır gəldiyini gördü. Tez səmtini dəyişib ona tərəf yeridi. Və çatan kimi əl uzadıb gur səslə dedi:

– Salam, ay Əbülfəz müəllim! Necəsən?

– Əleykümsalam. Yaxşıyam, Abdulla. Bəs sən necəsən?

– Şükür, mən də yaxşıyam. Canımnan elə bir gileyim yoxdu.

Əbülfəz müəllim çayxanaya getməsin deyə, Abdulla kişi tez mətləbə keçmək qərarına gəldi:

– Əbülfəz müəllim, neçə gündü kənddə hərlənirəm, səni görə bilmirəm. Deyəsən, başın bərk qarışıqdı.

– Hə, Abdulla. İdarə köçüb gedirdi, onu qaydaya salırdım, – dedi, sonra sözünə davam etdi: – Xeyirdimi?

Abdulla kişi dedi:

– Xeyir olmamış nə olacaq, ay qağa. Məgər indiyə qədər bu kənddə mənnən bir ziyan görən olubmu?

Sonra əli ilə yaxınlıqdakı tut ağacını göstərdi:

– Qağa, keçək kölgəyə, sənə bir-iki kəlmə sözüm var.

Əbülfəz müəllim nədən söhbət gedəcəyini bilirdi. Tərəddüd etsə də, etiraz etməyib razılaşdı.

– Eşidirəm səni, Abdulla. Buyur.

– Qağa, mən nə özümü, nə də uşaqlarımı sənə tərifləyən deyiləm. Özün neçə illərdi bu kənddə yaşayırsan, hamını da mənnən yaxşı tanıyırsan. Ziyalı, dünyagörmüş adamsan. Yəqin ki, xəbərin olmamış deyil. Bilirsən ki, oğlum Baba qızın Xədicə ilə neçə ildi birbirini istəyir. Səni də buna görə gəzirdim.

Əbülfəz müəllimin hər şeydən xəbəri var idi. Bilirdi ki, qızı Xədicənin Abdulla kişinin oğluna meyli var. Hətta arvadına bərk-bərk tapşırmışdı ki, o, kənddə olmayanda qızdan göz-qulaq olsunlar ki, Baba ilə qoşulub qaçmasın. Əvvəldən götür-qoy etmədiyi üçün Əbülfəz müəllim nə edəcəyini bilmirdi. Odur ki, sakitcə dayanıb Abdulla kişiyə təmkinlə qulaq asır, söhbətinə müdaxilə etmirdi. Vəziyyətin yaxşı olduğunu zənn edən Abdulla kişi bir az da ürəkləndi:

– Qağa, əgər icazə versəydiniz, sizin üçün uyğun bir vaxtda qapınızı döyərdik.

Əbülfəz müəllim bu gözlənilməz qarşılaşmadan özünü itirmişdi. Amma Abdulla kişiyə cavab vermək lazım idi. Odur ki, özünü ələ alıb söhbətə başladı:

– Abdulla, bilirsən ki, bu kənddə mənim heç kimlə bir ədavətim, düşmənçiliyim yoxdu. Üstəlik, hamı ilə xoş münasibətim, ünsiyyətim var. Sənin də həmçinin. Deyim ki, sizin ailəyə, ya oğlunuza bir iradım var, düz olmaz. Ancaq, qardaş, bu, elə bir məsələdi ki, mən sənə indi cavab verə bilməyəcəyəm. Gərək bunu evdə də götür-qoy edək. Anası qızı dindirsin, görək nə deyir, – razıdı, razı deyil. Yoxsa, vallah, səndən yaxşı adamla qohum olmayacağam ki. Razılıq olandan sonra mən nə deyə bilərəm. Sizə xəbərimiz dəyər.

Söhbətin şirin getdiyini görən Abdulla kişi bəndi-bərəni bağlamaq üçün yaranmış fürsəti əldən buraxmaq istəmədi. Odur ki, əvvəlcədən beynində planlaşdırdığı fikirləri Əbülfəz müəllimin diqqətinə çatdırmağı lazım bildi:

– Qağa, bax, sənə "sən öl" deyirəm. Qızını mənim oğluma ver, gör, onu yağ-bal içində saxlayıram, ya yox. Mənim xasiyyətimə bələdsən də, sözüm kişi sözüdü! Yox, əgər başqa fikrin varsa, yenə də özün bilərsən. Ancaq yaxşı-yaxşı fikirləş ki, sonra peşmançılıq olmasın. Qəmbər kişi qızını zorla verdi Hacıllılara. Nə qazandı? Yazıq qız özünü asıb elə bədbəxt oldu, oğlan da ki belə – baş götürüb kənddən getdi. Ancaq sənə bir məsləhətim var. İşdi, əgər bizə "yox" cavabı

verəcəksinizsə, onda qızınızdan muğayat olun. Çünki mən də, atam da, hətta rəhmətlik babam da istədiyimiz qızı qaçırıb qoymuşuq evə, sonra toyumuzu eləmişik. Əbülfəz müəllim, dediyim odu ki, gədədən belim bağlı deyil. Birdən qızı qaçırıb-eliyər, yaxşı düşməz. Uşağınızın üstündə gözünüz olsun ki, araya xilaf düşməsin.

Qızının Babanı sevdiyini bilən Əbülfəz müəllim sakitcə dayanıb qulaq asır, nə deyəcəyini bilmirdi. Abdulla kişi fürsətdən istifadə edib dayanmadan, candildən danışırdı:

– Qağa, bilirsən ki, uşaqlar bir-birini istəyillər. Bizim də borcumuzdur ki, onları yerbəyer edib xoşbəxtliyə qovuşduraq. Düz deyirsən, bu işdə tələsmək olmaz. Ancaq dünya görmüşük, yaşımız da az deyil. Bir məsəl də var ki, xeyir işi yubatmazlar. Şükür, oğlum işləyir, mən işləyirəm, evdə də ki hər şəraitimiz var. Necə deyəllər, üçünnən pis dolanırıqsa, beşinnən də yaxşı yaşayırıq. Hüseyn kişigillə qohum olmusansa, inşallah, bizimlə də olarsan. Demirəm e, onlar pis adamdı, biz yaxşı. Yox, Allah eləməsin. Deyirəm ki, mənim onlardan nəyim əskikdi ki?! Ev deyirsən – varımdı. Mal-qara deyirsən – bizdə. Maşın deyirsən – o da var. İnsana yaşamaq üçün ta nə lazımdı ki?

Abdulla kişi bir az ara verib sonra sözünə davam etdi:

– Əbülfəz müəllim, heç nə demirəm, özün fikirləş. Oğlum üçün hansı qapıya getsəm, məni boş qayta-

rallar? Əlbəttə, sevinəllər. İntəhası deyirəm ki, qoy gədənin könlündən keçən olsun. Yoxsa kənddə qıza nə gəlib, maşallah. Hamısı da su sonası. Şükür, Baba gözünün qabağında böyüyüb. Bəlkə, indiyə kimi onda bir səhv hərəkət görübsən. Olar da... Varsa, de. Salamlı-sabahlı, başıaşağı, böyük-kiçik yeri bilən... Bilirsən ki, mən Babanı necə çox istəyirəm. Atamın adını daşıyır ey! Nə isə, başını çox ağrıtmayım, qağa. Dediyim odu ki, vəzifə də, pul da boş şeydi. Bu gün var, sabah yoxdu. Dünya malı dünyada qalacaq. Əsas insanlıqdı, cavanların bir-birini başa düşməsidi.

Artıq hava qaralmışdı. Evə getmək vaxtı idi. Əbülfəz müəllim çox mədəni adam olduğundan Abdulla kişinin sözünü kəsmək istəmirdi. Bu vaxt 10-12 yaşlarında bir uşaq qaça-qaça gəlib təngnəfəs halda onların yanında dayandı. Üzünü Əbülfəz müəllimə tutub dedi:

– Dayı, bibi deyir, durmasın, tez evə gəlsin!

Əbülfəz müəllim çox narahat oldu:

– Əvəz, bala, bilmədin nə məsələdi? Bibin məni neynir? – deyə təəccüblə soruşdu.

Uşaq dedi:

– Xədicə Baba ilə qoşulub qaçıb!

Əbülfəz müəllim özünü itirdi. Bilmədi nə etsin. Dönüb Abdulla kişinin üzünə baxdı, ancaq anlamadı: bu oyun onun qurmasıdı, yoxsa qızı Xədicənin.

Ehsan

Payızın üz qarsalayan sazaqlı günləri arxada qalmaqda idi. Saat təqribən beş olardı. Bir azdan dan yeri qızaracaq, kənd-kəsək gözünü ovuşdura-ovuşdura yuxudan ayılacaqdı...

Göyüş kişi Alabaşın gur səsinə yuxudan oyandı. Gecələri yuvasında rahat yatıb səsini çıxarmayan, heç nəyə məhəl qoymayan itin birdən-birə belə hay-küy salması Göyüş kişini çox təəccübləndirdi. Yaşlanıb heydən düşmüş, ömrünü bu həyətin keşiyini çəkməklə başa vurmağa hazırlaşan Alabaş gündə üç dəfə yalını yeyib yatar, cınqırını belə çıxarmazdı.

Kənddə kimə desəydin ki, Alabaş Saymazın balasıdır, heç kim inanmazdı. Çünki Saymaz sağlığında elə bir ad çıxarmışdı ki, indi də xatirələrdə yaşayırdı. Hələm-hələm it onun qabağına çıxa bilməzdi. Çıxsa da, zingiltisi kəndi bürüyərdi. Dəfələrlə olmuşdu ki, qonşu kəndlərdən gəlib mərc ilə it boğuşduranları da Saymaz kor-peşman yola salmışdı. Kəndin qoyun sürüsünü çox vaxt təkbaşına qorumuşdu, qurda-quşa yem eləməmişdi. Odur ki, Göyüş kişi zirəklik edib hələ

Alabaş anasının qarnında olanda onu behləmiş, çoban Bayram da kişi kimi söz vermişdi ki, Saymazın bir balası onunkudur. Elə də olmuşdu. Saymaz balalayanda hər gün göz-qulaqda olan Göyüş kişi özünü hamıdan qabaq yetirmiş və küçüyün birini götürüb aradan çıxmışdı. Alabaş böyüməyinə böyümüşdü, amma Saymaza çəkməmişdi... Alabaşa pis baxılmamış, ağzı yeməyə çatana kimi qoyun südü ilə bəslənmişdi. Anasından fərqli olaraq o, çöldə-bayırda böyüməmişdi, həyətdən qırağa çıxmamış, canavarlarla üz-üzə gəlməmişdi. Bir tikə çörəyə qane olaraq zəncirli taleyi ilə barışmışdı. Qarşısına hansısa bir it çıxsa, yəqin ki, quyruq bulayar, yaltaqlanar, boğuşmaqdan imtina edərdi.

Əkin-biçinə ziyan vurmasın deyə, Göyüş kişi Alabaşı ilin üç fəsli zəncirdə saxlayar, yalnız qış gecələri açıb buraxardı. Alabaş hər il havaların soyumasını və həyət azadlığını böyük səbirsizliklə gözləyərdi. Göyüş kişi hər dəfə zənciri açmaq üçün ona yaxınlaşanda it sevincindən qabaq ayaqlarını yerə döyər, quyruq bulayar, tullanıb-düşərdi. Alabaşın şıltaq hərəkətlərinə tamaşa edəndə istər-istəməz adamın könlü açılardı.

…Həyətə kənar şəxs gələndə yalandan iki ağız "hav" eləyib səsini kəsən itin indi susmaması Göyüş kişini çaşdırdı. Fikirləşdi ki, yəqin, həyətə tülkü girib. Çünki Alabaşın qeyrətə gəlib birdən-birə belə "tufan" qoparması görünməmiş hal idi.

Göyüş kişi hər gün səhər tezdən durub tövləyə baş çəkər, arvadı çay hazırlığı görənə qədər həyətdəki xırda-para işləri görərdi. Alabaşın dayanmadan hürməsi onu bu gün yataqdan tez qaldırdı. Köhnə pencəyini çiyninə atıb tuman-köynəkdə həyətə çıxdı. Hasar qapısının arxasından Mais kişinin oğlu Dilavərin səsi gəlirdi:

– Qonşu! Ay qonşu!

Dilavər üz-gözündən zəhrimar yağan, adamlıqdan kənar, işi-gücü olmayan, avaranın birisi idi. Üstəlik, fırıldaqçı və dələduz kimi də ad çıxarmışdı. Bu adam yağlı vədlərlə təkcə uşaqları deyil, hətta böyükləri belə, aldadıb pullarını ələ keçirərdi. O gün olmazdı ki, qapılarına şikayətə gəlməsinlər. Bir-iki dəfə kənd cavanları onu möhkəmcə əzişdirsələr də, xeyri olmamışdı. Adam olmaq istəmirdi ki, istəmirdi. Kənddə heç kim onunla münasibət qurmazdı. Elə Göyüş kişinin də iti-qurdu görməyə gözü var idi, Dilaveri yox. Odur ki, onunla üz-üzə gələndə ya yolunu dəyişər, ya da salam-kəlamsız yanından ötüb keçərdi.

Dilavər istər sifət quruluşuna, istərsə də xasiyyətinə görə atası ilə birə-bir eyni idi. Mais kişi 27 yaşda nə idisə, Dilavər də indi o idi. Elə bil o getmişdi, yerində bu bitmişdi. Mais kişinin kənd adamları arasında hörmət sahibi olmaması, daima ara qarışdırması, çuğulluq etməsi, ev yıxmağa meylli olması bütünlüklə oğul balasına keçmişdi.

Görünür, Alabaş da Dilavərin yaramaz adam olduğunu hiss etdiyindən dayanmadan hürürdü. Göyüş kişinin düşməni həyətə gəlsəydi, bəlkə də, səsini çıxarmazdı. Ancaq indi dişlərini qıcayıb Dilavərə tərəf elə dartınırdı ki, deyirdin, bəs ya zəncir qırılacaq, ya da zəncir bağlanan mıx yerindən çıxacaq. Qonşular belə, bu mənzərəni görsəydi, heyrətlənər, gözlərinə inanmazdılar.

Göyüş kişi itə acıqlanıb susdurdu. Sonra yaxınlaşıb yavaşca qapını açdı. Bir söz demədən Dilavərin üzünə baxdı. Belə erkən nə üçün gəldiyinə cavab istədi. Dilavər titrək səslə dedi:

– Göyüş əmi, atam öldü.

Kişi duruxsa da, cavabı çox yubatmadı:

– Yaxşı, get, gəlirəm.

Dilavər gedən kimi it yuvasına çəkildi. Kişi evə girib arvadını yavaşca dümsüklədi:

– Dur, Xalidə. Bəsdir yatdın.

Arvadı özünə gəlib soruşdu:

– A kişi, nə tez durmusan? Olmaya yuxunu qatışdırmısan?

– Yox, Alabaş oyatdı. Mais rəhmətə gedib, – deyə kişi cavab verdi.

– Pah, böyük şey olub. Ölüb ölüb də. Sənə nə? Onlar ki xeyrə-şərə yarayan adam deyillər. Yadındamı, şəhid Azərin qəbrini qazmağa çağırdılar, iki kişidən biri gəlmədi?

Göyüş kişi haqlı sözə hökmlə cavab verdi:

– Yaxşı, yaxşı! Az danış. Hamı eyni cür ola bilməz ki. Hərənin öz adı var.

– Onda heç olmasa bir stəkan çay iç, get, – arvadı canıyananlıq etdi.

– Yox, yox. Çay qaçmır ki. Yubanmayım, ayıbdır. Camaat adama nə deyər? Sən heyvanları çölə ötürüb toyuqların dənini verərsən. Mən külüngü götürüm, gedim.

Göyüş kişi qonşunun həyətinə girəndə ağlaşma səsi eşitmədi. Sonra külüngü bayıra qoyub evə girdi. Mais kişinin cəsədi dəmir çarpayının üstündə idi. Qızı atasının böyründə oturub sakitcə göz yaşı tökürdü. Dilavər və anası Gülzar arvad isə yerdən əyləşib mızıldansalar da, yanaqları qupquru idi.

Əslində Mais kişi uzun müddət yataq xəstəsi olduğundan evdəkiləri bezdirmiş, canlarını boğaza yığmışdı. Mais kişi ölümü ilə özünü işgəncə və ağrılardan qurtarmaqla bərabər, şirin yuxuya həsrət qalan ailə üzvlərinin canına da bir rahatlıq gətirəcəkdi. Görünür, ona görə də evdəkilər hay-həşir salmaqda həvəsli görünmürdülər. Gəlin isə ümumiyyətlə, ağlamır, yüyürərək yan-yörəyə əl gəzdirir, evdə səliqə-sahman yaradırdı. Sağlığında qayınatasının qulluğunda dursa da, altına qab aparmağı Dilavər ona yasaq eləmişdi.

– Camaata demisiz? – Göyüş kişi Dilavərdən soruşdu.

– Hə. Qohum-qonşuların hamısı bilir, – deyə Mais kişinin qızı Çiçək cavab verdi.

Çiçək salamlı-kəlamlı, mehriban, gülərüz bir qız idi. Hamı da xətrini çox istəyirdi. Elə bil heç bu evin uşağı deyildi. Ərə getməsə də, istəyəni yetərincə idi. Di gəl ki, el qınağından çəkinib bir nəfər də bu qapıya elçi göndərməzdi.

Çiçəkdən fərqli olaraq, anası Gülzar arvad tam başqa bir adam idi. O, heç kimlə get-gəl eləməz, kəlmə kəsməz, bütün günü evə qapanıb oturardı. Bilmək olmurdu ki, qaşqabağının açılmamasına səbəb nədir: əri ilə oğlunun bəd xasiyyəti, yoxsa günü-gündən yaşlanan qızının evdə qalması. Oturub-durduğu bir nəfər yox idi ki, dərdindən xəbər versin. Gülzar arvad haqqında hərə öz fərziyyəsini dilə gətirərdi. Əsl həqiqətdə isə həyatdan küskünlüyünün əsas səbəbini özündən və Allahdan başqa heç kim bilmirdi. Bəlkə, bilsəydi, bir də indicə dünyasını dəyişən əri bilərdi. O da ki bildiyini özü ilə goruna aparacaqdı.

Aradan xeyli vaxt keçmişdi. Hava işıqlansa da, qonşulardan, kənd adamlarından qapını açıb içəri girən yox idi. Bayaqdan taxta kətildə oturub gözləyən Göyüş kişi vəziyyəti başa düşüb Dilavərə dedi:

– Gecdir, beli götür, gedək. Mən külüng gətirmişəm.

Birlikdə iki nəfər üz tutdular qəbiristana. Dilavər beli əlində tutsa da, külüng ağır olduğu üçün Göyüş kişi onu çiyninə atmışdı. Dilavər elə şeyləri başa düşən

deyildi ki, külüngü kişidən alıb, beli ona versin. Elə bil onun deyil, Göyüş kişinin atasının qəbrini qazmağa gedirdilər. Əslində bu çətin işdə 75 yaşlı Göyüş kişiyə heç bir rol yaraşmırdı. Necə deyərlər, canı sulu olsa da, yaş öz sözünü deyirdi.

Gəlib qəbiristana çatdılar. Göyüş kişi Dilavərin babasının məzarına işarə edib dedi:

– Allah rəhmət eləsin, bunu da biz qazmışdıq.

Sonra onun böyründəki boş yeri göstərib:

– Burdan qazacağıq, – dedi.

Torpağın üst qatını bel ilə götürüb kənara atır, bərkə çıxan yerləri külünglə yumşaldırdılar. Bu minvalla bir az qazmışdılar ki, beş-altı adamın əllərində bel onlara tərəf gəldiyini gördülər. Dilavər bilmədi, sevincindən nə etsin. Qarnına sancı dolmuşdu ki, qəbri axşama kimi qazıb qurtara bilməyəcəklər. Sən demə, camaat səhər mal-heyvanı çölə ötürməyə çıxanda xəbər tutub ki, qəbir qazmağa qonşulardan təkcə Göyüş kişi gedib. Sabah ağsaqqalın üzünə baxa bilsinlər deyə, yığışıblar ki, onun köməyinə getsinlər.

Qəbri hazırlayıb meyidi gətirmək üçün birlikdə geri döndülər. Həyətdə Dilavərin qayınatası, Mais kişinin küsülü olduğu böyük qardaşı və bir də kənd mollası Mir Tofiq ağa meyidi kəfənləyib onları gözləyirdi. Qəssab Yaqub həm də aşpazlıq etdiyindən ocaq qalayıb ət dolu qazanı üstünə qoymuşdu ki, ehsan günortaya hazır olsun.

Tabutu çiyinlərinə alıb səssiz-səmirsiz yola düzəldilər. Xəstəlik Mais kişini əridib "çöp"ə döndərdiyindən tabut ağır deyildi.

Mərhumu dəfn etdikdən sonra molla dedi ki, ölü sahibləri onları bu ağır məqamda tək qoymadığınıza görə sizə təşəkkür edir. Hər birinizdən zəhmətinizi halal etməyi və günorta ehsan süfrəsinə təşrif buyurmağınızı xahiş edir. Qonşular bir ağızdan "halal xoşu olsun" dedilər. Sonra isə gəldikləri kimi də dinməz-söyləməz geri qayıtdılar. Üstbaşını qaydaya salmaq üçün hərə öz evinə getdi.

Ehsan vaxtında hazır olsa da, günorta yeməyə gələn olmadı.

Axşama yaxın Dilavərin arvadı əlində bir qab yeməklə Göyüş kişigilə gəldi. Qabı Xalidə arvada uzadıb dedi:

– Ehsandı. Xahiş edirəm, götürün. Qabı sonra qaytararsınız.

Xalidə arvad tərəddüd içərisində bir söz demədən ehsanı aldı. Sonra fikirli halda qabı tut ağacının gövdəsindəki oyuq yerə qoyub toyuqlara yem gətirmək üçün təndirəsərə getdi. Geri qayıdanda gözlərinə inanmadı. İt dartınaraq ayağı ilə ağacdan yerə saldığı ehsana elə daraşmışdı ki, sanki uzun müddət ac saxlanılmışdı.

...Alabaş indiyə kimi belə dadlı yemək yediyini xatırlamırdı.

Kisəçi

Bahar xanımın hövsələsi yox idi. Nə qədər səy göstərsə də, əri Cahangir müəllimi hamama göndərə bilmirdi. Hətta dünən axşam mübahisələri o həddə çatmışdı ki, az qala bir-birini qıracaqdılar. Yenicə qohum olduqları Kazım kişigil bazar günü onlara qonaq gəlməliydi. Bahar xanım fikirləşəndə ki, əri iy verə-verə qonaqlarla eyni stol arxasında oturacaq, az qalırdı başına hava gəlsin. Səhər Cahangir müəllim işə gedəndə Bahar xanım Həzrət Abbasa and içib xəbərdarlıq etmişdi ki, əgər axşam işdən gələn kimi hamama getməsə, onu evə buraxmayacaq. Cahangir müəllim qayıdıb deyəndə ki, əgər məni bəyənmirsənsə, yığışıb dədən evinə gedə bilərsən, Bahar xanımı od götürmüşdü. Sifəti pörtmüş halda ərinə demişdi ki, and olsun Allaha, səni mahalda rüsvay edərəm, car çəkib bütün qohum-əqrəbanı, qonşuları tökərəm bura. Əgər bu gün mən səni hamama göndərə bilməsəm, deməli, heç Qulam kişinin qızı deyiləm. Cahangir müəllim də dava-dalaşa son qoymaq üçün "dəyişəyimi yığıb hazır qoyarsan" deyib evdən çıxmışdı.

Cahangir müəllimin işdən gəlməsinə az qalırdı. Bahar xanım ərinin alt paltarını, dəsmal, sabun və kisəni kişinin həmişə özü ilə hamama götürdüyü çantaya qoyub gözləyirdi. Qısa zaman fasiləsindən sonra qapının zəngi çalındı. Bahar xanım qapını açıb əlində hamam çantası ərini qarşıladı:

– Evə girdi yoxdu! Kişi kimi söz vermisən!

– Yorğunam. Qoy bir stəkan çay içim, gedərəm, – əri çəkinə-çəkinə dedi.

– Yox! İçməyəcəksən! O boyda idarənin rəhbərisən ey... Zibilxana itləri kimi üfunət iyi verirsən... Tarakanlar qoynunda yuva salıb, xəbərin var? Görüm, daş düşəydi sənə gəldiyim günə. Ömrümü çürütdün, günümü qara elədin. Mən bilmirəm, bu "vid"də, licimdə sən o işçilərin üzünə necə baxırsan?!

– Yaxşı, yaxşı, az danış. Baş-beynim getdi. Ver bura görüm, – çantanı aldı. – Bilirsən ki, son vaxtlar işin çoxluğundan başım açılmır. Sən yemək işinə bax, mən bir saata qayıdıram.

– A kişi, tələsmə. Bir aydı hamama getmirsən. Qoy yaxşı-yaxşı sürtsünlər. Çantaya kisə qoymuşam. Dəlləyə də getmədin, boynunu tük basıb.

Sürücü Cahangir müəllimi düşürüb getmişdi. Bayırdakı şəxsi "Mercedes"inə oturub çantasını yanındakı oturacağa qoydu. Yol aldı həmişə təşrif buyurduğu "Köhnə hamam"a.

Əli əsalı yaşlı kişinin köməkliyi ilə maşını saxlamağa yer tapa bildi. Girişdəki oğlan Cahangir müəllimi

mehribanlıqla qarşılayıb soyunacağı şkafın açarını ona uzatdı. Sabah şənbə günü olduğundan içəri müştərilərlə dolu idi. Cahangir müəllim yorğun olsa da, hamama gəlməyinə peşman deyildi. "Çoxdandı çimmirdim, yaxşı oldu", – deyə düşündü. Duş almazdan qabaq həmişə onu kisələyən Tolikə yaxınlaşdı:

– Salam, qoçaq. Gəlmişəm. Vəziyyət neçədir?

– Sağ ol, müəllim. Bu gün bir az sıxlıqdı. Bunnan sonra iki nəfərim də var. Sən bir çay iç, inşallah, yola salaram.

– Yox, Tolik, gözləyə bilmərəm. İşim çoxdu. Tələsirəm. Görüm uşaqlardan kim bekardı?

Həftənin əvvəli normal iş olmadığından kisəçilər həftəsonu bunun əvəzini çıxmaq niyyətində idilər. Cahangir müəllimin cavabı Tolikin ürəyincə olmasa da, büruzə vermədi:

– Nə deyirəm, müəllim? Necə məsləhətdi.

Cahangir müəllim əvvəlcə qonşu kabinədə oturub ayaqlarını yelləyən yeniyetmə oğlana yaxınlaşdı:

– Oğlum, boşsanmı?

– Xeyr, müəllim. "Kilent"im var, indi gəlir.

O biri kisəçilər məşğul olsa da, Cahangir müəllim axırıncı kabinədəki xoşsifət oğlana yaxınlaşıb dedi:

– Bundan sonra adamın varmı?

– Ağsaqqal, səni niyə aldadım, yoxdu. Ancaq, incimə, mən səni kisələyə bilmərəm.

– Niyə, ay oğul? – Cahangir müəllim təəccüblə soruşdu.

– Ona görə ki, sən mənlik deyilsən, Tolikliksən. Burda heç kim başqasının "kilent"inə girmir. Əgər girsə, olar gədə. Qayda belədi.

Cahangir müəllim boş dayanan oğlanın onu niyə kisələmədiyini indi anladı.

Sonra üçüncü kisəçiyə yaxınlaşdı. Ondan da müsbət cavab ala bilmədi:

– Müəllim, siz Tolikə məxsussunuz. Niyə darıxırsız ki? Zala keçib bir çay için, televizora baxın, ona kimi növbəniz çatar. Gecə keçmir ki?

Cahangir müəllimi fikir apardı: "Bu necə olur, ə?! Əlimin altında yüzlərlə adam işləyir, heç biri mənə məxsus olmur, mən bu əli kisəli gədəyə məxsus oluram?" İstədi Tolikdən xahiş etsin ki, onu iş yoldaşlarına tapşırsın, ancaq sonra bu fikrindən vaz keçdi: "Əgər qanacağı çatsaydı, özü deyərdi".

Cahangir müəllim bilirdi ki, kirini tökmədən evə qayıtsa, arvadı ilə "müharibə" yenidən qızışacaq. Əlavə bir-iki saat gözləməyə isə hövsələsi çatmırdı. Elə bu barədə fikirləşirdi ki, birdən ağlına nə gəldisə, tez dönüb gözləmə zalına çıxdı. Ətrafa nəzər salıb əsəbi halda soruşdu:

– Ə, buranın bir yiyəsi-sahibi var, ya yox?!

İdman forması geymiş cavan bir oğlan ona yaxınlaşıb dedi:

– Ağsaqqal, nə lazımdı? Biz sizin qulluğunuzda hazır.

– Ay oğul, Tolikin işi çoxdur, bu uşaqlar da mənə yiyəlik etmək istəmir. Deyirsiz, ta bir də bu hamama gəlməyək?!

– Qələt eləyillər, ağsaqqal! – oğlan bərk əsəbiləşdi. – İt uşağı yenə başladı hoqqa çıxarmağa? – sonra əlavə etdi: – Zəhmət olmasa, arxamca gəlin.

İçəri girən kimi kisəçilərə qışqırdı:

– Ə, siz qudurmusuz?! İşdən sonra heç kim evə getməsin. İclasdı, – üzünü yanındakı gənc oğlana tutub: – Sən başla, gözləmə, – dedi. – Sabahdan sizə elə bir toy tutum ki, ağlınız başınıza gəlsin.

Oğlan son sözlərini deyə-deyə, hirsli halda dönüb getdi. Kisəçi "müəllim, sən uzan, mən bu dəqiqə gəlirəm" deyib tez Tolikin yanına qaçdı:

– Qağa, mən onu yola verməsəm, müdir ikimizi də işdən qovacaq. Bilirsən ki, indi iş tapmaq çox çətindi. İcazə ver, müəllimi işləyim, qazancı sənin olsun.

– Yaxşı, işlə, – deyə Tolik kefsiz halda dilləndi.

Cahangir müəllim çimib qurtardıqdan sonra özündən razı halda hamamdan çıxdı. Çantasını arxa oturacağın üstünə atıb sükan arxasına keçdi. Əli əsalı kişiyə bir manat verib mühərriki işə saldı. Bərk acsa da, kefi çox kök idi. Bilirdi ki, həyat yoldaşı Bahar xanım onu böyük sevinc və coşqu ilə qarşılayacaq.

Ağsaqqal

“Bazarbank”ın müdiri ətirləndikdən sonra barmaqları ilə çənəsini yoxladı. Səhər üzünü qırxmaması elə də hiss olunmurdu. Diyircəkli kreslosunu sağa döndərib yan tərəfdəki telefonun düyməsini basdı. Katibə dodaq boyasını çantaya atıb tez dəstəyi qaldırdı.

– Buyurun, Qadir müəllim, eşidirəm.

– Qəbulda kim var?

Müdirin zabitəli sorğusuna katibə mülayim səslə cavab verdi:

– İki nəfərdi. Biri Şakir müəllimdi, o biri də....

Müdir qızın sözünü ağzında qoydu:

– Şakir gəlsin.

Şakir müəllim güzgüyə baxdı. Sağ əli ilə telinə sığal çəkib özünü düzəltdi. Qapını döyüb “buyur” işarəsi gözləmədən içəri keçdi. Müdir ayağa qalxıb Şakir müəllimi böyük şövqlə qarşıladı.

– Ay səni xoş gördük, əziz qardaş! Necəsən? Nə var, nə yox? Ağsaqqal necədi?

– Yaxşıdı, Qadir müəllim. Sizə də salamı var.

– Sağ olsun. Allah onu var eləsin. Allah onun kölgəsini üstümüzdən heç vaxt əskik eləməsin .

– Əlbəttə, qardaş. O olmasaydı, indi biz kim idik ki?

– Elədi, qardaş, elədi, – deyə müdir həm sözlə, həm də baş hərəkəti ilə onun sözünü təsdiqlədi.

Şakir müəllim aradakı ani sükutdan istifadə edib yubanmadan əsas məsələyə keçdi:

– Qadir müəllim, vaxtınızı çox almayım. Deməli, mühasiblə də, mühəndislə də danışdım. Sizin təklifinizə elə bir iradım yoxdur. Ancaq gərək bir işdə bizə köməklik edəsiniz.

– Buyurun, mən hazır, – Qadir müəllimin sifətində xeyirxah, işgüzar bir ifadə oxundu.

– Bilirsiz, Qadir müəllim, bir-iki yer var, indidən ağzını açıb bizi gözləyir. Deyirəm, əvvəldən pulun başına daş salsaq, axırda o biri obyektlər kimi, bu bina da yarımçıq qalacaq, yük olacaq peysərimizdə. İcazə verin, sizə çatacaq məbləği ikinci "tranş"da ödəyək.

Bu gözlənilməz təkliflə sanki müdirin başına bir qazan qaynar su tökdülər. Elə bil dalağı sancdı, içində qəribə, indiyə qədər müşahidə etmədiyi sancı baş qaldırdı. Yerində qıvrılıb baxışlarını stoldan ayırmadan ağır-ağır dilləndi:

– Bilirsən, nə var, Şakir? Məsələ sən fikirləşdiyin qədər də sadə deyil. Mən sənə bu pulu öz cibimdən vermirəm ki, istədiyim kimi hərəkət edim. Mənim heç nəsli-nəcabətim yığışa, o qədər pulu bir yerə toplaya

bilməz. Hər yerin öz haqqı var. Mən gücüm çatmayan yükün altına girə bilmərəm. Gərək bağışlayasan. Qaldı o biri məsələyə, axı indiyə kimi hansı borclunun xətrinə dəymişdilər, qalmışdın sən? Uzağı, tikintini yarımçıq vəziyyətdə təhvil verəcəksən bizə, vəssalam.

Şakir müəllim işini aşırmaq üçün yumşaq səslə dedi:

– Sizi başa düşürəm, Qadir müəllim. Ancaq unutmayın ki, bu, ağsaqqalın təklifidi, mənim yox. Deyirdi ki, Qadir pis oğlan deyil. Yəqin ki, ora necə düzəldiyini də yaddan çıxarmayıb.

Qadir müəllim bilərəkdən özün elə göstərdi ki, guya çox narahat oldu:

– Allah eləməsin, ay Şakir. Mən çörək itirən adam deyiləm. Ancaq sən də vəziyyəti başa düş. Bu, mənə aid olan məsələ deyil.

– Bəs onda nə edək? Ağsaqqala nə deyək?

Müdir vəziyyətdən çıxmaq üçün tam səfərbər olmaq qərarına gəldi:

– Bilirsən, Şakir, and olsun o bir olan Allaha ki, məndən başqa heç bir köpəyoğlu bu məsuliyyətin altına girməz. Mən boynumu baltanın altına qoyub bu işə gedirəm. Özün deyirsən, bunu təcili edək ki, bilmək olmaz, sabah nə olacaq. O biri tərəfdən də heç bir sənədin, girovun-zadın yox. Bir dənə layihə verəcəksən – kağız parçası, onu da ki, Allah bilir, nə vaxt. Vallah, mən bundan artıq heç nə edə bilmirəm.

Bu cavab Şakir müəllimi qane etmədi. Odur ki, yenidən müdiri sıxmaq qərarına gəldi:

– Deməli, ağsaqqalın sözünü yerə salırsan?

Müdir vəzifəsini itirəcəyindən qorxub bu "tikanlı paz"dan canını qurtarmaq üçün bazarlığı davam etdirmək məcburiyyətində qaldı:

– Bəlkə, belə edək, ay Şakir? Yarısını indi verəsən, yarısını da ikinci 10 milyonu alanda.

Şakir müəllim istədiyi nəticəni əldə etdiyinə görə söhbəti çox uzatmadı:

– Eybi yoxdu, olsun, mən razı. Yəqin ki, ağsaqqal da etiraz etməz. Pulu indi götürə bilərəmmi?

– Sabah nahardan sonra gələrsən. Pul problemi yoxdu. Gərək formal da olsa, bir-iki sənəd hazırlayıb bu işə qanuni don geydirək ki, ağzıgöyçəklər orda-burda artıq-əskik danışmasınlar. Əsas odu ki, səs çıxmasın.

– Oldu, qardaş. Onda icazə ver, mən gedim.

– Sağ-salamat, sağ-salamat. Allah xeyir versin. Ağsaqqala məndən salam deyərsən.

Şakir müəllim kefi kök halda otaqdan çıxdı. Hədiyyəsini əvvəlcədən alan katibə onu gülər üzlə yola saldı. Sonra müdirə aid telefonun dəstəyini qaldırıb nazlanaraq dedi:

– Qadir müəllim, Səfər müəllim gəlsin?

– Səfər kimdi, ay qız?!

– Səfər Küskün... "Vicdan" romanı... Yazıçı...

– Səfər-məfər tanımıram. Onu içəri kim buraxıb? De ki, vaxtı yoxdu. İşi başdan aşır. Getsin, bir aydan sonra gələr.

– Qadir müəllim, dünən Sizi calaşdırdım, danışdız. Yazıçıların müdiri xahiş etmişdi.

– Hə, hə, düz deyirsən. Yadıma düşdü. Nə istəyir?

– On min.

– De, gəlsin.

Yazıçı içəri keçib salam verdi. Müdir xüsusi əda ilə:

– Əleyküməsalam, Küskün müəllim. Eşidirəm sizi. Buyurun.

– Bilirsiz də, sizə demişdilər. Qızı köçürməliyəm. On min manat pul lazımdı. Allah qoysa, iki ilə qaytaracam.

– Birdən qaytarmadın, onda necə?

– Elə şey olar? Qaytaracam! Evin yanında işə də düzəlmişəm. Mağazada gözətçi... Hər ay təqaüdlə bərabər, maaş da alacam. Düzdü, indi toyda restoranlardan bir şey saldırmaq olmur. Ancaq sizə söz verirəm ki, özümü toparlayıb iki ilin içində borcun belini qıracam.

Müdir Səfər müəllimdəki dirənişi görüb dedi:

– Girovun nədir?

– İki otaqlı evim, qardaş. Əhmədlidə.

– Qorxuram sənə sərf etməyə. Bizdə faizlər çox yuxarıdı.

– Olsun, qardaş, eyb etməz. Onsuz da başqa çıxış yolum qalmayıb. Qız üç ildi nişanlıdı. Sizə güvənib toyun vaxtını da təyin etmişik.

– Şair qardaş, düzü, biz krediti yalnız bacarıqlı iş adamlarına veririk. Müstəsna hal kimi sizə kömək

edərik. Ancaq gərək bura daha üç nəfər gətirəsiz ki, sizə zamin dursun. Allah eləməmiş, özünüzün, ya evinizin başına bir iş gəlsə, onlar gətirib həmin pulu ödəməlidilər.

– Ay bala, mən o adamları hardan tapım? Məgər siz mən boyda kişiyə inanmırsız?

Müdir səsinin tonunu qaldırdı:

– Küskün müəllim, siz ki oxumuş adamsınız, niyə başa düşmürsünüz? Bu dövlət yiyəsiz deyil ki, gözünü yumub hər yoldan ötənə pul verəsən! İnan ki, bir qəpik o yan-bu yan ola, adamın atasını yandırarlar.

Səfər müəllimin deməyə sözü qalmadı. Pərt halda başını aşağı salıb kor-peşman otaqdan çıxdı. Katibəyə "sağ ol" deməyi belə unutdu.

Dərdin ağırlığından ayaqlarını ata bilmirdi. Cilova gəlməyən düşüncələri beynini didib parçalayırdı. Ürəyini göynədən dəhşətli ağrıya məhəl qoymadan irəliləyirdi. Evdə qızına nə deyəcəkdi? Həyat yoldaşına nə cavab verəcəkdi?

Ağır düşüncələr içərisində hara getdiyinin fərqinə varmadan piyada keçidi olmayan yerdən asfalt yola çıxdı. Sürətlə gələn avtomobilin sürücüsü qarşıya qəfil çıxan adamı görüb var gücü ilə əyləcə basdı. Dəhşətli uğultu ətrafdakıları qeyri-ixtiyari hadisə olan tərəfə dönməyə məcbur etdi.

Qonaq

İsti yay günlərindən biri idi. Futbol oynayan uşaqlardan başqa həyətdə kimsə gözə dəymirdi. Bayırdan gələn səs mətbəxdə biş-düş edən Fatma xalanı xəyaldan ayırdı:

– Ay Fatma xala! Ay Fatma xala!...

Fatma xala pəncərəni açıb uşaqlara tərəf səsləndi:

– Nədi, a bala? Nə qışqır-bağır salmısız? Yenə topunuz balkona düşüb?

– Yox e, Fatma xala, sizi soruşurlar. Qonağınız gəlib.

Fatma xala diqqətlə baxsa da, 25-30 yaşlarındakı ucaboy oğlanı tanıya bilmədi.

– Ay bala, kimsən? Qalx ikinci mərtəbəyə, qapını açıram.

Qonaq qıvraq addımlarla yuxarı qalxdı. Fatma xala yaşadıqları birotaqlı mənzilin giriş qapısında onu gözləyirdi.

– Buyur, ay bala, nə lazımdı?

– Sağlığın, ay xala. Oğlunuz Allahverdidən sizə salam gətirmişəm.

Oğlunun adını duyar-duymaz arvad yerindəcə donub qaldı. Sifəti ağardı. Nitqi qurudu. Nəfəsi ağırlaş-

mağa başladı. Qulaqlarına inanmağı gəlmədi. On il idi ki, oğlu işsizlik ucbatından baş götürüb ölkədən getmişdi. İndiyə kimi ondan bir xəbər gətirən olmamışdı. "Yəni doğrudanmı uşaq sağdı?" – deyə düşündü. Handan-hana özünə gəlib titrək səslə dedi:

– Xəbər gətirən dilinə qurban olum, ay bala! Qapıda durma, keç içəri!

Başqa vaxt olsaydı, tanımadığı adamı otağa buraxmazdı. Bir həftə əvvəl oğrular polis formasında sələmçi Totunun evinə girib hər şeyi sil-süpür eləmişdilər. Ancaq oğlunun adını eşidən kimi oğurluq məsələsi Fatma xalanın yaddaşından tamam silindi. Gözləri dolmuş halda soruşdu:

– Ay başına dönüm, ay sənə qurban olum, uşaq salamatdımı?

– Kanişna, ay xala. Özü də tezliklə gəlir.

Fatma xala özünü ələ alıb tələsik mətbəxə keçdi. Çay hazırlığı görməzdən əvvəl tez ərinə zəng etdi:

– A kişi, hardasan? Tez gəl evə. Qonağımız gəlib. Allahverənnən xəbər var.

Hidoşun çayxanasında domino oynayan kişinin evə gəlməsi çox çəkmədi. O, təngnəfəs halda özünü içəri salıb sorğu-suala başladı:

– Ay sənə qurban olum, ay sənin başına dönüm, belə də zülm olar? Bəs bu demir, atam var, anam var. Gözünün ağı-qarası bir uşaq ola, min əziyyətlə böyüdüb

boya-başa çatdırasan, sonra da gecə-gündüz Allaha yalvarasan ki, balamı mənə qaytar.

Fatma xalanın yanaqlarından yaş axırdı. Kişi isə durmadan sualları yağdırırdı:

– Ay bala, bəs bu on ildə niyə bir xəbər göndərmirdi, zəng eləmirdi?

– Doğrusu, ay dayı, əvvəllər vəziyyəti heç də yaxşı deyildi. Bizimkiləri bazarda incidirlər, işləməyə qoymurlar. Oğlunuz kirayə haqqı verməsin deyə, gecələr yaşlı bir arvadın yanında qalıb onun təmizliyinə baxırdı. Bu yaxınlarda həmin arvad başını qoydu yerə. Onun da ki nəyi vardı, hamısını Alikə vəsiyyət etmişdi. İndi oğlunuzun vəziyyəti lap yaxşıdı.

– Ay bala, şükür, acından ölmürdük ki, aldığımız təqaüdlə birtəhər dolanırdıq. Onu ən çox gələcək həyatı narahat edirdi. Yazıq uşaq buralarda bir iş tapsaydı, bizi gözüyaşlı qoyub getməzdi. Qadan alım, danış, danış görək, ta nə bilirsən?

– Alik orada dili də yaxşı öyrənib. Deyirdi ki, rus dilini bilənləri Bakıda işə tez götürürlər. Bir də dedi, kişiyə deyərsən ki, o biri yerlilərim kimi mən burada evlənib-eləməmişəm. Bir halal südəmmişin taparlar, gedib toyumu edərəm.

Bu yerdə kişi özünü saxlaya bilmədi:

– Onun taylarının üç-dörd uşağı var. Niyə mənə nə olub? Bir az özümüzdən, bir az da qonum-qonşudan pul yığıb onun toyunu edə bilmirəm? Sonra borcumu-

zu yavaş-yavaş qaytararıq. Gərək əvvəldən tədarük görüm ki, restorana borcumuz qalmasın. Yoxsa gəlinimi girov saxlayıb məni şəhərdə rüsvay edərlər.

Allahverdinin maddi vəziyyətinə bələd olan oğlan dedi:

– Alik deyirdi ki, qəbir yeri almaq üçün kişinin "zapas"da 5-3 manatı olar da, olmaz da. Fikri var, gələn kimi ev alıb evlənsin. Sonra da "haqqını" verib yaxşı bir işə keçsin. Odur ki, narahat olmayın, oğlunuz evə cibidolu gəlir.

Pulun miqdarı valideynlərin maraq dairəsində olsa da, o barədə söz salmağa üzləri gəlmədi. Kişi dedi:

– Ay bala, təki sağ-salamat gəlsin. Gözləməkdən gözümüzün kökü saraldı. Öldük-dirildik. Belə də iş olar? Nə bilim, vallah, yenə də Allah bilən məsləhətdir. Ancaq mən onu ev almağa qoymaram. Qoy bizimlə yaşasın. Odu ey, qumarbaz Miqinin atası. Əlində daşdan keçən sənədlərlə beş ildi məhkəmələrdə sürünür. Döymədiyi qapı qalmayıb. Nə verdiyi pulu ala bilir, nə də evini.

Bayaqdan sakitcə dayanan Fatma xala bu yerdə özünü saxlaya bilmədi:

– Boy, uzağa niyə gedirsən, a kişi? Qonşumuz falçı Zəroş yadından çıxıb? Qızını işə düzəltməyə bir ətək pul vermədimi? Axırı nə oldu? Pulu yedikləri bəs deyil, yazıq qızın diplomunu da it-bata saldılar. Bizim uşağın yaxşı səsi var. Yadındadı, kişi, bütün günü evdə

mızıldanardı? Dövlət işində nə var ey? Mənnən olsa, geyinib-kecinib toylara gedər, yaxşı da qazanar.

Arvadla kişinin özünə gəldiyini görən oğlan mobil telefonunu çıxarıb Allahverdini aradı. Kişi telefonu alıb tez qulağına sıxdı. O başda oğlunun səsini eşidər-eşitməz həyəcan içində sözə başladı:

– Ay sənin başına dönüm! Ay sənə qurban olum! Atan ayaqlarının altında ölsün, bala! Evim-eşiyim sənə qurban! Bala, ta biz ölürük. Bəs sən harda qaldın, gözümün işığı? Bu nə dağdı sinəmizə çəkirsən?! Mənim səndən başqa təsəlli alası bir kimsəm yoxdu axı, ay sənə qurban olum! Biz sənə nə dedik ki, evdən getdin? Anan da, mən də başına dolanırdıq. Bizim ki səndən bir umacağımız yox idi, ay sənə qurban olum. Mən heç, bu qoca anana yazığın gəlsin, ay sənin başına dönüm! Ay sənə qurban olum!...

Çaylar buza dönmüşdü. Arvad da, kişi də dayanmadan hönkür-hönkür ağlayırdı. Aramsız yaş gözlərindən sel kimi axırdı. Qonaq isə heç nə demədən key kimi onlara baxırdı.

Oğlanı danışmağa qoymadılar. Telefonu növbə ilə özünə gah kişi dartdı, gah da ki arvad. Nə qədər danışsalar da, ağlasalar da, ürəklərini boşaldıb qurtara bilmədilər. Məqsədləri Allahverdinin geri qayıdacağına əmin olmaq idi.

Bununla belə, ürəyinin dərinliyindəki böyük bir narahatlıq hissi kişini tərk etmirdi. Düşünürdü ki, övladı qayıdandan sonra öz normal həyatını qura biləcəkmi? Görəsən, gəlib fırıldaqçıların toruna düşməyəcək ki?...

Putyovka

Həsən kişi hər il növbəyə dayansa da, yayda "Şəfa" sanatoriyasına getmək üçün putyovka ala bilmirdi. Təqaüdə çıxmasına altı ay qalırdı. Bilirdi ki, işi ilə vidalaşandan sonra putyovka barədə düşünməyə belə dəyməz. Yerli təşkilatın sədri hər dəfə söz versə də, sözünə əməl edə bilmirdi. Havalar qızan kimi putyovkalar yuxarılarda it-bata düşür, onların əlinə gəlib çatmırdı. Həsən kişi də səbrini basaraq növbəti yay fəslini gözləməli olurdu.

Gedəcəyi sanatoriya dəniz kənarında, təmiz, narın qumlu çimərlik sahəsi olan ərazidə yerləşdiyindən yay vaxtı ora düşmək, həqiqətən də, asan məsələ deyildi. Həsən kişinin yayda getməkdə məqsədi müalicə almaqla bərabər, həm də çimərlikdəki xanımlarla bir arada istirahət etmək idi. Lakin oxu üç dəfə daşa dəyəndən sonra inadından əl çəkib aprel ayı üçün idarələrinə verilən yeganə putyovkaya sahib olmaq qərarına gəldi. Məzuniyyətinin vaxtı çatmasa da, müdir ağsaqqallığını və təqaüdə çıxacağını nəzərə alıb onun sanatoriyaya getməsinə razılıq verdi. Son vaxtlar ürəyinin ara-sıra

ağrıması, şıltaqlıq etməsi Həsən kişini bu fürsətdən yararlanmağa məcbur etdi. Fikirləşirdi ki, birdən başına bir iş gələr, uşaqlarını yerbəyer edə bilməz. Yoxsa, sən deyən, ölümdən qorxan deyildi. Hərdən söz düşəndə "Süleyman peyğəmbərə qalmayan dünya heç kimə qalan deyil, əvvəl-axır hamı getməlidir..." – deyə söhbətlər edərdi. Uşaqlarını evləndirə bilmədiyi üçün çoxdandı içində bir narahatlıq var idi. Oğlanlarından o qədər də nigaran deyildi. "Bircə qızı ərə verib yerbəyer eləsəydim... Oğlanlar öz çulunu sudan birtəhər çıxardar" – deyə düşünərdi.

Həsən kişi tez bir zamanda işlərini sahmana saldı. Ailədən nigaran qalmasın deyə, uşaqlarına bəzi göstərişlər verdi. Sonra övladlarının üzündən öpüb arvadı ilə görüşərək evdən çıxdı.

***

Sanatoriyada sakitlik idi. Həyətdə gəzişən üç-dörd adamdan başqa kimsə gözə dəymirdi. Giriş qapısını açıb içəri daxil oldu. Qeydiyyat yerində oturan qıza salam verib atasından qalma balaca çamadanını yerə qoydu. Sonra döş cibindən şəxsiyyət vəsiqəsi ilə putyovkanı çıxarıb qıza uzatdı:

– Al, bala. Deyəsən, "Şəfa"da müalicə almaq bizə də qismət oldu.

– Əlbəttə, ay dayı. İnşallah, tezliklə sağalıb evinizə dönərsiniz, – deyə qız cavab verdi və sonra da əlavə

etdi: – Bəs arayışınız, həkim kağızınız, diaqnozunuz hanı?

– Ay bala, kənd həkiminin kağızı sizin nəyinizə lazımdı? İstəsəniz, tapşıraram, yazıb göndərəllər, – deyə kişi cavab verdi.

– Ürəyini sıxma, ağsaqqal. Canın sağ olsun, yoxdu, yoxdu da. Məgər mən ölmüşəm ki?! Özüm hamısını düz-qoş edəcəyəm.

– Sağ ol, bala, – deyə kişi öz minnətdarlığını bildirdi. Sonra qalacağı otağın açarını alıb: – Qızım, qeydiyyat üçün pul ödəməliyəmmi? – deyə soruşdu.

– Ay dayı, ürəyin necə istəyir, elə də elə. Biz heç kimi məcbur eləmirik. Beş də verən olur, on da. Əgər məndən narazı qaldınızsa, gedə bilərsiniz.

On manat Həsən kişiyə bir az çox göründü. Bilmirdi qarşıda onu daha hansı xərclər gözləyir. Axı yenicə gəlmişdi. Hələ geri dönənə kimi əli cibində olmalı idi. Beşmanatlığı qıza tərəf uzadıb dedi:

– Al, bunu sənin şirin dilinə görə verirəm.

***

Nahar fasiləsinə üç saat qalırdı. Vaxt itirmək olmazdı. Həsən kişi əynini dəyişib müayinə olunmaq üçün tez həkimin qəbuluna getdi.

50-60 yaşlarında olan ortaboylu, qarasaç həkim Həsən kişini gülər üzlə qarşıladı. Onun hardan gəldiyi ilə maraqlandı. Sonra sanatoriya kitabçasını bir kənara qoyub dedi:

– Kənddə nə var, nə yox? Camaat dolana bilirmi?

– Sağ ol, qardaş. Hamı yaxşıdı, – deyə xəstə cavab verdi.

Həkim Həsən kişini diqqətlə dinləyib bəzi suallar verdi. Qurşağa qədər soyunan xəstənin ürəyinə və ciyərlərinə fonendoskopla qulaq asdı. Təzyiqini ölçdü. Çarpayıya uzadıb kardioqrafiya etdi. Ətraflı müayinədən sonra təyinatları yazıb səbirsizliklə cavab gözləyən Həsən kişiyə dedi:

– Bəs sən səhhətindən xəbərdar ola-ola niyə bu vaxta qədər əməlli-başdı müalicə almamısan?

– Nə bilim, ay qardaş. O qədər sıxıntımız, maddi çətinliyimiz var ki. – Həsən kişi gileyləndi.

– Ağsaqqal, can sağlığı pula baxmır ha! Sağlamlığın təkcə sənə yox, həm də ailənə lazımdı. Əgər sən olmasan, kim onların əziyyətini çəkib qulluğunda duracaq? – deyə həkim etirazını bildirdi.

– Orası elədir, həkim. Oğlanlarım işləmir deyə, bütün ailə mənim üstümdədi. Çatdıra bilmirəm. Yığıb-yığışdırmaq olmur. Bir problemdən yaxa qurtarmamış o biri baş qaldırır. Dava-dərman da ki od qiymətinə. Çoxu xaricdən gəlir. And olsun Allaha, həkim, bəzən başımı elə itirirəm ki, naharı belə unuduram. Neynim, görünür, mənimki də belə gəlib...

– Narahat olma, kişi, səni elə müalicə edəcəyəm ki, heç olmayan kimi. Əsas odur ki, yazdığım təyinatlara vaxtlı-vaxtında, dəqiqliklə əməl edəsən. Gəzintini də

yaddan çıxarma, çoxlu hərəkət elə. Yaxşı haldı ki, siqaret çəkmirsən.

Həkim Həsən kişiyə tapşırıqlarını verib əlavə etdi:

– Get, dediklərimə əməl elə. Biz hələ sənlə görüşəcəyik. Bir narahatlığın olsa, yaxınlaşarsan.

– Sağ olun, çox razıyam. – Bir az ara verib sözünə davam etdi: – Bağışlayın, həkim, sizə nə qədər hörmət etməliyəm?

– Nə deyim, ağsaqqal? Özünüz dünyagörmüş adamsızınız. Hansı həkim 180 manata burda işləyər ki? O, heç yol pulu eləmir. Mən hələ işıq pulunu, qaz pulunu, su pulunu demirəm. Ancaq məcbur da deyilsən. Bilirəm ki, sən də mən günlüsən. Yaxşı ki, yenə kənddə təsərrüfatla, toyuq-cücə ilə başınızı birtəhər dolandırırsınız. Buralarda o imkan da yoxdu. Bir iş olsaydı, vallah, elə mən də köçüb kənddə yaşayardım. Nə var ey şəhərdə? Nə düz-əməlli havası var, nə də ki suyu.

– Məzənnə nədir? – Həsən kişi həkimi həddən ziyadə dil tökməyə qoymadı.

– Vallah, bax da. On da verən olur, iyirmi də. Mən nə deyim ki?

Həsən kişini tər bassa da, bir söz deməyib söhbəti çox uzatmadı. Ürəyində "Allah, sən özün kömək ol" deyib on manatı stolun üstünə qoydu. Həkim xəstənin davranışına, qırımına baxıb sözünə davam etdi:

– Bax ha, ağsaqqal, yoxdusa, heç o da lazım deyil. Halal xoşun, geri götürə bilərsən.

Həsən kişi verdiyini geri alan kişilərdən deyildi. Üstəlik qabaqda həkimlə üz-üzə gələcəkdi. "Olmadı elə, oldu belə. Götürüb elə bir resept yazar ki, vayıma uşaqlarım axışıb gələr" düşüncəsi Həsən kişinin başını dumanlandırdı:

– Yox, ay qardaş, halal xoşun olsun. Götür, qoy cibinə.

***

Həsən kişi məsuliyyətli adam idi. Səhər tezdən yataqdan qalxıb yuyundu. Sonra sanatoriya kitabçasını götürüb ona lazım olan otaqları dolanmağa başladı. Əvvəlcə 1 saylı qapını döyüb içəri keçdi. Şüşə qabdakı sidiyi qoymaq üçün yer soruşdu.

– Ağsaqqal, sənə qurban, narahat olma. Özüm yerbəyer edərəm, – tibb bacısı qabı aldı: – Yüksək səviyyədə analiz eləyib nəticəsini sizə çatdırarıq. Özünüzdən muğayat olun, siz yaxşı kişisiniz...

Həsən kişi "qiymət"i soruşmadan qızın xalatının yan cibinə beş manat qoyub dəhlizə çıxdı. Qan analizi vermək üçün növbəti otağın qapısını döydü.

– Adam var, gözləyin, çağıraram, – deyə laborant səsləndi.

Xəstə çıxan kimi Həsən kişi qapını yenidən döyüb içəri keçdi. Orta yaşlarında, səliqəli geyinmiş, ağ xalatlı xanım salamı alıb yer göstərdi:

– Buyurun, əyləşin. – Sonra əlavə etdi, – zəhmət olmasa, sol əlinizi mənə verin.

Qan alınan adsız barmağı incisə də, Həsən kişi səsini çıxarmadı. Bilirdi ki, qan analizi ürək məsələsində mühüm amillərdən biridir. Laborant işini qurtaran kimi Həsən kişi soruşdu:

– Nə qədər verməliyəm?

– Baxın da. Problem deyil. İmkanınız nəyə çatırsa. Məcburi deyil ki...

Həsən kişi duruxdu: "Beş az olar, on çox". Hazırlıqlı gəlmişdi. Stolun üstünə yeddi manat qoyub çıxdı. Arxasınca deyilən "sağ ol, ağsaqqal" sözünü də eşitdi.

Həsən kişi əlinə düşən imkandan tam yararlanıb həkimin bütün göstərişlərinə əməl etməklə evinə – ailəsinin yanına gümrah qayıtmaq istəyirdi. Odur ki, səhər yeməyini yedikdən sonra yubanmadan masaj otağına yollandı. 40-45 yaşlarındakı gülərüzlü, sarışın xanım Həsən kişini çox mehriban qarşıladı:

– Xoş gördük, cavan oğlan. Necəsən?

– Sağ ol, babatam, – kişi gülümsəyərək cavab verdi, – sən yaxşı ol.

– Həsən kişi, ürəyini heç sıxma. Səni elə sazlayacağam ki, olacaqsan on beş yaşında cavan bir oğlan.

– Görək da, qəşəng qız, – deyə Həsən kişi də zarafatından qalmadı.

– İnanmırsan? Evə qayıdanda biləcəksən. Arvad səndəki enerjini görüb gözlərinə inanmayacaq! – deyib tibb bacısı qəşş elədi. Sonra da masaj çarpayısını göstərib dedi: – Zəhmət olmasa, uzanın bura, həyatın ləzzətini görün.

Xanım yumşaq, zərif əlləri ilə ağsaqqalın bədəninə sığal çəkib ovxaladıqca bu, ömründə masaj görməyən Həsən kişinin canına yağ kimi yayılırdı. Həsən kişi bu müalicə üsulunu bədənin keçi piyi ilə yağlanmasına oxşadırdı. Ancaq aradakı fərqin böyüklüyünə söz ola bilməzdi. O, bu əllərin ləzzətini indiyə kimi həyat yoldaşı Gülsənəm arvadda hiss etməmişdi.

Masajçı xanım işini qurtarıb dedi:

– Ay oğlan, vaxt bitdi. Davam edimmi?

– Mən bilmirəm axı, gözəl qız. Qayda necədi?

– Əlavə yarım saatı on manat, – deyə xanım bildirdi.

– Elə, qadası, elə. Sənə halaldı, – Həsən kişi fikirləşmədən cavab verdi.

Davamı Həsən kişi üçün daha maraqlı oldu. Tibb bacısı kişidəki həvəsi görüb putyovkanın müddəti qurtarana kimi ondan faydalanmaq fikrinə düşmüşdü. Odur ki, danışa-danışa kişinin bədənini sığallayır, ikibaşlı sözlərdən istifadə edib söhbətə şirinlik qatırdı. Xanımın əl hərəkətləri isti bir gizilti şəklində Həsən kişinin bütün bədəninə yayılır, vücudunu lərzəyə gətirirdi. Axıra yaxın kişinin budlarını fərqli şəkildə əlləşdirib tumarladı. Hətta bir-iki dəfə əli ilə "təsadüfən" kişinin həssas yerinə də toxundu. Həsən kişi "siqnal"ı qəbul edib dostu Vəli kişinin təlimatını xatırladı: "İmkan düşsə, əldən buraxma". "Yaxşı şeydi, girişməyə dəyər" – deyə Həsən kişi özünə toxtaqlıq verdi. Xanımın gözəlliyi, geniş ağ sinəsindən boylanan girdə döşləri,

gözəl bədən quruluşu onu valeh eləmişdi. Haradan, necə başlamağı götür-qoy edirdi ki, həyat yoldaşı Gülsənəm arvad əzrail xofunda gəlib durdu gözünün qabağında. Kefi bir az pozuldu. "Lənət şeytana" deyib bu işi müvəqqəti də olsa, təxirə salmaq qərarına gəldi. Xanım işini tamamlayıb dedi:

– Bu günlük bəsdi, cavan oğlan. Geyinə bilərsən. Adım Zemadır.

– Qasan, – deyə Həsən kişi cavab verdi, – 57 nömrəli otaqda qalıram.

Geyinib qurtarandan sonra Zemaya on manat uzatdı.

– Elə bu? – Xanım nazlanaraq soruşdu.

– Darıxma, Zema. Biz hələ görüşəcəyik. Məndən razı qalacaqsan, – deyə Həsən kişi gülərək ondan ayrıldı.

Növbəti müalicəni almaq üçün kefi kök halda vanna otağına yaxınlaşdı. Yerdən təbii şəkildə çıxan zəngin mineral tərkibli bu suyun insanın əsəb sisteminə, ürəyinə çox faydalı olduğu deyilirdi. Növbədə adam olmadığından qapıdakı gənc tibb bacısı Həsən kişini içəri dəvət etdi. Vanna su ilə dolana kimi kişi də paltarını soyundu. Qız dedi:

Buyurun, zəhmət olmasa, – kişinin əlindən tutub vannaya qalxmasına kömək etdi: – "Ni boysya", suyun isti olması sizi qorxutmasın. İnşallah, sağalıb evinizə qayıdarsız.

Həsən kişi vannada uzanıb on dəqiqə gözlədi. Vaxtın tamamında ehtiyatla qalxıb paltarına yaxınlaşdı.

Bədənini qurulayıb əynini geyindi. "Sağ ol" deyib otaqdan çıxmaq istəyəndə tibb bacısı məlun baxışlarını ona zilləyib yavaş səslə dedi:

– Bəs hörmət etmirsiz?

– Məgər "sağ ol" demək hörmətsizlikdi? – deyib Həsən kişi hirsli halda qızdan ayrıldı. Sonra "nə etdi ki ey, ona da pul verim?" deyə öz-özünə deyindi. Ancaq qızdan ayrılsa da, onun narazı baxışlarından yaxa qurtara bilmədi. Elə bil qız arxasınca düşüb onu təqib edirdi.

Bu gün axırıncı müalicə prosesi elektroforez idi. Həsən kişi hələ sanatoriyaya gəlməmişdən özünə söz vermişdi ki, həkimin bütün göstərişlərinə diqqətlə əməl edəcək. Saata baxıb 12 nömrəli qapıya yaxınlaşdı. Saçları çiyninə tökülmüş mavi gözlü, orta yaşlı tibb bacısı Həsən kişini incə nəvazişlə içəri aldı. Sonra mehribanlıqla dedi:

– Zəhmət olmasa, qurşağa qədər soyunun.

Tibb bacısı üstünə naqillər pərçimlənmiş balaca dəmir lövhələri nəm əskilərin arasına yerləşdirdikdən sonra Həsən kişinin sinə və bel nahiyələrinə qoyub arxası üstə çarpayıya uzatdı. Üstünü adyalla örtüb tərpənməməyi xahiş etdi. Aparatı işə salan kimi aşağı gərginlikli elektrik cərəyanı Həsən kişinin bədənini gizildətdi.

– Narahat olmayın, heç nə olmaz, – xanım dedi, – əgər incitsə, xəbər edərsiz.

Həsən kişi bədəninə yayılan cərəyanın əhəmiyyəti barədə heç nə soruşmadı. Sakitcə uzanıb vaxtın bit-

məsini gözlədi. Proses başa çatandan sonra tibb işçisi ləvazimatları yığışdırdı. Əl verib xəstənin qalxmasına köməklik etdi. Xanımın qayğıkeşliyi, göstərdiyi nəvaziş Həsən kişiyə çox xoş gəldi. Paltarını geyinib qurtarandan sonra sakitcə dayanıb onu gözləyən gülərüzlü tibb bacısına beş manat verib "sağ ol" dedi. Bu vaxt nədənsə yenə də pul vermədiyi gənc qızın məlun baxışları, narahat halı yadına düşdü. Fikirli halda qaldığı otağa gəlib əlindəki sellofan torbanı çarpayının üstünə atdı. Otaqda səliqə-sahman yaradan nisbətən yaşlı, bəstəboy qadına beş manat uzadıb dedi:

– Sağ olun, gedə bilərsiniz.

Sonra hazırlaşıb yeməkxanaya nahar süfrəsinə yollandı. Yemək stolunun arxasında da narazı qalan qızın baxışları Həsən kişini rahat oturmağa qoymadı. "Mən də qəribə adamam ey. Niyə hamıya pul verdim, ona çatanda əlim gəlmədi? Guya ki, beş manatla dövlətli olacaqdım?" – deyə öz-özünü danladı.

Birlikdə nahar etdikləri daha yaşlı adam Həsən kişinin narahatlığını hiss edib soruşdu:

– Ağsaqqal, gözümə birtəhər dəyirsən. Problem-zad yoxdu?

Həsən kişi "problem"in nədən ibarət olduğunu anladandan sonra stol yoldaşı dedi:

– Paho! Heç yaxşı iş görməmisən. Evdən çıxanda bilirdin ki, kurorta gedirsən. Beş manat nədi ki, yazıq uşağa qıymamısan? Düşünmədinmi, birdən qarğış-

zad edər, dalınca danışar? Kişi, bəs sənin ad-sanın, mərdliyin harda qaldı?

Daha təcrübəli stol yoldaşının qınağından sonra Həsən kişinin narahatlığı daha da artdı: "Biabır oldum. Söhbət yayılsa, yəqin ki, sanatoriyada hamı məni barmaqla göstərəcək, tibb işçiləri də gözümçıxdıya salacaqlar. Düz eləmədim, heç düz eləmədim!" deyə Həsən kişi özünü danlayır, fikirdən qurtara bilmirdi.

***

Gecəni yata bilməyib səhərə qədər yerində vurnuxdu. Elə bil bədəninə gicitkən doldurmuşdular. Səhər yeməyinə gedəndə üz-gözündəki yorğunluq, yuxusuzluq aydınca sezilirdi.

Saat doqquz tamamda vanna otağının qapısında növbə gözləyən xəstələrdən üzr istəyib iki dəqiqəliyə içəri daxil oldu. Dünənki gənc qıza bir ədəd onmanatlıq uzadıb dedi:

– Qızım, məni bağışla. Dünən üstümdə pul yox idi, sənə hörmət edə bilmədim. Bir az da kobud danışdım. Üzr istəyirəm.

– Allah sizə can sağlığı versin, övladlarınızın xeyir-bəhərini görəsiniz! – deyə qız öz minnətdarlığını bildirdi.

Həsən kişi sevinə-sevinə otaqdan çıxdı. Çox məmnun görünürdü. Elə bil üstündən ağır bir yük götürülmüşdü. Bəlkə, heç müalicədən sonra özünü belə yaxşı

hiss etməyəcəkdi. Qarğışdan, dedi-qodudan özünü "sığortaladığı" üçün kefi kök idi. Ağsaqqal düşdüyü bu anlaqsız vəziyyəti beynində xeyli təhlil etsə də, nəticə çıxara bilmədi. Borclu olmadığı adama rüşvət vermək nə qədər önəm daşıyırmış ki, bu qədər əzab çəkdi... "İlahi, biz nə vaxt düzələcəyik?" – deyə xeyli düşündü. Çox çək-çevirdən sonra "lənət şeytana" deyib otağına yollandı. Kefini pozmaq istəmirdi. Axı saat on bir tamamda onu Zema ilə maraqlı bir görüş gözləyirdi.

Oğru

Hava təzəcə qaralırdı. Səkkiz-on yaşlarında bir qız uşağı marketin vitrinləri arasında dolaşaraq oradakı şirniyyata nəzər yetirir, nə oğurlayacağını götür-qoy edirdi. Yoxsul ailənin uşağı olduğu bəlli idi. Qız sinif yoldaşlarından eşitmişdi ki, kasıb balaları tamahını saxlaya bilməyəndə mağazalardan oğurluq edirlər. İlk cəhdi uğurlu olmuşdu. Bir həftə əvvəl qoynuna basıb çölə çıxardığı "Mars" şokoladının ləzzəti hələ də damağından getməmişdi. İndi oğurluq etmək üçün növbəti məqamı gözləyirdi. Bu dəfə hədəfdə "Snickers" şokoladı idi. Onu elə götürməliydi ki, heç kim görməsin. Arxası ilə vitrinə tuşlanan müşahidə kamerasının qarşısını kəsməli, ön tərəfdə isə heç kim olmamalı idi.

İçəridəki nəzarətçi gənc olsa da, təcrübəsinə söz ola bilməzdi. O, beşinci il idi ki, bu marketdə çalışırdı. Kimin oğru olduğunu gözündən oxuyur, yerişindən sezirdi. Nimdaş geyimli bu qız uşağı onun diqqətini çoxdan cəlb etmişdi. Özü bilərəkdən yaxınlaşıb onu sorğu-sual eləmirdi. Məqsədi qızı oğurluq üstündə yaxalayıb müdiriyyətdən mükafat almaq idi.

Çox gözləmək lazım gəlmədi. Qız əliboş halda kassanın yanından sivişib çölə çıxmaq istəyəndə sol biləyindən güclü bir əl yapışdı. Oğlan özünü gözə soxmaq, bacarığını nümayiş etdirmək üçün səsini başına atıb hündürdən deyinməyə başladı:

– Abrınız-həyanız olsun! Əl çəkin bu alçaq hərəkətlərinizdən! Obyekti daşıyıb qurtardınız! Sizin əlinizdən hara gedək, bilmirik! İndi polisi çağırıb səni tutduraram, ağlın başına gələr!

Qız qışqırıb-bağırır, özünü yerə çırpır, nəzarətçinin əlindən qurtarıb qaçmaq istəyirdi:

– Yalvarıram, buraxın məni! Bir də etmərəm! Anam bilsə, məni qaranlıq zirzəmiyə salacaq! Xahiş edirəm, nə olar?!

Mağazadakı alıcılar bir anın içində nəzarətçi ilə uşağı dövrəyə aldılar. Qıza yazığı gələn adamlar onu qurtarmaq üçün hərəkətə keçdilər:

– Əşi, uşaqdı, qanmayıb də!

– Yazıqdı, buraxın getsin! Bir də eləməz.

– Ayıb deyil?! Bir şokolada görə uşağın bağrını çatlatdınız ki!

– Paho! Dünya dağılıb da. Qorxursuz qazancınız azala? Götürüb, götürüb də!

Marketin müdiri də gəlib çıxdı. Kənardan deyilən sözlərə məhəl qoymayıb qıza yaxınlaşdı. Onu dilə tutub yaşadığı ünvanı, telefon nömrələrini öyrənmək istədi. Bu vaxt əli əsalı yaşlı bir kişi müdirə yaxınlaşıb dedi:

– Ədə, cavan oğlan, heç boy-buxunundan utanırsan?! Bu boyda imkanınız ola-ola bir konfetdən yana az qalırsız yazıq qızı dara çəkəsiniz!

Müdir təmkinini pozmadan dedi:

– Ağsaqqal, məni nahaq yerə təhqir edirsiz. Qızı incitmək fikrim yoxdur. Valideynlərinə təhvil verim ki, bir də oğurluq etməsin. Qız uşağıdır, əli pis öyrənsə, böyüyəndə tərgidə bilməyəcək.

Bu vaxt gənc bir qadın da söhbətə qoşuldu:

– Müdir qardaş, sənin alimliyin də var imiş ki! Camaatı avam yerinə qoymaq lazım deyil. Sən uşağın hayında deyilsən e, mallarının hayındasan, mallarının!

Müdir meydanda tək qaldığını görüb uca səslə dedi:

– Əziz vətəndaşlar! Mənim hörmətli müştərilərim! Mən yalnız mallarımın hayında deyiləm. Bu qızı da buraxacam getsin. Ancaq sizlərdən bir anlıq mənə qulaq asmağınızı xahiş edirəm. Nə vaxta qədər ki, biz öz uşaqlarımızı düzgün tərbiyə etməyəcəyik, nə vaxta qədər ki, oğruya arxa durub, doğrunun üstünə yeriyəcəyik, vallah, bu millət düzəlməyəcək! Vəziyyətimiz, güzəranımız günü-gündən pisləşəcək, dincliyimiz pozulacaq, üzümüz də gülməyəcək! Buna əmin ola bilərsiniz. Qaldı ki, bu qızcığaza, görünür, kasıb ailədəndir. Valideynlərinin imkanı çatmır ki, ona şokolad alsınlar. Əgər siz istəyirsinizsə, mən ona yüz manat da verib evlərinə yola sala bilərəm.

– Verin! Verin! İstəyirik! – deyə ətrafdakılar bir ağızdan səsləndilər.

– Ancaq bir şərtim var! – müdir dedi.

– Buyurun, görək! – deyə əli əsalı kişi istehza ilə dilləndi.

– Şərtim budur ki, yüz manat mən verəcəm, adama beş manat da siz verəcəksiniz!

Heç kimdən səs çıxmadı. Elə bil qurbağa gölünə daş atdılar. Uşağa qahmar çıxan adamlar bir anın içində çəkilib hara getdilərsə, bilən olmadı.

***

Qız səsini kəsmişdi. Daha ağlamırdı. Market sahibinin mehriban davranışını görüb valideynlərinin kim olduğunu, hansı binada yaşadıqlarını ondan gizlətmədi.

Müdir göy rəngli sellofan torba götürüb içini şirniyyatla doldurdu. Sonra uşağın əlindən yapışıb marketdən çıxdı.

Tanışlıq

Fərman müəllim çətinliklə də olsa, evinin təmirini başa vura bildi. Əgər işləri tamamlaya bilməsəydi, növbəti məzuniyyətini Moskva şəhərində keçirmək arzusu ürəyində qalacaqdı. Neçə illər idi ki, işin çoxluğundan əməlli-başlı istirahət edə bilmirdi. Həyat yoldaşı Ülkər xanım verdiyi sözə əməl edib ərinin xətrinə dəymək istəmədi:

– Nə deyirəm, kişi, get, yaxşı-yaxşı dincəl. Çoxdandır bir yerə çıxa bilmirsən. – Ardınca ürəyindən keçənləri dilə gətirməyi də unutmadı: – Deyirəm, ay Fərman, uşaqları yerbəyer edəndən sonra məni də özünlə gəzməyə apararsan.

Əri bir söz deməyib tez razılaşdı. Çünki başqa cür hərəkət etməyin yeri yox idi. Çaşıb işləri korlaya bilərdi.

Fərman müəllimin əhval-ruhiyyəsinə söz ola bilməzdi. Məzuniyyət vaxtına bir ay qalsa da, yır-yığış edir, can-dildən səfərə hazırlaşırdı. Yolunu Rusiya tərəfə salmaqda məqsədi gənclik illərini yada salmaq və istirahətini səmərəli keçirmək idi. Hər gün planlar cızır, yeni-yeni xəyallar qururdu.

Fərman müəllim əvvəllər vaxtının çoxunu televizora baxmaqla qəzet oxumağa sərf edərdi. Amma məzuniyyət öncəsi vəziyyət tamam dəyişmişdi. İndi o, Moskvada özünə yaxşı bir dost tapmaq üçün çalışırdı; internetdən ayrılmır, kompüterin yaxasından əl çəkmirdi. Cavanlıq dövründən bəri Moskvaya yolu düşməmişdi. Çoxdan idi rusiyalı gözəllərlə oturub-durmurdu. Həyat yoldaşı Ülkər xanımın qorxusundan Bakıda artıq-əskik hərəkət edə bilməzdi. Başqa şəhərlərə də ayda-ildə bir dəfə yolu düşərdi, ya yox. O da ki işi ilə bağlı, bir-iki günlüyə. Od alan adamlar kimi getməyi ilə qayıtmağı bir olardı. Amma indi vəziyyət tam fərqli idi. Fərman müəllim fürsətdən yararlanıb cavanlığını yada salmaq, ürəyi istədiyi kimi istirahət etmək və xırda-para dərdlərini unutmaq istəyirdi.

Axtarışlar nəticəsiz qalmadı. Heç bir həftə keçməmiş Fərman müəllim "Odnoklassniki"də özünə yaxşı bir dost tapa bildi. Tanış olduğu Mariya İvanovna orta yaşlarında gözəl bir qadın idi. Tək yaşayırdı. Əri avtomobil qəzasında ölmüşdü. Yazışmalarından hiss olunurdu ki, çox ziyalı və həyatı başa düşən insandır. Fərman müəllimin onunla dostluq etməsinə pis baxmır, hətta bunu alqışlayırdı.

Münasibətləri daha da yaxşılaşdırmaq üçün Fərman müəllim işdən icazə alıb üz tutdu "Təzə" bazara. Başda nar olmaqla, gözəl meyvələrdən ibarət yaxşı bir bazarlıq etdi. Sonra onları böyür-başı deşik-deşik olan taxta

bir qutuya yığdırdı. Satıcı və onun köməkçisini razı salıb maşını sürdü düz hava limanına. Bağlamanı oradakı poçta təhvil verdi ki, yollarda gecikib xarab olmasın.

Mariya İvanovna biləndə ki, dostu məzuniyyətini Moskvada keçirmək istəyir, çox sevindi. Hətta Fərman müəllimə yazdı ki, bilməzsən, hoteldə yer götürərsən ha. Səni səbirsizliklə gözləyəcəyəm. Mütləq mənim yanıma gələrsən. Öpürəm.

"Öpürəm" sözünü oxuyanda Fərman müəllimin həyəcandan ürəyi titrədi. Əl-ayağa düşüb tez ikinci bağlamanın hazırlığına başladı. Bu dəfə qutuya quru qoz ləpəsi, badam, fındıq və kişmiş yığıb üstünə də Fransa istehsalı olan bir ətir qoydu. Fikirləşdi ki, Mariya İvanovna bağlamanı görən kimi sevinəcək. Çünki Fərman müəllim indiyə kimi bu cür bahalı ətiri heç həyat yoldaşına da almamışdı. Əgər alsaydı, Ülkər xanım ərinin başına dolanar, ona daha çox qayğı göstərərdi. İnsafən, hədiyyəyə söz ola bilməzdi. Bu vaxta qədər Mariya İvanovnaya elə bir özəl pay göndərən olmamışdı.

Mariya İvanovna bağlamanı açanda gözlərinə inanmayıb çox mütəəssir oldu. Yubanmadan Fərman müəllimə zəng edib öz təşəkkürünü bildirdi və bir daha əziyyət çəkməməsini xahiş etdi. Fərman müəllim də öz növbəsində heç bir zəhmət çəkmədiyini, bunun adi bir dostluq nümunəsi olduğunu, xanımlara qulluq etməkdən şərəf duyduğunu dilə gətirdi.

Məzuniyyətə çıxacağı son həftənin günlərini deyil, saatlarını saymağa başlamışdı. Artıq Moskvaya gedişgəliş bileti cibində hazır idi. Tam on beş günlük kef məclisləri onu gözləyirdi.

Fərman müəllim Mariya İvanovnaya zəng edib Bakıya aid nə istədiyi ilə maraqlandı. Xanım göstərdiyi diqqətə görə ona təşəkkür edib, heç nəyə ehtiyacı olmadığını bildirdi. Lakin Fərman müəllim öz işini bilən adam idi. Yola düşməyə bir gün qalmış bahalı hədiyyələr və içkilərdən ibarət hazırlığını görüb çantasını hava limanının saxlama kamerasına verdi.

Sabahı gün həyat yoldaşı Ülkər xanım ərinin yoluna qozdan, fındıqdan ibarət bəzi çərəzlər qoymaq istəsə də, Fərman müəllim razı olmadı.

– Heç nə lazım deyil, arvad. Əziyyət çəkmə. Qorxursan, orada yeməyə bir tikə çörək tapılmaya. Kefə getmirəm ki, yoluma çərəz qoyursan. Deyirəm, qayğılardan azad olum, beynim bir az dincəlsin. İkicə həftədən sonra qayıdıram, – deyə Fərman müəllim arvadının saçlarına sığal çəkdi.

Ülkər xanım çox qısqanc idi. Fərman müəllim istəmirdi ki, onun ürəyinə başqa şey gəlsin. Fikirləşirdi ki, bu günün sabahı da var. Onsuz da əvvəldən yükünü tutmuşdu. Çantası aeroportda onu gözləyirdi.

Fərman müəllim duş qəbul edib üzünü ülgüclə təmizlədi. Zövqlə geyindi, özünü səliqəyə saldı. Moskvada istifadə edəcəyi ətiri çantasına yığdığı paltarlarının ara-

sında görünməz etdi. Pasportla biletini köynəyinin döş cibinə, arvaddan gizlətdiyi pulları isə şalvarının sağ cibinə qoydu. Vaxtından xeyli əvvəl taksi sifariş verib gözləməyə başladı. Düşünürdü ki, tez getməyin heç bir ziyanı yoxdur, yol işini bilmək olmaz. Taksi gələn kimi ailə üzvləri ilə görüşüb evdən çıxdı.

...Təyyarə Domodedovo aeroportuna enəndə hava artıq qaralmışdı. Fərman müəllim taksiyə oturub birbaşa Mariya İvanovnagilə yollandı. Sürpriz olsun deyə, Moskvada nə vaxt olacağını ona deməmişdi. Tanışının yaşadığı binanın qarşısında taksidən enib ikinci mərtəbəyə qalxdı. Özünə əl gəzdirib zəngin düyməsini basdı. Çox keçmədi ki, qapını ayaq üstündə güclə dayanan yaşlı bir arvad açdı.

– Mne nujna Mariya İvanovna, – deyə Fərman müəllim mədəni şəkildə xəbər aldı.

– A, Fedya, eta tı? Kak dela? Kaqda priyexal?

Səsindən qarını tanıdı. Bu, Mariya İvanovna idi. Fərman müəllim yerində quruyub qaldı. Hirsindən bilmədi nə etsin. Boğazı qurumuşdu, danışa bilmirdi. Birtəhər özünü ələ alıb dedi:

– Vaşa fataqrafiya bıla savsem druqaya...

– Da, Fedya. Verna. Ana maya doçka. Ya yeyo oçen lyublyu. Ana sa svayey semyoy jivyot v Germanii, – bir az ara verib davam etdi, – çevo staiş, zaxadi.

Fərman müəllim tərpənə bilmirdi. Əlindəki çantalarla birlikdə donub qalmışdı. Elə bil kişini yerə mıxla-

mışdılar. Sifəti pörtmüş, qaşları çatılmışdı. Qanı bərk qara idi. İynə vursaydın, qanı çıxmazdı. Sol əlindəki çanta yüngül olsa da, sağ əlindəki payın ağırlığı qolunu taqətdən salmışdı.

Mariya İvanovna Fərman müəllimin sir-sifətini görən kimi hər şeyi anladı:

– Tı ne valnuysa, Fedya. U menya sasedka yest – Sveta. Ana maladaya i oçen simpatiçnaya. Ya s ney paqavarila. Ana s neterpeniyem jdyot tebya.

Fərman müəllimin gözləri işıqlanmağa başladı. Dərindən köks ötürüb əlindəki çantaları yavaşca yerə qoydu. Sonra özünü ələ alıb qabağa yeridi. Qolunu nəvazişlə Mariya İvanovnanın boynuna salıb üzündən xəfifcə öpdü.

İki qonşu

Cümə günü idi. Beşmərtəbəli binanın sakinləri həyətdə öz əlləri ilə tikdikləri damda domino oynayırdılar. Növbəyə duran çox idi. Səs-küydən qulaq tutulurdu. Uduzan oyunu tərk edir, yerinə başqa cütlük daxil olurdu. Səhv gedişlər olanda ara daha da qızışır, mübahisə son həddə çatırdı. Dominonun daşlarını elə qeyzlə çırpırdılar ki, səsi yaxınlıqdakı mənzillərdə də eşidilirdi.

Burada hamı bərabər idi. Heç kim bir-birindən üstün deyildi. Müəllimi də, alimi də, fəhləsi də eyni adı daşıyırdı – qonşu. İndi onları bir araya gətirən domino idi. Ümumilikdə götürəndə pis qonşu deyildilər. Xeyir işlərdə tam olmasa da, yas mərasimlərində hamılıqla bir-birinə həyan olur, yaxından köməklik edirdilər.

Dekabrın sonları olsa da, içəri isti idi. Bir tərəfdə odun peçi yanır, o biri tərəfdə samovar qaynayırdı. Uduzan tərəf qalxıb çayları təzələyirdi.

Sıra şirkət rəhbəri işləyən Cəbrayıl müəllimə çatanda yerini rahatlayıb dedi:

– Bəhlul, qonşu, bir az diqqətli ol ki, o günkü məğlubiyyətin əvəzini çıxaq.

– Baş üstə, – deyə mağazada gözətçi işləyən qapıbir qonşusu Bəhlul kişi cavab verdi.

Məhəllədə Cəbrayıl-Bəhlul cütlüyü ən güclü komanda sayılırdı. Hər ikisi iqtisad universitetini bitirmişdi. Gedişləri sonacan hesablayır və oyunu əzbər bilirdilər.

İlk oyun maraqlı keçdi. Cəbrayıl müəllimgil qalib gəlib keçən dəfəki məğlubiyyətin qisasını ala bildilər. Ancaq ikinci oyunda əlləri gətirmədi. Oturmaqları ilə durmaqları bir oldu.

Meydan bərk qızışmışdı. Nə çay istəyən vardı, nə də ki çay gətirən. Bəhlul kişi Cəbrayıl müəllimin bayıra çıxdığını görüb tez onun dalınca yüyürdü. Və qonşusuna çatan kimi də söhbətə başladı:

– Necəsiz, qağa?

– Sağ ol, Bəhlul, yaxşıyıq. Sizdə nə var, nə yox?

– Salamatçılıqdı. Birtəhər ötüşürük. Allah sizə dəyməsin.

– Sizinlə bahəm, – deyə Cəbrayıl müəllim cavab verdi.

Bəhlul kişi aralarındakı mehriban münasibətdən istifadə edib üzünə üz bağladı:

– Cəbrayıl müəllim, demişdiz, münasib iş olsa, mənə xəbəriniz dəyəcək.

– Yadımdadı, qonşu, – Cəbrayıl müəllim dedi, – hələ ki, boş yer yoxdu. Bir az səbirli ol, Bəhlul. Mən sözümə əməl edən adamam.

– Bilirəm, qardaş. Allah sizi bizlərə çox görməsin, – deyə Bəhlul kişi minnətdarlığını bildirdi.

Cəbrayıl müəllim nə fikirləşdisə, üzünü Bəhlul kişiyə çevirib dedi:

– Qonşu, sabah, birigün nə iş görəcəksən?

– Necə ki, qağa? Uşağa deyərəm, əvəzimnən durar. Nə əmriniz varsa, buyurun. Mən hazır.

– Yox, əşi. Əmrim-zadım yoxdu. Çoxdandı kənara çıxa bilmirəm. Sabah arvadı da götürüb Qubaya getmək istəyirəm – Qəçrəşdə istirahət etməyə. İstəsəniz, bizə yoldaş ola bilərsiniz.

Bəhlul kişi bu gözlənilməz təklifdən çox sevindi. Cəbrayıl müəllimlə birlikdə yola çıxmaq onun üçün böyük şərəf idi. Odur ki, fikirləşmədən dedi:

– Nə deyirəm, qonşu. Böyük məmnuniyyətlə. Ancaq bir xahişim olacaq, gərək inciməyəsən.

– Buyur.

– Bizim xərcimizi özüm çəkəcəm.

– Əşşi, rəhmətliyin oğlu, orada nə xərc var ki, sən çəkəsən? – deyə Cəbrayıl müəllim cavab verdi.

Bəhlul kişi tez dedi:

– Yox, yox. Elə deməyin, başınıza dönüm. Əlimi cibimə salmalıyam. Yoxsa canasinər olmaz. Hər nə etsə, özüm verəcəyəm.

Səhər saat doqquzda qonşular evlərinin kandarında çantaları əllərində hazır vəziyyətdə idilər. Cəbrayıl müəllim çox təkid etdisə də, Bəhlul kişi onların təzə

“Jeep” maşınına oturmaq istəmədi. “Adama üz verəndə astar da istəməz ki…” – deyə Bəhlul kişi düşündü. Və üzünü Cəbrayıl müəllimə tutub dedi:

– Qonşu, siz narahat olmayın e. Uzaq yol deyil ki. “Atdelni” getsək, yerimiz də rahat olar. Üstəlik mənim “Jiquli”min də eyni bir az açılar. Hələ indiyə kimi onu şəhərdən qırağa sürməmişəm.

Cəbrayıl müəllim maşını sürətlə sürməyi sevməzdi. Həmişə deyərdi ki, qoy beş dəqiqə gec çataq, ancaq salamatçılıq olsun. Bəhlul kişinin maşını köhnə olsa da, sağlam idi. Hələ indiyə kimi bir dəfə də olsun sahibini yolda qoymamışdı. Bəhlul kişi birinci dəfə idi ki, onunla uzaq yola çıxırdı. Allaha yalvarırdı ki, maşınına bir şey olmasın. Yoxsa Cəbrayıl müəllimi məyus etmiş olar.

Qonşular Qəçrəşə çatandan sonra asfalt yoldan çıxıb maşınları sıx meşə qatı ilə örtülü olan dağın üstündəki “Ulduz” hotelinin yanına sürdülər. İşçilər qonaqları görən kimi qabağa yüyürdülər. Cəbrayıl müəllim əl verib onlarla görüşdü:

– İşlər necədi, qoçaqlar?

– Sağ olun, müəllim, – deyə öndə olan oğlan cavab verdi. – Hər şey qaydasındadı. Otaqlarınız da hazırdı.

Bəhlul kişi anladı ki, Cəbrayıl müəllim yola çıxmazdan əvvəl zəng edib yerləri sifariş verib.

İki mehriban ailə hoteldə də qonşu düşdü. İntəhası şəhərdəki evlərindən fərqli olaraq burada qapıları

üzbəüz deyil, yanaşı idi. Qonşular otaqlarına keçib rahatlandılar. Təxminən bir saat sonra Cəbrayıl müəllim dəhlizə çıxıb qonşusunun qapısını yavaşca döydü. Elə bil Bəhlul kişi qapının arxasında dayanmışdı. Qapının döyülməsi ilə açılması bir oldu.

– Buyurun, qağa, eşidirəm, – deyə Bəhlul kişi tez dilləndi.

Cəbrayıl müəllim dedi:

– Qonşu, vaxtdır. Gedəyin, bir tikə çörək yeyəyin. Bunların yaxşı kababları olur.

– Qağa, and olsun Allaha, ajdığımız yoxdu, – deyə Bəhlul kişi tez cavab verdi. – Səhər evdən tələsik çıxmışdıq deyə, yemək yeyə bilməmişdik. Bura çatan kimi gupadıq getdi. Nuşi-canınız olsun, siz gedin yeyin.

Cəbrayıl müəllim qonşusu ilə razılaşmaq istəmədi:

– A kişi, sən nə danışırsan? Hər gün kabab yemirik ki! Bir tikə kababla heç nə olmaz. Yığışın, gedəyin. Mən qonaq eliyirəm.

– Üz vurmayın, ay qağa. Başınıza dönərəm. Utanmırıq ki. Gündə görüşdüyümüz adamlarıq.

***

Qar yağmasa da, hava əməlli-baslı soyuq idi. Cəbrayıl müəllimlə həyat yoldaşı hotelin yan tərəfində yerləşən restoranın geniş, işıqlı salonunda oturub yemək yeyirdi. Ər-arvad ətrafa nəzər salır, nəyi isə müzakirə edir, deyib-gülürdü.

Cəbrayıl müəllimin işi çox olduğundan şəhərdən kənara çıxıb istirahət etməyə vaxt tapa bilmirdi. Bugünkü səfərindən o qədər məmnun idi ki, heç olmayan kimi. Şəhərin səs-küyündən uzaqlaşmış, mobil telefonunu da söndürmüşdü. Baş-beyni dincəldikcə canında bir rahatlıq hiss edirdi. Bəhlul kişini yol yoldaşı seçmişdi ki, darıxıb eləsə, arada onunla söhbətləşib fikrini dağıtsın. İndi qonşusunu öz həyat yoldaşı Ləman xanım əvəz edirdi.

Bəhlul kişigil otaqda nə edirdilər, bilən yox idi. Axşama kimi bir dəfə də olsun qapıları açılmadı. Nə otaqdan çölə çıxan oldu, nə də ki, içəri girən. Şam yeməyinin vaxtı çatanda Cəbrayıl müəllim yenidən qonşularının qapısını döydü. Heç iki saniyə keçməmiş Bəhlul kişi qapını açdı:

– Buyurun, qardaş. Xoş gəlmisiz, keçin içəri.

– Yox, keçmirəm. Bu gün heç çölə çıxmadın. Dedim görüm, neyniyirsən.

– Sizin sağlığınız. İçəridə arvadla özümüz üçün mırt vururduq, – deyə Bəhlul kişi cavab verdi.

Cəbrayıl müəllim məsləhətindən qalmadı:

– A kişi, çıxın bir təbiətə, görün nə var, nə yox? Bu havadan Bakıda tapmıyacaqsınız. Söhbəti evdə də edərsiniz də.

– Düzü, qorxduq xəstələnib eliyək, ona görə çıxmadıq. Bilirsiniz də, dərmanlar od qiymətinədi.

Cəbrayıl müəllim mövzunu dəyişdi:

– Di yaxşı, hazırlaşın, gedək şam yeməyinə. Naharda da qoşulmadınız bizə.

Bəhlul kişi tez cavab verdi:

– Müəllim, bəlkə, siz bizə qonaq olasınız. Arvad yaxşı dolma bişirib gətirib. Kələm dolması.

Cəbrayıl müəllim hiss etdi ki, qonşuları onlarla yoldaşlıq etmək istəmir. Odur ki, söhbəti çox uzatmadı:

– Bəhlul, biz kabab yemək istəyirik. Hinduşka kababı. Sizi də dəvət edirəm. İstəsəniz, gələrsiniz.

***

Artıq axşam geridə qalmışdı. Başqa müsafirlər kimi, qonşular da öz isti otaqlarına çəkilib gecəni rahatca uyudular. Yuxudan ayılanda isə gözlərinə inana bilmədilər. Səhərə qədər yağan aramsız qar hər tərəfi ağ örpəyə bürümüşdü.

Bəhlul kişinin kefi tamam pozuldu: "Evim yıxıldı! Bu zıppıltıda maşını necə çıxaracağam, Bakıya necə gedəcəyəm?" – deyə qarnını ovuşdurmağa başladı.

Cəbrayıl müəllim qarı görüb çox sevindi:

– Bəxtimizi görürsən, arvad? Heç ağlına gələrdimi belə zərif, gözəl qarla təmasda olacağıq?

– Yox, gəlməzdi, – həyat yoldaşı Ləman xanım sevincək halda cavab verdi. – Bilsəydim, evdən termos gətirərdim, uşaqlara da qar apararıdıq.

Bu dəfə Cəbrayıl müəllimgilin qapısı döyüldü.

– Qağa, hər tərəfi qar basıb, burdan necə çıxacayıq? – deyə Bəhlul kişi həyəcanlı halda soruşdu.

Cəbrayıl müəllim ona təsəlli verərək dedi:

– Narahat olma, qonşu. Bir çarə tapılar.

Saat on ikiyə az qalırdı. Qar hələ də yağmaqda davam edirdi. Bəhlul kişini fikir aparmışdı. Arvadı Səhnə xanım ərinin təşviş içində olduğunu görüb dedi:

– Kişi, niyə narahat olursan? Məcbur deyilsən ki, minib çapasan. Yavaş-yavaş sürərsən, gedərik də.

– Sən nə danışırsan, ay arvad?! Qəpik-qəpik artırıb iyirmi ilə köhnə bir maşın almışıq, deyirsən, onu da dərələrə yem eliyək? Keçəl təkərlərlə bu yoxuşu enməkmi olar? Maşın sürüşüb ağaclara, dağa-daşa dəysə, əzilib şil-küt olmazmı? Necə təmir edəcəyik, artıq pulumuz var?!

– Bəs onda neyniyək? – arvadı soruşdu.

– Heç nə. Piyada aşağı enib yol maşınları ilə gedərik. Qar əriyənnən sonra gəlib maşınımızı apararam.

Cəbrayıl müəllimgil də yola düşməyə hazırlaşırdı. Ləman xanım dedi:

– Cəbi, yollar buz bağlayıb. Bəlkə, maşın qalsın, piyada enək.

– Sən nə danışırsan, ay arvad? – Cəbrayıl müəllim narahat oldu. – Deyirsən, yıxılaq, qol-qabırğamız sınsın? Maşındı da, əzilir, əzilsin. Təki canımıza xətər dəyməsin.

Bəhlul kişi çox çalışsa da, Cəbrayıl müəllim onların başqa maşınla getməsinə razılıq vermədi. Qonşular

gəlib sağ-salamat çatdılar evlərinə. Bəhlul kişi özündə deyildi, fikri maşınının yanında qalmışdı.

Cəbrayıl müəllim qonşusunun nigarançılığını görüb bu işdə özünü günahkar sayır, Qəçrəş səfərinin peşmançılığını yaşayırdı.

***

Bəhlul kişinin səbri tamam tükənmişdi. İki həftə idi ki, maşını dağın üstündə onu gözləyirdi. Qaldıqları hotelə zəng edib oradakı vəziyyətlə hər gün maraqlanırdı. Qar isə ərimək bilmirdi ki, bilmirdi. Gözləmək lazım idi, başqa çarə qalmamışdı. Daha bir həftə keçdi. Nəhayət, Bəhlul kişi gözlədiyi şad xəbəri ala bildi. Gedib maşını gətirmək olardı. Uzun sıxıntılardan sonra kişinin canına bir rahatlıq gəldi. Gecəni sevincdən yata bilmədi.

Səhər açılan kimi Bəhlul kişi evdən çıxıb tez yola düzəldi. Avtovağzala çatanda zəng edib dedilər ki, gecə Qəçrəşə yarım metr qar yağıb.

Elçilik

Nicatgilin yaşadığı bina mərkəzi univermağın yaxınlığında, yolun kənarında idi. O, həftənin beş gününü ofisdə çalışar, qalan iki gününü isə evdə olardı. Anası Nərgiz xala onu hey danlayardı ki, a bala, bəsdir evdə oturub dizlərini qucaqladın, çıx bir az da şəhəri dolan, gör nə var, nə yox, – xeyri olmazdı. Dostlarının təkidi ilə ildə bir-iki dəfə bulvara və ya kinoya gedərdi, ya getməzdi. Gündüzlər evdə olanda çox vaxt pəncərə qarşısında oturub yoldan ötən adamların yerişinə, geyiminə, sifət quruluşuna tamaşa edər, cəmiyyət haqqında düşüncələrə dalardı.

Nərgiz xalanın ürəyində tək bircə arzusu var idi: yaşı otuzu adlayan oğlunu tezliklə evləndirib oğluşaq sahibi görmək və ömrünün qalan hissəsini nəvələrinə həsr etmək. Əslində Nadir müəllimin də istəyi elə bu idi. Ancaq o, arada müəyyən pərdə olduğu üçün evlənməklə bağlı iradlarını oğluna həyat yoldaşı Nərgiz xanım vasitəsilə çatdırardı. Axırıncı dəfə arvadına verdiyi göstəriş çox aydın və qısa olmuşdu: "Onu başa sal ki, atan deyir, daha bəsdir! Biz də yazığıq. Ona iki ay vaxt verirəm. Əgər bu müddət ərzində

tərpənməsə, ürəyindən keçəni deməsə, onda məndən inciməsin. Gedib münasib qohumlardan birinin qapısını döyəcəm". Nərgiz xala tez-tez Nicatın məhəllədəki dostlarından da xahiş edərdi ki, oğlunu dilə tutub yola gətirsinlər. Həqiqətən onlar da davamlı olaraq Nicatla söhbətləşər, onu evlənməyə həvəsləndirərdilər. Özləri ailəli olduğundan evliliyin nə qədər mənalı, maraqlı və vacib olması haqqında söhbətlər aparar, ciddi mülahizələr yürüdərdilər.

Nicatgilin ofisi proqramlaşdırma üzrə fəaliyyət göstərirdi. O, bəzən işlərini çatdıra bilməyəndə gəlib davamı ilə evdə məşğul olardı. Peşəsini çox sevdiyindən Nicat saatlarla çalışsa da, yorğunluq nə olduğunu bilməz, yaxşı nəticələr əldə edəndə isə sevincindən az qala qanadlanıb uçardı. Bütün diqqətini mütaliəyə, araşdırmalara həsr etdiyindən şəxsi həyatı yadına belə düşməzdi. Yaşı artdığından bir az da çəkingən olmuşdu. Bilmirdi ki, gənc qızlara necə yaxınlaşsın, sözünü necə desin. Sərt cavab almış olarsa, nə edəcəyini təsəvvürünə belə gətirə bilmirdi. Ancaq evlənməyin vacib olduğunu da anlayırdı.

Şənbə günü idi. Qonşuları Oktayla Hoqqa Hüsen qapılarını döyüb Nicatı səslədi. Nərgiz xala qapını açıb oğlunun dostlarını görəndə çox sevindi:

– Xoş gəlmisiz, buyurun içəri.

– Sağ ol, Nərgiz xala. Keçmirik. İntelligent evdədirmi? – Hüsen soruşdu.

– Gəldim, gəldim, – deyə Nicat içəridən səsləndi.

Birlikdə küçəyə çıxıb binanın arxasında piyada yolunun kənarındakı ağacın altında dayandılar. Hüsen bir siqaret yandırıb damağına qoydu. Evlənmək barədə əvvəlcə Oktay danışmağa başladı:

– Nicat, niyə evlənmirsən? Hər şeyin bir təhri var, qardaş. Yaşın otuz beşi haqlayır. Toy elə, biz də bir qol-qanad açaq. Özünə yazığın gəlmir, heç olmasa, o ana-na, Nadir müəllimə yazığın gəlsin. Söz vermişdin ki, tezliklə bu problemi həll edəcəksən, bəs nə oldu?

Nicat dillənmədi. Bu dəfə söhbəti Hüsen davam etdirdi:

– Də, niyə cavab vermirsən? Şəhərdə qız yoxdu? Sən öl, əgər evlənməsən, nənəmi gətirib ötürəcəyəm sizə. Hünərin var, evdən çıxart.

– Nicat, bəlkə, bir problemin var, ona görə evlənmirsən? Bizdən gizlətmə, heç kimə demərik... – bu dəfə Oktay maraqlandı.

– Yoox, Allah eləməsin... Bilirsən, Oktay, siz dediniz-demədiniz, fərqi yoxdur. Mən başa düşürəm ki, bu işi yubatmaq olmaz. Atam da, anam da çox narahatdılar. Daha səbirləri çatmır, qərar tuta bilmillər. Mən də ki səhər işə yollanır, axşam da evə qayıdıram. O qızı hardan tapım? Tutaq ki, tapdım, bəs onu tanımaq şərt deyilmi? Deyirsiz, gözüyumulu evlənim?

– Bəs iş yerində, qohumlar arasında tanıdığın biri yoxdumu? – Hüsen soruşdu.

– İşdə yoxdu, hamısı gedib. Qaldı qohumlara, nə deyim, vallah... Məncə, yadla evlənmək daha yaxşıdır.

– Vaxtında çox dedik, eşitmədin. Qızlar elədilər də, gözünü açmamış uçub gedillər. İndi sənin yaşına uyğun qız tapmaq da asan deyil, – Oktay bildirdi.

Bu vaxt Hüsen piyada yolu ilə onlara tərəf gələn iki cavan qızı göstərib dedi:

– Bir bax, Nicat. Gör nə qəşəng qızlardı. Səliqəli, boyasız. Barmaqları da boşdu. Yəqin, subaydılar. Bəlkə, Allah bunları sənin qismətinə çıxarıb? Hə, nə deyirsən, bax gör, hansı xoşuna gəlir?

– Yaxşı, yaxşı, zarafatı burax.

– Nə zarafat, düz deyir də, – Oktay dilləndi. – Yaxınlaş də, səni yeməyəcəklər ki?

– Ciddi deyirsiz?

– Əlbəttə, – Oktay dedi. – Kimliyini, zatını sonra öyrənərik.

Qızlar oğlanların yanından keçən kimi Nicat özünü ələ alıb onların dalınca yüyürdü. Qızlardan biri yaşıl, o biri qırmızı gödəkcədə idi. Özünü toparlayıb yaşıl gödəkcəli qıza yanaşdı. Fikrini cəmləyib utana-utana dedi:

– Bağışlayın, mənə çox doğma gəldiniz, biz tanış deyilik?

– Bəlkə, yuxuda görmüsüz? – deyə yaşıl gödəkcəli qız özünü itirmədən cavab verdi.

– Yox, mən ciddi deyirəm. Adım da Nicatdır.

– Xeyr, tanış deyilik, cavan oğlan.

– Əgər icazə versəydiniz, tanış olardıq. Niyyətim pis deyil, xahiş edirəm, mənə pis oğlan kimi baxmayasınız.

Bu vaxt qızlar gəlib univermağa çatdılar. Yaşıl gödəkcəli qız dedi:

– Nicat, xahiş edirəm, arxamızca gəlməyəsiz. Qohumlarımızdan görən olar, yaxşı düşməz.

– Baş üstə, – deyib Nicat içəri keçmədi. Bayırda bir kənara çəkilib səbirsizliklə qızların yolunu gözləməyə başladı.

Univermağa daxil olan kimi qırmızı gödəkcəli qız dedi:

– Ülkər, pis oğlana oxşamır. Səliqəli, qəşəng, tərbiyəli. Bəlkə, hərini verim, nə deyirsən?

– Boş-boş danışma. Nə bilirsən o kimdir, nəçidir? Əgər yaraşıqlıdırsa, demək, yaxşı oğlandır? Bir də ki, bilmək olmaz hələ onun fikri, niyyəti nədir. Bəlkə, bayıra çıxanda bizi heç tanımadı da.

– Elə şey olmaz, zarafat edirsən?

– Yox, zarafat eləmirəm, ciddi deyirəm. – Bir az fikirləşib sonra əlavə etdi: – Cəmilə, gəl, gödəkcələrimizi dəyişək, görək bizi səhv salmayacaq ki?

– Dəyişək, – deyə rəfiqəsi tez razılaşdı.

Bir küncə çəkilib üst geyimlərini dəyişdilər. Bəzi mallara nəzər yetirdikdən sonra özlərinə əl gəzdirib asta addımlarla bayıra çıxdılar. Nicat qapıdan səkkiz-on metr aralı ayaq üstdə dayanıb gözləyirdi. Qızları görən kimi tez onlara tərəf yeridi. Yaşıl gödəkcəli qıza yaxınlaşıb soruşdu:

– Hə, necə keçdi? Bir şey seçə bildinizmi?

Qızlar ikisi də birdən qəşş eləyib gülməyə başladılar.

– Niyə gülürsünüz? – Nicat özünü itirdi. – Burda gülməli nə var ki?

Cəmilə dedi:

– Qəşəng oğlan, ünvanı səhv salmısız. Biz içəridə olanda gödəkcələrimizi dəyişmişik. Bəs siz kimə vurulduğunuzu nə tez unutdunuz? Bundan sonra qız seçəndə diqqətli olun. İndi isə bay-bay, gedə bilərsiniz.

Nicat utandığından qulaqlarının dibinə kimi qızardı. Bilmədi nə etsin. Handan-hana özünə gəlib dedi:

– Siz Allah, bağışlayın, məndə günah olmadı. Hamısını Hoqqa Hüsen elədi, o qızışdırdı. Siz Allah, bağışlayın, üzr istəyirəm.

Nicat qızlardan ayrılıb evlərinə necə gəldi, hansı yolla gəldi, özü də bilmədi. Ürəyində Hüseni hədələyirdi: "Sən Hoqqa Hüsen ol, mən də İntelligent Nicat! Görərsən, sənin başına nə oyun açıram".

Anası çay gətirib Nicatın qabağına qoydu. Sonra sağ əli ilə oğlunun başını sığallayıb dedi:

– Anan sənə qurban olsun! Atana nə deyim? Bir qərara gələ bildinmi?

Nicat gülümsəyərək dedi:

– Gəldim, ana, gəldim. Xalam qızı Nahidə üçün elçi gedə bilərsiniz.

Sonra gözlərini tutqun səmaya zilləyib verdiyi qərarla bağlı fikrə daldı.

Fəryad

Hələ səhər açılmamışdı. Sevil müəllimə yuxuya gedə bilməyəcəyini anlayıb yataqdan qalxdı. Sinif əlaçısı İlkinin birdən-birə dərslərindən geriləməsi, söz eşitməməsi, pis uşaqlara qoşulması onu rahat buraxmır, ürəyini ağrıdırdı. Təkcə sinifdə deyil, hətta məktəbdə də ən nümunəvi şagirdlərdən olan, şəkli şərəf lövhəsindən düşməyən, davranışından, oxumağından parlaq gələcəyi indidən bəlli olan bu uşağa birdən-birə nə olmuşdu, anlaya bilmirdi. Sevil müəllimə qərara gəlmişdi ki, bu gün İlkinlə təklikdə söhbət edib nə baş verdiyini öyrənsin, ona öyüd-nəsihət versin. Onun avara uşaqlardan ayrılıb yenidən dərsinə fikir verməsinə kömək etsin.

Sevil müəllimə səhər yeməyi yemədən narahat halda evdən çıxdı. Məktəbə çatan kimi sinif otağına girib jurnalda lazımi qeydlər apardı. Sonra üzünü İlkinə tutub dedi:

– Keç lövhənin qarşısına, dərsimizi danış. Keçən dəfə hazırlıqsız gəlsən də, sənə "iki" yazmamışam.

İlkin yavaşca ayağa qalxdı, ancaq yerindən tərpənmədi. Sevil müəllimə təkrar səsləndi:

– Eşitmirsən, səninləyəm!

– Hazır deyiləm, – İlkin astadan dilləndi.

– Niyə hazır deyilsən?! Olmaya, səni dərs oxumağa qoymurlar?

İlkindən səs çıxmadı. Başını aşağı salıb susdu. Sevil müəllimə dedi:

– İlkin, sənə bu dəfə də qiymət yazmıram. Ancaq gələn dəfə də hazırlıqsız gəlsən... – Bir az ara verib sözünə davam etdi: – Məndən incimə, İlkin, daha sən mənim sevimli şagirdim deyilsən. Belə getsə, səni sinifdə saxlamalı olacam. Otur!

İlkin yavaşca oturub səsini çıxarmadı. Sevil müəllimə onun xəcalət çəkdiyini hiss edirdi, ancaq dərslərə hazırlıqsız gəlməyinin səbəbini başa düşə bilmirdi. Axı onun ailəsi də nümunəvi ailələrdən sayılırdı. Bir il əvvəl Sevil müəllimə İlkingilə gedərək övladları ilə fəxr edə biləcəklərini valideynlərin diqqətinə çatdırmışdı. İlkinin valideynləri Vüqar bəy və Sevinc xanımla söhbət zamanı onların yüksək intellektə sahib olduqlarına heyran qalmışdı. Və istər-istəməz etiraf etməli olmuşdu ki, İlkinin əlaçı olmasının bir səbəbi təhsil aldığı məktəbdirsə, başqa bir səbəbi valideynləridir.

Uşaqların səs-küyü Sevil müəlliməni xəyaldan ayırdı. Özünü ələ alıb tez soruşdu:

– Dərsimizi kim danışar?

Əllər yuxarı qalxdı.

– Sən danış, qızım, – deyə Sevil müəllimə üzünü bəstəboy, gülərüz Səbinəyə tutdu.

Fikir girdabına düşdüyü üçün Sevil müəllimənin Səbinənin nə danışdığından xəbəri yox idi. İlkinin birdən-birə dərslərindən üz döndərməsini, məktəbə hazırlıqsız gəlməsini heç cür qəbul edə bilmirdi. Uşaqların yerindən danışması müəlliməni fikirdən ayırdı:

– Nə olub, nə səs salmısınız?

– Bir yerini düz demədi, müəllimə, – deyə şagirdlərdən kimsə səsləndi.

Sevil müəllimə bir neçə sual-cavabdan sonra keçmiş dərsi başa vurub könülsüz halda yeni mövzunu şagirdlərə izah etməyə başladı. Zəng səsi eşidilən kimi uşaqları bayıra buraxıb sinif otağında İlkinlə tək qaldı. Parta arxasına keçib onunla yanaşı oturdu. Əli ilə İlkinin başına sığal çəkib onu şirin dillə dindirməyə başladı:

– İlkin, məndən gizlətmə… Düzünü de görüm, sənə nə olub? Dərslərini niyə öyrənmirsən? Bilirsən ki, mən səni necə çox istəyirəm. Məndən heç nəyi gizlətmə. Nə baş verirsə, mənə danış. Mənim məsləhətlərimin sənə ancaq xeyri ola bilər.

İlkin susaraq sakitcə dayanmışdı. Cavab verənə oxşamırdı. Müəllimə nəticə əldə edə bilmədiyi üçün bu dəfə başqa yola əl atmaq qərarına gəldi:

– O günnəri cinayətkar qrupun diktəsi ilə mağazadan telefon oğurlamışdın. O uşaqlar narkotik satışı ilə də məşğul olurlar. Yenə sağ olsun məktəbimizin direktoru Yaşar müəllim, öz nüfuzundan, ağsaqqallığından istifadə edib yüz cür xahiş-minnətdən sonra səni o qul-

dur dəstəsindən ayıra bildi. Əgər o olmasaydı, sən indi türmələrdə çürüyürdün. Baxmayaraq ki, onların hamısı dəstənin başçısı kimi sənin adını çəkirdi. Düşünürdülər ki, valideynlərin səninlə birlikdə onları da polisin əlindən alıb azad edəcək. Biz sənin əlaçı, tərbiyəli bir şagird olduğunu bildirməklə canını polisdən qurtara bildik. Görürsən, yaxşı oxumağın olmasaydı, heç Yaşar müəllim də arxanca gəlməyəcəkdi. İlkin, mən başa düşə bilmirəm ki, səni o oğrulara qoşulmağa vadar edən nə olub. Unutma ki, sən əvvəlki kimi dərslərinə davam etsəydin, bu hadisə də baş verməzdi. Görürsən, biz bu barədə heç kimə – hətta atana da bir söz demədik. Səninlə söhbət etməklə kifayətləndik… Məndən gizlətmə, düzünü de görüm, birdən-birə sənə nə oldu? Niyə dərslərinə hazırlaşmırsan? Məndən incimə, İlkin. Əgər səbəbini mənə açıqlamasan, sənin haqqında pedaqoji şurada məsələ qaldırmalı olacam. Bilirsən ki, ciddi tərbiyəyə ehtiyacı olan uşaqları müvafiq müəssisələrə göndərirlər.

Sevil müəlliməni sakit tərzdə dinləyən İlkin son cümlələri eşidəndən sonra hönkürtü ilə ağlamağa başladı. Elə ürəkdən ağlayırdı ki, onun bu halını kim görsəydi, bağrı qana dönərdi. Sevil müəllimə dediyi sözlərə peşman oldu. İlkinin sel kimi axan göz yaşları dayanmaq bilmirdi. Toxtaqlıq vermək əvəzinə, özünü saxlaya bilməyən Sevil müəllimə də ona qoşulub ağlamağa başladı.

Tənəffüs vaxtı başa çatırdı. Sevil müəllimə özünü ələ alıb İlkinə yalvarırmış kimi dedi:

– Heç kimə demərəm… Ağlama. Sən oğru deyilsən, yaxşı oğlansan. Darıxma, yavaş-yavaş hər şey qaydaya düşəcək. İradəli olmaq lazımdır! Sən kişisən axı! Çalış gələn dərslərimizə hazırlıqlı gələsən. Ürəyini sıxma, mən sənə kömək edəcəm. Sən yenə əlaçı olacaqsan. Mən sənə inanıram, İlkin!

Bazar ertəsi Sevil müəllimə evdən çıxıb böyük ümidlərlə məktəbə yollandı. Düşünürdü ki, axırıncı söhbətdən sonra İlkin özündə dönüş edib dərslərinə hazırlıqlı gələr. Ürəyinə dammışdı ki, bu gün bir yenilik olmalıdı.

Zəng çalınan kimi Sevil müəllimə inamlı addımlarla sinif otağına girdi. Uşaqlarla salamlaşandan sonra içəri göz gəzdirdi. İlkinin əhval-ruhiyyəsinin necə olduğunu bilmək istəyirdi. Arxa cərgəyə nəzər salanda gördü ki, İlkinin yeri boşdur. O, dərsə gəlməyib.

– İlkin hanı, uşaqlar? – deyə tez xəbər aldı.

– Dərsə gəlməyib, müəllimə, – uşaqlar xorla cavab verdi.

Sevil müəllimə çox narahat oldu və hətta qorxuya da düşdü. "Allah eləməsin, mənim tənbehimdən sonra uşaq özünə bir şey etmiş olar…" Üzünü İlkinlə bir binada yaşayan İlqara tutub tez soruşdu:

– Sən bilmirsən, niyə gəlməyib? Evlərində səs-küy yox idi?

– Bilmirəm, müəllimə. Mən səhər dərsə gələndə balkonlarında gördüm. Salam verdim, səsini çıxarmadı. Oturub dənizə baxırdı.

Sevil müəllimə fikirli halda dərsi birtəhər başa vurub tənəffüs olan kimi tez İlkinin bacısı Arzunun oxuduğu sinfə yollandı. Sinif rəhbəri Şəlalə müəllimə onu qapıda görən kimi dedi:

– Sevil, nə olub belə, rəngin-ruhun qaçıb? Deyəsən, bəd xəbər gətirmisən.

– Şəlalə, İlkin bu gün dərsə gəlməyib. Onu xəbər almağa gəlmişəm. Axı onun bacısı Arzu sənin sinfində oxuyur.

– Qəribədi…

– Nə qəribədi, nə?!

– Bu gün Arzu da dərsə gəlməyib…

Sevil müəllimə tutuldu. Ani düşüncədən sonra dedi:

– Onda mən qaçım evlərinə. Görüm, niyə gəlməyiblər. Deyəsən, nəsə olub.

– Ay Sevil, sən də qəribə adamsan ey. Burda nə var axı? Dünya dağılmayıb ki?! Uşaq dərsdən qalar da, narahat olma. Sabah dərs günü deyil, yəqin, rayona qonaq gediblər.

– Deyirəm, bəlkə…

– Nə bəlkə? Arzu uşaqlara zəng edib deyib ki, müəlliməyə deyin, bu gün mən dərsə gələ bilməyəcəm.

Bu söz Sevil müəlliməyə bir az toxtaqlıq verdi. Buna baxmayaraq, qərara aldı ki, dərsdən sonra İlkinə

baş çəkmək üçün mütləq evlərinə getsin, valideynləri ilə görüşüb söhbət etsin. Fürsətdən istifadə edib Şəlalə müəllimədən bəzi məlumatlar almaq istədi:

– Şəlalə, Arzu necə qızdı, özünü necə aparır?

– Nə barədə? – Şəlalə müəllimə soruşdu.

– Bilirsən, onun qardaşı İlkin sinfimin gözü idi; həm oxumağı, həm də davranışı, intizamı ilə. Amma son vaxtlar tamam dəyişib, dərslərə hazırlıqsız gəlir. Bildiyim qədərilə, pis uşaqların əhatəsinə düşüb. Dedim, görüm, Arzu necədi, o da dəyişməyib ki?

– Sən Arzunu görmüsənmi, tanıyırsanmı?

– Əlbəttə, tanıyıram, – Sevil müəllimə cavab verdi.

Şəlalə müəllimə dedi:

– Ancaq indi görsən, tanımazsan.

– Niyə ki? – Sevil müəllimə təəccüblə xəbər aldı.

– Yazıq qız beş-altı ayın içində əriyib çöpə dönüb. Səbəbini soruşuram, heç nə demir. Mehriban, gülərüz qız idi. Sinif yoldaşları həmişə onun başına yığışar, deyib-gülərdilər. Amma indi Arzu hamıdan qaçır, tək qalmağa çalışır. Qaş-qabağı heç açılmır. O günnəri bütün siniflə birlikdə yığışıb ad gününü təbrik etdik, amma qırışığı yenə açılmadı. Sevinmək əvəzinə çəkilib bir küncdə xısın-xısın ağlayırmış.

– Bəs dərslərini necə, oxuyurmu?

– Oxuyur, Sevil. Ancaq dərslərinə əvvəlki kimi həvəsli deyil. Onunla təklikdə söhbət etsəm də, bir söz ala bilmədim, ruh düşkünlüyünün səbəbini öyrənə bilmədim.

Sevil müəllimə dərsdən sonra öz evlərinə deyil, İlkingilə üz tutdu. Lift təmirə dayandığı üçün beşinci mərtəbəyə piyada qalxmalı oldu. Astma xəstəliyindən əziyyət çəkdiyi üçün bərk təngnəfəs oldu. Çantasında gəzdirdiyi dərmanı boğazına püskürdüb xeyli dayandı. Özünə gəldikdən sonra İlkingilin qapısındakı zəngin düyməsini basdı. Cavab verən olmadı, düyməni yenidən sıxdı. Zəngin səsi dəhlizdə də eşidilirdi. Deməli, evdə kimsə yox idi. Sevil müəllimə qonşuya müraciət etmək qərarına gəldi. Elə ilk zəngdən sonra qapı açıldı.

– Buyurun, qızım, eşidirəm, – deyə qapını açan ağ-saçlı kişi ədəblə dilləndi.

– Siz Allah, bağışlayın, dayı. Sizi də narahat edirəm. İlkingilə gəlmişdim, evdə yoxdular. Dedim, bəlkə, siz bilərsiniz, bunlar hardadır? İlkin bu gün dərsə gəlməyib. Mən onun müəlliməsiyəm.

– İlkində günah yoxdu, qızım. Valideynləri başlarını itiriblər, ona görə gəlməyib.

Sevil müəllimə heyrət içində tez xəbər aldı:

– Nə olub ki, dayı? Zəhmət olmasa, deyin. Mən çox narahatam.

– Qızım, son vaxtlar bu evdə qırğındır. Dava-dalaşdan, hay-küydən gecələr evimizdə yata bilmirik. Hörmətli, sayılıb-seçilən adamlardı, söz də demək olmur. Bu gün məhkəmələridi. Boşanırlar.

– Nə?! – Elə bil Sevil müəlliməni tok vurdu. Gözləri qaraldı, başı gicəlləndi. Özünü saxlaya bilməyib divara

söykəndi. – Boşanırlar? Belə gözəl bir ailə? Axı nədən, nəyə görə? Bəs uşaqlar?! Onları fikirləşən oldumu?

Arzu ilə İlkin boynu bükük, pərişan halda gəldi durdu Sevil müəllimənin gözləri qarşısında. Sevil müəllimə kişini yenidən sorğu-suala tutmağa başladı:

– Sənə qurban olum, ay dayı. Bəs niyə boşanırlar?! Birdən-birə nə oldu axı? Belə də müsibət olar? Qohumlar, qonşular, ağsaqqallar hara baxırdı bəs? Niyə imkan verdilər? Bir yol göstərən, məsləhət verən, tədbir tökən olmadımı?

– Xeyri olmadı, qızım. Aravuranlar, sözgəzdirənlər dilini kəsmədi, qısqanclıq da öz işini gördü. Daha barışıq üçün gecdir. Bu gün məsələ bitir.

Sevil müəllimə qulaqlarına inanmaq istəmirdi. Günahsız uşaqların gələcək taleyi onun qəlbini ağrıdırdı. "Sağ olun, dayı" deyib İlkingilin evindən aralandı. Göz yaşları Sevil müəlliməni ovundurub sakitləşdirə bilmirdi. "Bəs o bir cüt balanın taleyi necə olacaq? Sənə yalvarıram, ey böyük Yaradan! Onları heç vaxt yalqız və çarəsiz buraxma!" – deyə Allaha dua etməyə başladı.

Özünə suallar verə-verə evlərinə necə gəldi, hansı yolla gəldi, özü də bilmədi. Bir də gördü ki, artıq qapılarının ağzındadır. Fikri-zikri İlkinlə Arzunun yanında qalmışdı. İçəri girməzdən öncə özünə əl gəzdirib, üzgözünün yaşını sildi. İstəmirdi ki, narahatlığı evdə hiss olunsun. Onu qapıda həyat yoldaşı Qorxmaz qarşıladı:

– Bu vaxta qədər hardasan?!

– İlkingildən gəlirəm. Sənə demişdim axı, dərslərini oxumur…

– Əşi, bəsdir də! Bezdim daha! Sən bu xarabaya bir gün vaxtında gələcəksən, ya yox! Qabağıma qoyacağın bir tikə çörəyi də zəhərə döndərirsən. O məktəbdə səndən başqa müəllim yoxdu?! Bu uşaqların qayğısını çəkmək təkcə sənəmi qalıb? Bəsdir qapıları gəzdin, qurtar da bu oyunu. Qurtar, qurtar, qurtar! Başa düşdün məni?

– Baş üstə, bir də yubanmaram, – deyə Sevil müəllimə yazıq bir görkəm alıb sakit tərzdə cavab verdi.

Evə sükut çökmüşdü. Sevil müəllimə ərinin qırımını görüb səsini çıxarmadan mətbəxə keçdi. Şam yeməyini hazırlayıb süfrəyə düzdü. Sonra da tez çay hazırlığına başladı. Həyat yoldaşı yeməkdən dərhal sonra çay içməyə adət etmişdi. Sevil müəllimə əlavə söz-söhbət olmasını istəmirdi.

Artıq Qorxmaz bəyin hirsi soyumuşdu. Sevil müəllimə bulaşıq qabları yuyandan sonra evə əl gəzdirib səliqə-sahman yaratdı. Sabahkı dərslərə nəzər salıb yatağına girdi, gözlərini yumdu. Gecədən xeyli keçməsinə baxmayaraq, yuxuya gedə bilmədi. Fikri İlkinlə Arzunun yanında qalmışdı. Sabah dərsdən sonra onlara gedib valideynlərini barışdırmaq istəyirdi. Buna nail ola biləcəkdimi, bilmirdi. Həyat yoldaşına verdiyi vəd tamam yadından çıxmışdı.

Onları necə barışdıracağını düşünməyə başladı. Heç özü də bilmirdi ki, bu hadisə onu niyə bu qədər narahat

edir. Nə idi axı onu başqasının ailə probleminə qarışmağa vadar edən?! Fikrindən daşınmaq istəsə də, bacarmadı. İlkinlə Arzu yenə gəlib dayandı gözlərinin qabağında. Onların kədər çökmüş gözlərini görüb kövrəldi. Övlad həsrətilə yanıb-qovrulduğu ömrünün on yeddi ilini xatırladı. Çəkdiyi əzablar, xəyal qırıqlıqları qəlbini yenidən göynətdi. Tale onu analıq hissindən məhrum etmişdi. Ailədəki bir ögeylik, əri ilə arasında əsən sərin küləklərin səbəbi də bu idi. Ərinin hövsələsizliyi, bəzi kobudluqları da elə bu soyuqluqdan qaynaqlanırdı.

Sevil müəllimə bu düşüncələr içində pəncərənin yavaş-yavaş işıqlandığını gördü. Artıq səhər açılırdı. Bəs bu açılan səhər İlkinlə Arzunun üzünə güləcəkdimi? Sevil müəllimə bu günahsız uşaqların gələcəyini qorumaq üçün canından keçməyə belə hazır idi! O, İlkinlə Arzunun valideynləri ilə birlikdə xoşbəxt yaşamasını istəyirdi. Ağlına gəldi ki, elə öz həyatını, çəkdiyi iztirabları, fikir və duyğularını, düşüncələrini Vüqar bəylə, Sevinc xanımla bölüşsə, onları barışdıra bilər. Sahib olduqları xoşbəxtliyin ölçüsünü dərk edəndən sonra valideynlər səhv etdiklərini anlayar və gözəl bir ailəni uçuruma sürükləməzlər.

…Sevil müəllimə bütün gecəni yuxusuz qalan, əzab çəkən adam kimi yox, tamamilə gümrah bir vəziyyətdə yerindən qalxıb hazırlanmağa başladı. O, bu gün özünü cəmiyyət üçün hər gün olduğundan daha məsuliyyətli, daha gərəkli bir insan sayırdı.

Dilənçi

Cəfərxan kişi rahatlana bilmirdi. Yerində qurcalanıb gah sağa çevrilirdi, gah da ki sola. Gözünə yuxu getmirdi. Qocalığa görə aldığı təqaüdün ikinci ili tamam olurdu. Sabah baş idarəyə gedib keçən il verdiyi arayışları yeniləyib təkrarən təqdim etməli idi. Yoxsa təqaüdünü yubadıb onu çətin duruma sala bilərdilər. Dar gün üçün saxladığı 60 manatı həkimə və dava-dərmana xərclədiyi üçün kefi yox idi. Maddi vəziyyəti yaxşı olmadığından sabahkı işi rüşvətsiz həll etmək istəyirdi.

Səhər açılan kimi qalxıb geyindi. Əl-üzünü yuyub yeməyini yedi, çayını içdi. Həyat yoldaşı Narıngül arvadla sağollaşmadan könülsüz halda evdən çıxdı.

Baş idarəyə çatanda adamların çoxluğunu görüb özündən asılı olmayaraq bərk əsəbiləşdi. Sonra bir kənara çəkilib növbəsini gözləməyə başladı.

Tez-tez kabinetə girib-çıxan diribaş oğlan idarəyə yenicə daxil olan kişiyə 2-3 dəfə nəzər yetirdi. Elə bil sözlü adama oxşayırdı. Növbəyə duran adamları çox ləng yola salırdılar. Cəfərxan kişi isti yay günündə burada necə tab gətirəcəyini təsəvvür belə edə bilmirdi.

Təqribən yarım saat keçəndən sonra bayaqkı qıvraq oğlan Cəfərxan kişiyə yaxınlaşdı:

– Sizi bir dəqiqə olar? – deyib onu qonşu otağa dəvət etdi.

Ağsaqqal ümidlənərək yerindən tərpəndi. Yaşına uyğun olmayan çevikliklə onun arxasınca yüyürüb otağa keçdi. Oğlan yanındakı təqaüdçünü yola salıb Cəfərxan kişiyə dedi:

– Ağsaqqal, görürəm, yaxşı kişiyə oxşayırsan. İstəyirsən, səni tez yola salım, get.

– Ay oğul, sənə qurban, kömək elə da. Bu minvalla heç səhərə kimi mənə növbə çatmayacaq.

– Ağsaqqal, "oğluna" beş manat "abed" pulu verə bilərsənmi?

– Vallah, imkanım yoxdur, – sonra nə fikirləşdisə, cibindən üç manat çıxarıb, – bax, al bunu, halal xoşun olsun, məni yola sal, gedim, – dedi.

Oğlan üç manatı aldı.

– Problem yoxdu. Təki sənin canın sağ olsun, – dedi. Sonra cibindən üstü möhürlü bir kağız çıxarıb Cəfərxan kişiyə uzatdı:

– Bax, sən işləməməyin barədə, sağlamlığın haqqında və bir də yaşayış yerindən arayış gətirməlisən. Hansı idarələrə getməlisən, bu sənəddə qeyd olunub.

Cəfərxan kişi çox gözləmədiyi üçün verdiyi pula heyfsilənmədi. Ancaq heç ağlına da gəlmədi, soruşsun ki, adi bir şeydən yana camaatı niyə bu qədər incidirlər.

Oradan çıxıb həmən qonşuluqdakı mənzil-istismar kontoruna yollandı. Katibə, kişini görən kimi tanıdı:

– Xoş gəlmisən, əmi, – deyib oturmaq üçün yer göstərdi: – Buyur, əyləş.

– Yox, qızım, sağ ol. Tələsirəm. Mənə bir arayış ver, gedim, – kişi bildirdi.

Katibə dedi:

– Ağsaqqal, bir ildən çoxdu, zibildaşıma borcunuz yığılıb qalıb, pulunu ödəmirsiniz. Üstəlik, müdir də burda yoxdu.

Cəfərxan kişi keçənilki müsibəti, dava-dalaşı yenidən yaşamamaq üçün stolun üstünə beş manat qoyub dedi:

– Qızım, bu pula özünə ətir alarsan. Xahiş edirəm, məni çox incitmə. Bundan artığına gücüm çatmır.

– Ay dayı, Allah səni güldürsün, bu pula heç nahar eləmək olmaz, nəinki ətir almaq. Ancaq ürəyini sıxma. Qoy görüm, burda ehtiyatda bir dənə olmalıydı.

Stolun siyirməsini çəkib oradan imzalı, möhürlü ağ bir arayış çıxardı. Lazım olan qeydləri edib onu Cəfərxan kişiyə uzatdı:

– Buyurun, ağsaqqal, işiniz düzəldi. Gedə bilərsiniz.

Cəfərxan kişi kefsiz halda ordan çıxıb üz tutdu poliklinikaya tərəf. Ora çatan kimi qeydiyyat yerinə yaxınlaşıb gəlişinin məqsədini açıqladı. Səliqəli geyinmiş qarabuğdayı qız onu üç saylı otağa yönləndirdi. Orada Cəfərxan kişini ağ xalatlı, gülərüzlü bir xanım qarşıladı:

– Salam, ağsaqqal. Xoş gəlmisən. Nə qulluq?

– Qızım, sağlamlıq haqqında arayış lazımdır. Bax, bu da sənəd. Deyiblər ki, sizin poliklinikadan alım.

– Mənim əziz dayım, əvvəl kassaya pul ödəyib analiz üçün qan verməlisiniz. Sonra isə müayinə olunacaqsınız.

Cəfərxan kişi az qaldı hövsələdən çıxsın, lakin özünü birtəhər ələ alıb dedi:

– Ay anam, ay bacım, vallah, imkanım yoxdur! Siz keçən dəfə də mənim başıma bu oyunu gətirdiniz. Bir arayış nədi axı? Görürsüz ki, sağ-salamat varam.

Xanım kişinin yalvarışlarını görüb bir az yumşaldı. Ona rəhmi gəldi:

– Dayı, sənə qurban, bir söz desəm, heç kimə deməzsən ki?

– Yox, demərəm.

– And iç ki, aramızda qalacaq. Yoxsa məni işdən həmişəlik qovarlar.

– Söz verirəm.

– Onda qulaq as. Görürəm, sən yaxşı kişiyə oxşayırsan. Ancaq heç mən də pis adam deyiləm, – deyə xanım söhbətə başladı. – Məgər mən özbaşımayam ki, burda oturub hər gələndən pul yığım? Görmürsən ki, hər şey kitaba qeyd olunur, hər qəpiyin hesabı aparılır? Nəbadə bu barədə başqa müştərilərimizə xəbər verəsən. "Dama-dama göl olar" deyiblər. O pulları kimdi mənə verən? – Sonra əlavə etdi, – ancaq nara-

hat olma, mən səndən cəmi beş manat alıb bu məsələni həll edəcəyəm. O pulun heç kimə aidiyyəti yoxdu, birbaşa müdirə çatmalıdı, – həkim sözünə bir az ara verib yenidən davam etdi: – Baş idarədən sənəd adı ilə sənə verilən o kağızın da heç bir anlamı yoxdu. Məgər sən bizdən arayış istəsəydin, verməyəcəkdik? "Keçəl halva yeyər, puluna minnət" deyiblər. Hamısı pul tələsidir. Yəqin, beş manat da o kağıza görə alıblar.

– Yox, üç manat vermişəm, – deyə kişi cavab verdi.

Cəfərxan kişi vəziyyəti anladı. Əli əsə-əsə döş cibindən pullarını çıxardı. Bir manatlıq əskinasların arasındakı beş manatı ayırıb həkimə uzatdı:

– Al, bala. Allah səndən razı olsun.

Cəfərxan kişi poliklinikadan çıxıb növbəti arayışı almaq üçün yubanmadan İşədüzəltmə Komitəsinə üz tutdu. Yollardakı tıxac avtobusun sürətli hərəkətinə mane olurdu. Ora çatanda qapıda asılmış "nahar fasiləsi" lövhəsini görüb yaxınlıqdakı parka döndü.

Günəşin yandırıcı şüalarından qorunmaq üçün iri gövdəli palıd ağacının altında oturmaq qərarına gəldi.

– Boşdu? – deyə skamyada oturub fikrə gedən cavan oğlandan soruşdu.

– Buyur, ağsaqqal, – cavan oğlan mehribancasına yer göstərdi.

Kişi yerini rahatlayandan sonra qarşı tərəfdə toplanan dilənçilərə nəzər yetirib oğlana dedi:

– Bu yazıqlar da bir tikə çörək pulunnan yana tökülüblər şəhərin küçələrinə...

– Əziyyətlə pul qazanmaq istəmirlər, – oğlan dedi, – daha dilənməyə alışıblar; biri deyir, xəstəyəm, dərman almağa pulum yoxdu, biri deyir, ərim ölüb, yetimləri dolandıra bilmirəm, biri deyir, əməliyyat olunmalıyam, Allaha xatir, kömək edin... Nə bilim ey, dünyadı da, hərə bir cür başını dolandırır.

Deyəsən, dilənçilər də nahar fasiləsinə çıxmışdılar. Skamyaya sərdikləri qəzet parçasının üstündə xiyar, pomidor, pendir, kartof soyutması, çörək və "Koka-kola" butulkası gözə dəyirdi. Dilənçi qadınlar həm özləri yeyir, həm də soyutma kartofu əzərək qucaqlarındakı iki uşağı yedizdirirdilər. Yeyib qurtarandan sonra "süfrə"ni yığışdırdılar. Başda oturan kök, nisbətən yaşlı arvad üzünü yoldaşlarına tutub dedi:

– Növbə kimindi, uşaqları götürsün. "Davay", hamı iş başına.

Gözləmədikləri halda dilənçi qızlardan biri onlardan ayrılıb qucağında uşaq Cəfərxan kişigilə yaxınlaşdı. Oğlanın geyiminə nəzər salıb əvvəlcə əlini ona tərəf uzatdı:

– Ay qardaş, noolar, kömək elə, uşaq acınnan ölür. Üç gündü, dilinə yemək dəymir. Atasının başına daş düşüb, "uruset"dən gəlib çıxmır. Noolar, ay qardaş, sizi and verirəm Allaha...

Oğlan hirslənib qızın sözünü kəsdi:

– Ay qız, baş-beynimiz getdi axı. Görürsən, imkanımız yoxdu də. Əl çək yaxamızdan.

Sonra öz-özünə deyindi: "Öz dərdimiz özümüzə bəs deyil, bu da bir tərəfdən düşüb üstümüzə, əl çəkmir".

Qız bu dəfə üzünü Cəfərxan kişiyə çevirdi:

– Ay dayı, noolar, sən yaxşı adama oxşayırsan. Sənə qurban olum, kömək elə. Bu uşağın duası sənə bəsdi. Noolar, ay dayı...

Cəfərxan kişi yan cibindən iyirmi qəpik çıxarıb qıza uzatdı:

– Yaxşı, al, get burdan. O uşağı da günün bu şaqqamasında elə bişirmə, günahdı.

Qız gedəndən sonra oğlan dedi:

– Ağsaqqal, özün bilən məsləhətdi, ancaq pul verib bunları pis öyrədirik. Milləti dilənçiliyə həvəsləndiririk. Qoy gedib özlərinə iş tapsınlar...

– Bilirsən nə var, bala? Millət çoxdan yaman günə qalıb, sənin xəbərin yoxdu, – sonra əlavə etdi, – bu yaxınlarda bulvarda gəzirdim, ucaboy, qəşəng bir oğlan mənə yaxınlaşıb ona pul verməyimi, köməklik etməyimi xahiş etdi. Mən ona "ay bala, maşallah, pəhləvan kimi oğlansan, niyə gedib bir işin qulpundan yapışmırsan?" – deyəndə qayıdıb mənə nə cavab versə yaxşıdır?

– Nə?

Cəfərxan kişi gülümsəyərək dedi:

– Dedi ki, ağsaqqal, elə mən gözümü açandan bu işlə məşğulam də. Bundan sonra çətin ki, əlim başqa işə yatsın... Ancaq, ay oğul, mən bu dilənçiləri o qədər də

qınamıram. Əgər bəzi idarələrdə dövlət adamları aldığı məvacibə qane olmayıb hər gün dilənirlərsə, qəpik-quruş dalınca qaçan bu yazıqları niyə qınamalıyıq ki?!

Artıq nahar fasiləsi başa çatmışdı. Oğlan getdiyindən Cəfərxan kişi tək qalmışdı. Bəzi fikirlər onu yerindən tərpənməyə qoymurdu. Bilmirdi ki, cibində qalan axırıncı manatlıqlar üçüncü arayış üçün yetərlidir, ya yox? Bəs birdən pulu görməsə, onda nə edəcək? Cəfərxan kişi ümidsizliyə qapılmışdı. "Əgər tanıyan olmasaydı, şəhərin gur yerində bir-iki saat dilənərdim" deyə fikrindən keçirdi. Bu vaxt 10-12 yaşlarında saçı pırtlaşıq, üst-başı yaman gündə, cırıq ayaqqabılı bir qız uşağı ona yaxınlaşdı. Kirli əllərini Cəfərxan kişiyə tərəf uzadıb yalvarmağa başladı:

– Ay dayı, sənə qurban olum, ayaqlarının altında ölüm, mənə kömək elə. Səni and verirəm Həzrət Abbasa. Yetim uşağam, noolar? Heç kimim yoxdur... Səni and verirəm Allaha...

Cəfərxan kişi çaşıb qaldı. Nə edəcəyini bilmədi. Tifil qızcığaza yazığı gəldi. "Lənət şeytana" deyib əlini cibinə saldı. 20 qəpik çıxarıb uşağa verdi. Sonra isə "bəs mən özüm vəziyyətdən necə çıxacam?" – deyə fikirləşməyə başladı. Bu zaman parkdakı adamlardan yardım istəyən bir arvadın dilənə-dilənə ona tərəf irəlilədiyini gördü. Bu dəfə Cəfərxan kişi özünü itirmədi. Sağ əlini qabağa açıb sakitcə dayandı. Arvadın yaxınlaşdığını görcək ondan kömək istədi:

– Ehtiyacım var. Xahiş edirəm, əl tutasınız. Allah öz mərhəmətini sizdən əsirgəməz...

Arvad diqqətlə baxsa da, heç nə başa düşmədi. Palıd ağacının kölgəsində lövbər salan Cəfərxan kişinin sifəti ona tanış gəlmirdi. Xeyli baxandan sonra hesab soracaqmış kimi kişinin üstünə yeridi.

Velosiped

Allahverdi yeddinci sinifdə oxusa da, ərköyünlüyündən, nadincliyindən əl çəkmir, gündə bir hoqqa çıxarırdı. Gah oğlanlara ilişir, gah da qızlara söz atırdı. Sinif yoldaşları, məhəllə uşaqları onunla mübahisə etməkdən çəkinər, ikibaşlı atmacalarına məhəl qoymaz, ondan uzaq durmağa çalışardılar. Ona görə yox ki, ondan qorxurdular. Yox, qorxmurdular. Sadəcə olaraq, bilirdilər ki, kim onun xətrinə dəysə, nənəsi Gülsüm arvad özünü yetirib aranı qatacaq, hamını bir-birinə vuracaq, "konsert" çıxaracaqdı. Bəzi uşaqlar uğultu qoparacaq, camaat isə tamaşaya yığılacaqdı.

İnsafən, Allahverdinin valideynləri pis adam deyildi. Anası Şölə xanım çox mehriban, səmimi bir tibb bacısı, atası Yaqub kişi isə zəhmətkeş "KamAZ" sürücüsü idi. Qonşu olduqları üçün hələ uşaq vaxtlarından Yaqub bəylə Şölə xanım bir-birinə get-gəl eləmiş, dostlaşmış, böyüyəndə isə ağsaqqalların xeyir-duası ilə ailə qurmuşdular. Lakin evləndikdən sonra bir müddət övladları olmamışdı. Bəzi dostları, qohumları Yaquba

arvadından ayrılıb başqası ilə evlənməyi məsləhət bilsə də, o, bu fikri qətiyyən qəbul etməmiş, səbirli olmağa üstünlük vermişdi. Evli olduqları müddətdə Şölə xanımla çox mehriban ömür sürmüş, valideynləri də gəlindən həmişə razılıq etmişdilər. Bu cür arvad hər adama qismət olmazdı ki, Yaqub bəyin bəxtinə çıxmışdı. Necə deyərlər, doşab almışdı, bal çıxmışdı. Bircə övlad dərdi olmasaydı... Yoxsa kim istəməzdi ki, ömrünü Şölə xanım kimi tərbiyəli, başıaşağı, üzüyola, mehriban bir gəlinlə keçirsin.

Yaqub bəy Şölə xanımı da götürüb şəhər həkimlərindən belə hər yana aparmışdı. Lakin həkimlər onların sağlamlığında bir qüsur tapa bilməmiş, bu problemin zamanla həll oluna biləcəyini demişdilər. Yaqub bəy ümidini üzməyib təkcə həkimlərlə kifayətlənməmişdi. Ağsaqqal və ağbirçəklərin məsləhəti ilə ağır ocaqlara, pirlərə pənah aparmış, nəzir paylamış, həmişə Allaha dualar etmişdi. O, demək olar ki, olub-qalan nə pulu vardısa, hamısını bu yolda qoymuşdu. Və nəhayət, beş ildən sonra sevinc üzünə gülmüşdü. Özü də təkcə onun yox. Öz ailə üzvləri ilə bərabər, bütün kənd camaatı da bu hadisəyə sevinmişdi. Allahverdi adını isə uşağa nənəsi – Gülsüm xala qoymuşdu. Uşaq böyüyənə qədər anası ilə bərabər, nənəsi də onun üstündə əsmiş, qayğısına qalmış, hər nazını çəkmişdi. Şölə xanım uşağından arxayın olduğu üçün iş yerinə rahat gedib-gəlmiş, qayınanasına güvəndiyindən narahatlıq hissi

keçirməmişdi. Təəssüf ki, uşaq böyüdükcə nənəsi onu daha çox əzizləmiş, bəzən səhv hərəkətlərinə də fəxrlə "maşallah" demişdi. Ata-anası uşağa hirslənəndə və ya bir irad tutanda Gülsüm xala tez reaksiya vermiş, "yaxşı, yaxşı, dünya dağılmadı" deyə nəvəsinə qahmar çıxmışdı. Ərköyünlüyü artıq o həddə çatmışdı ki, Allahverdi nənəsindən pul götürüb kənddəki mağazalardan istədiyi şeyi alırdı. Öz təqaüdü kifayət etməyəndə Gülsüm xala əlini ömür-gün yoldaşı Mustafa kişinin cibinə uzadırdı. Satıcılar Allahverdiyə alışdıqlarından onu görməyəndə darıxardılar.

Bir gün Yaqub bəy yorğun halda işdən gəlib arvadını çox qaşqabaqlı gördü. Hiss etdi ki, Şölə xanım onu soyuq qarşıladı. Əvvəl heç nə demədi. Adəti üzrə bir stəkan çay içdikdən sonra aynabənddən otağa keçib arvadını səslədi:

– Şölə, keç içəri, işim var.

Şölə xanım işini bilirdi. Odur ki, otağa daxil olan kimi arxasınca qapını örtdü. Yaqub bəy gözləmədən soruşdu:

– Niyə qaşqabaqlısan? Nəsə olub?

– Yox, heç nə olmayıb, – həyat yoldaşı dilləndi.

– Yorğunam, hövsələm yoxdu. Yubatma, de görüm, nə olub?

– Yaqub, sənə qurban, məni pis vəziyyətdə qoyma...

– Bəsdi görək! Bağrımı çatlatdın! De görüm, nə məsələdi?!

– Nə olacaq, Allahverdi evdə heç kimi saya salmır. Nə bilir, onu edir, dərslərini oxumur. Gör saat neçədi, hələ evə yığışmayıb.

– Narahat olma, mən onun qulağını dartaram.

– Kötəklə düzələsi məsələ deyil, Yaqub. Nənəsi onu çox pis öyrədib. Uşağın sözü ilə oturub-durur. Allahverdinin bir əmri yerinə yetməyəndə uşaqdan çox o narahat olur. Ağzımı açmağa qoymur. Bəlkə, üzbəüz oturub şirin dillə özün uşağı başa salasan. Hələ gec deyil. Ananı yola gətirsən, Allahverdini dartıb bir yana çıxara bilərik.

– Bəs indiyə kimi niyə mənə bir söz demirdin?

– Nə deyim, Yaqub? Xasiyyətinə bələd deyiləm? O dəqiqə əsəbiləşib hay-küy qaldıracaqsan. Hamı da deyəcək ki, Mustafa kişinin qızı ana ilə balanın arasına girib onları bir-birinə vurdurur. Bu işdə mən əsas günahı qayınanamda görürəm. Allahverdi dükanlardan nə istəyir, götürür. Pulu ona nənəsi ilə babası verir... Yaqub, elə et ki, mənim adım hallanmasın, xahiş edirəm. Qoy evimizdəki mehribanlıq pozulmasın.

Yaqub bəyin hövsələsi daraldı. Həyat yoldaşı haqlı idi. Ancaq bilmirdi ki, söhbətə hardan və necə başlasın. Elə etməliydi ki, Şölənin adı hallanmasın, yoxsa anası evdə mərəkə qoparar, olub-qalan xətir-hörmət aradan götürülərdi. İkilikdə olduqlarını nəzərə alıb Şölə xanım sözünə davam etdi:

– Yaqub, hirsli başda ağıl olmaz. Yaxşı-yaxşı fikirləş, qötür-qoy elə. Həmən uşağın üstünə getmə. Mə-

sələ çox ciddidi. İndi də deyir ki, əgər mənə velosiped almasaz, özümü damdan atacam... Gedib mağazaya, verməyiblər, deyiblər ki, get, qoy atan gəlsin.

– Bircə elə bu qalmışdı. – Yaqub bəy bərk əsəbiləşdi. – Qələt eləyir. Belə çıxır ki, hər dama çıxanda ona bir şey almalıyıq?! – Sonra əlavə etdi, – sən mənə heç nə deməmisən, narahat olma.

Bu velosiped məsələsi Yaqub bəy üçün göydən-düşmə oldu. Əvvəlcə çayını içib sonra küçəyə çıxdı. Gövdəsindən sınaraq yerə yıxılmış yaşlı söyüd ağacının üstündə sıra ilə oturan uşaqlara tərəf səsləndi:

– Dədə, gecdi, gəl evə (atasına hörmət əlaməti olaraq oğlunu belə çağırırdı).

Allahverdi uşaqlardan ayrılıb evə gəldi. Ailə aynabənddəki stolun arxasına yığışıb axşam yeməyinə hazırlaşırdı. Yaqub bəy özünü saxlaya bilməyib dərhal söhbətə başladı:

– Dükançı İsmayıl dedi ki, oğlun gəlib velosiped almaq istəyir. Bu düzdür?

– Hə, istəyir, bala, istəyir. Deyir ki, hamının var, mənim niyə olmasın? – Gülsüm arvad qabağa düşüb hamıdan tez cavab verdi.

– Ana, birincisi, hamının velosipedi yoxdu, varsa da, bizə nə dəxli? İkincisi, Dədə gündəliyini gətirsin, görək vəziyyət necədi? Əgər velosiped alsaq, dərslərindən geri qalmaz ki? Üçüncüsü, deyin görüm, mənim xəbərim olmadan niyə uşağa pul verirsiniz ki, gedib özünə velosiped alsın?

– Boy, o nə sözdü dedin, ay oğul? Məgər bu evdə mən boyda ağbirçəyin sözü keçmir ki? Bir veliskeddən yana uşağın qəlbinə dəyəcəksən? Camahat uşağına cüt-cüt alır. Niyə, acından ölmürük ki. Başqaları bir sürü uşaq saxlayır, sözü çıxmır, sən bir dənə nübarının könlünü almaq istəmirsən!

Yaqub bəy hiss etdi ki, anası ilə danışmaq onun üçün çətin olacaq. Odur ki, oğluna tərəf çevrilib dedi:

– Dədə, bax, mənə diqqətlə qulaq as. Velosipedin olmağı sənin üçün elə də vacib deyil. Əgər istəyirsənsə mənim kimi sənin də çörəyin daşdan çıxmasın, çalış, dərslərinə fikir ver. Universitetə girib yaxşı bir ixtisas sahibi ol. Önəmli olan budu, velosiped sənin nəyinə lazımdır?

– İstəyirəm, – oğlu astadan dilləndi.

– Məndə pul var. – Gülsüm arvad yenə özünü saxlaya bilmədi.

Yaqub bəy üzünü bayaqdan sakitcə oturub qulaq asan atasına tutub dedi:

– Ata, sən bu işə nə deyirsən? Anam bu uşağı hara aparır?

– Bala, anan bu evdə indiyə kimi mənə ağız açıb söz danışmağa imkan verməyib. Sevinirəm ki, heç olmasa, əvəzində Allah mənə yaxşı bir gəlin qismət eləyib. İndi də bu uşaq məsələsi. Əgər bilmək istəyirsənsə, anan o uşağın evini çoxdan yıxıb. Gücün çatsa, velsabed almaya bilərsən.

Gülsüm arvad kişinin sancmasına cavab qaytarmaqdan özünü zorla saxladı. Yaqub bəy şər vaxtı, şam yeməyi ərəfəsində evə qanqaralığı salmaq istəmədi. Üzünü oğluna tutub dedi:

– Dədə, nə vaxt ki bütün dərslərindən əla qiymətlər gətirdin, sənə velosiped alacam.

Allahverdi küsərək stolun arxasından durub yemək yemədən içəri otağa keçdi. Nənəsi həmən dalınca yüyürdü. Nəvəsinə dediyi təsəlliverici sözlər aynabənddə aydınca eşidilirdi: "Ağlama, mənim noğul balam. Nənən gözünün yaşına qurban olar..."

Səhər Yaqub bəy işə getsə də, Allahverdi dərsə getmədi. Anası nə qədər çalışsa da, onu yola gətirə bilmədi. Uşaq "velosiped" deyib durdu. Sonra isə məqsədinə nail olmaq üçün tövlənin damına çıxdı. "Özümü atacam!" deyə baba və nənəsini hədələdi. Yubanmadan anası Şölə xanımı iş yerindən çağırdılar. Tamaşaya qonşular da yığışdı. Nənəsi nə qədər yalvarsa da, özünə əl qatsa da, camaat nə qədər dil töksə də, xeyri olmadı. Allahverdi dedi ki, anam getsə, velosipedi verərlər. Şölə xanım isə oğlunu başa saldı ki, əgər icazəsiz bir iş tutsa, Yaqub işdən gələn kimi onu tikə-tikə doğrayar. Bu söhbətlərin faydasız olduğunu görən Allahverdi nənəsinin yalvarışlarına məhəl qoymadan damın lap qırağına gəldi. Sonra isə "İnanmırsınız mənə? Onda, əlvida!" deyib özünü aşağı atdı. Düşməyi ilə bağırmağı bir oldu:

– Vay, nənə, öldüm!

Ətraf bir-birinə qarışdı. Su gətirən kim, həkim dalınca qaçan kim... Nənəsi havar çəkib elə şivən qopardı ki, gəl görəsən:

– Balamı bədbəxt elədilər! Bir veliskedi ona qıymadılar...

Şölə xanımın səsi çıxmasa da, gözlərindən yaş sel kimi axırdı. Oğlunun başını dizi üstünə qoyub camaatdan ona toxunmamağı xahiş edirdi. Uşağın rəngi qaçdığından bərk narahat idi.

Həkim gəlib çıxdı. Şölənin iş yoldaşı idi. Uşağa bir ağrıkəsici iynə vurub şəhərə rentgen aparatına aparmağı məsləhət bildi. "Ancaq maşına mindirəndə ehtiyatlı olun, ayağını tərpətməyin" – deyib getdi.

Allahverdi hey qışqırıb-bağırır, səsini kəsmirdi. Bilmək olmurdu ki, o, bunu ağrıdan eləyir, yoxsa ərköyünlükdən. Nəhayət, səbirsizliklə gözlədikləri sınıqçı Süsən arvad da gəlib çıxdı. Camaat çəkilib tez ona yol verdi. Arvad çöməlib yerini rahatladı. Allahverdinin çığırtısına məhəl qoymadan ehtiyatla əvvəlcə onun sağ ayağını nəzərdən keçirdi. Sonra onu yerə qoyub diqqətlə sol ayağına əl gəzdirdi. Hamı nəticəni gözləyirdi. Süsən arvad başını qaldırıb səbirsizliklə gözləyən Şölə xanıma dedi:

– Narahat olma, qızım, sınığı yoxdu. Anan namaz üstə imiş. Sol ayağı topuqdan çıxıb, onu salmaq lazımdır.

Süsən arvad da Süsən arvad idi ha. Kənddə heç bir sınıqçı onunla bəhsləşə bilməzdi. Əlli illik iş təcrübəsində bir dəfə də olsun diaqnozu səhv çıxmamışdı.

– İsti-isti salmasaq, yerinə qan dolar, sonra uşaq əziyyət çəkər, – dedi.

Şölə xanım etiraz etmədi. Yara təzə olduğu üçün topuq çox şişməmişdi. Süsən arvad ayağı ovuşdurmaq üçün nə keçi piyi istədi, nə də ki kərə yağı. Yaxınlıqdakı cavanlar Allahverdini tutub tərpənməyə qoymadı. Süsən arvad elə birinci həmlədə topuqdan çıxan ayağı yerinə saldı. Hamı sevindi. Allahverdini evə gətirib yatağa uzatdılar. Süsən arvad çıxan ayağı yun yaylıqla bağladı və tapşırdı ki, iki-üç gün onu yerə toxundurub, zora salmasınlar.

Qonşular dağılışdılar. Nənəsi Allahverdinin yanından kənara çəkilmir, anası isə ev işlərini görürdü. Çox çəkmədi ki, Yaqub bəy də gəlib çıxdı. Maşını birbaş həyətə sürdüyündən heç nədən xəbəri yox idi. Hadisəni yoldaşı Şölə xanım qapıda qısa şəkildə ona danışdı. Yaqub bəy hirsindən içəri keçib hətta uşağa belə baş çəkmədi. Aynabənddə xörəyini yeyib çayını içdi. Pəncərə qabağında qoyulmuş divanda yatıb səhər ordan da işə getdi. Nənəsi Allahverdinin zırıltısını kəsə bildi. Səhər açılanda qonşuları Qəzənfəri çağırıb dəsmala düyünlədiyi pulu ona verdi, dedi ki, mənim adım olmasın, buna İsmayıldan bir velosiped al gətir. O da alıb gətirdi.

Allahverdi yataqdan qalxa bilməsə də, kefi kök idi. Velosiped otağın küncündə, gözünün qabağında parpar yanırdı.

Yaqubun anasına bir söz deməyə üzü gəlmədi. Allahverdinin tərbiyəsi düzəlmək əvəzinə getdikcə daha da korlanırdı. Bu hadisədən xeyli vaxt keçmişdi. Bir gün Yaqub bəy işdən evə gələndə gördü ki, həyəti adamlarla doludu. Ağlaşma səsi gəlmirdi. Fikirləşdi ki, yəqin atasının vəziyyəti yenə də ağırlaşıb. Lakin yaxınlaşanda başqa bir mənzərənin şahidi oldu. Allahverdi yaşadıqları hündür binanın damına çıxıb "özümü atacam!" deyə bağırırdı. Bu vəziyyəti görüb başını bulayan kim, uşağa dil tökən kim, Şölə xanıma ürək-dirək verən kim – aləm qarışmışdı bir-birinə. Yaqub bəy binaya yaxınlaşıb aşağıdan oğluna səsləndi:

– Dədə, düş aşağı, konsert vermə! Elə etmə ki, özüm ora qalxım!

– Gəlsən, nənəm canı, özümü atacam. Əgər istəyirsiniz ki, atmayım, mənə maşın alın...

Yaqub bəy camaatın əhatəsində halsız vəziyyətdə uzanıb ürəyini tutan anasına yaxınlaşdı:

– Ana, bu oğlan başımıza hələ çox oyunlar açacaq. Bunun da günahı səndədi. Ürəyini tutmaqdansa, dur get, nəvəni tut, – deyib əsəbi halda oradan uzaqlaşdı.

Gülsüm arvad peşman-peşman ayağa qalxıb nəvəsinə tərəf yeriməyə başladı. İki-üç addım atmışdı ki, nəfəsi qəflətən daraldı, başı gicəlləndi. Özünü saxlaya

bilməyib arxası üstə beton örtüklü döşəməyə sərildi. Əvvəl ortaya səssizlik çökdü, sonra qonşuların hay-həşiri aləmi başına götürdü.

Allahverdi özünü yetirsə də, nədənsə qabağa gəlmədi. Huşsuz vəziyyətdə uzanmış nənəsini kənardan seyr etməyə başladı.

Qatarda

Səmədin kupeyə girib salam verməsi ilə qatarın fit verib yerindən tərpənməsi bir oldu. Səliqəli geyinmiş mavi gözlü, yaraşıqlı, boyasız kupe yoldaşı bayırdan ona əl edən qıza eyni qayda ilə cavab verirdi. Bu mənzərə bir-iki dəqiqə davam etdi. Qatar yavaş-yavaş sürətini artırırdı. Səməd yol yoldaşı ilə tanış olub söhbət etmək üçün sözə başladı:

– Yəqin, rəfiqəndi?

– Yoox, bacımdı.

– Qəşəng qızdı.

– Olmaya xoşun gəldi?

– Gəldi də sözdü?!

– Birdən vurularsan ha, – qız soruşdu.

– Nədən olmasın, subay oğlanam, – deyə Səməd cavab verdi.

– Ay dayı, o ərdədir ey. İki uşağı var.

– Dayı? Dayı nədir? Sən ki mənnən qocasan...

– Pah, yox bir. 22 yaşım hələ tamam olmayıb.

– Mənim də 24 yaşım var. Adım Səməddir.

– Gördün, sən mənnən qocasan? – Oğlana əlini uzatdı. – Gülər.

– Qəşəng addır. Bu adı sənə kim verib? – Səməd soruşdu.

– Nənəm. Yəqin, anadan gülə-gülə doğulmuşam, ona görə. – Gülür. – Sənin də adın qəşəng və yaddaqalandır.

– Nəyə görə?

– Səməd Vurğuna görə. – Gülüşürlər.

Daha kupeyə gələn olmur. Araya sükut çökür. Qız Səmədin xoşuna gəlir: "Necə də qəşəng, mehriban qızdı. Görəsən, kimdi, nəçidi? Gecə vaxtı yola niyə tək çıxıb?" Onunla ətraflı tanış olmaq istəyir. Könlündə Güləri yaxından tanımaq istəyi baş qaldırır. "İndi hamısını öyrənərəm", – düşüncəsi ilə söhbəti davam etdirməyə başlayır:

– Gülər, sən harda enəcəksən?

– Lap axırda – doğulub boya-başa çatdığım yerdə.

– Deməli, darıxmağa dəyməz. Sənə bir neçə sual verim.

– Buyur.

– Mən heç sizin rayonda olmamışam. Oranın adamları necədi? Əsasən, nə işlə məşğul olurlar?

– Səməd, bizim camaat çox mehriban və qonaqpərvərdi. Hər gələn qonağa süfrə açmağa hazır olan insanlardı. Qaldı iş məsələsinə, başqa yerlərdə necə, bizdə də elə. Hərə bir işlə başını qatır.

– Gülər, sən özün nə iş görürsən?

– Bəs sən nə iş görürsən? – qız soruşur.

– Mən? Müstəntiqəm.

– Mən də tələbəyəm.

– Harda oxuyursan?

– İncəsənət universitetində. Sonuncu kursdayam, bitirirəm. Bəs sən harda işləyirsən? – Gülər soruşur.

– Bu ki lap Məşədi İbadın məsələsinə döndü, – gülüşürlər. – Təyinatımı sizin rayona veriblər, sabahdan işə başlayıram.

– Doğrudan? Nə gözəl!

– Gözəl günün olsun. Görüm, qalmağa bir ev tapa bilirəmmi?

– Bəlkə, bizdə qalasan? – Gülər zarafatla soruşur.

– Siz kirayə ev verirsiniz?

– Yoox, vermirik. Mənzilimiz böyükdür. İstəsən, bir nəfərə yer tapılar. Bir şərtlə, evlənməyəsən ha... – Yenə gülüşürlər.

Gülər sözünə davam edir:

– Səməd, deyirəm, mənimlə bizə getsən, bilirsən nə olar?

– Nə olar?

– Deyərlər ki, görəsən, gicbəsər bu oğlanı hardan tapıb gətirib?

Araya çökən sükutu Səməd pozur:

– Gülər, maşallah, diribaşsan. Heç rayon qızlarına bənzəmirsən.

– Yox, niyə ki? İndi bütün qızlar belədir. Məgər tələbə olub görməmisən?

– Mən tanıdığım qızlar belə deyildi.

– Yoox, yanılırsan. Sadəcə, onlar bilərəkdən özlərini elə aparıblar ki, oğlanların xoşuna gəlsinlər. Evdə qalıb qarımasınlar.

– Doğrudan? Bəs sən özünü niyə elə aparmırsan? Danışırsan, gülürsən, ürəyindən keçənləri gizlətmirsən. Məgər sən ərə getmək istəmirsən?

– Əlbəttə, o da lazımdır. Anam deyib ki, daha vaxtındır. Xoşuna gələn oğlan olsa, əldən buraxma. Ancaq mən, Səməd, rola girmək, başqa cür olmaq istəmirəm. Nəyəmsə, buyam. Məncə, ailə sağlam münasibət əsasında qurulmalıdı. Mənəvi dəyərlər ön planda olmalıdı. Bir-birinin xasiyyətinə bələd olmadan müəyyən maraqlar əsasında qurulan ailələrin ömrü uzun ola bilməz ki. Elə baş alıb gedən boşanmalar, dağılan ailələr də bunun nəticəsidi. Ata-ana qayğısı görmədən böyüyən körpələrin günahı nədir? Bu bəxtiqara uşaqların üzləri niyə gülməməlidi axı? Bəzi valideynlər dünyaya gətirdikləri məxluqu yaşatmaq haqqında niyə fikirləşmirlər? Bütün bunlar böyük bir faciə deyilmi? Məncə, evlilikdən əvvəl insanlar mütləq bir-birini dərindən tanımalıdı.

– Düz buyurursan, Gülər. Sən ağıllı qızsan...

– Doğrudan? Bu sözü birinci dəfədir ki, səndən eşidirəm.

– Gülər, bəs sən axşam qatarı ilə yola çıxmaqdan qorxmadınmı?

– Yox. Nədən qorxacağam ki? Adamyeyən var?

– Birdən söz atsalar, sataşsalar?

– Özünü ədəbli aparsan, yolunu düz getsən, kimin sənlə nə işi? Qaldı ki, bacım yola salıb arxayın getdi. Səhər açılan kimi də, inşallah, evimizdəyəm.

Gülər nə fikirləşdisə, sözünə davam edib dedi:

– Səməd, əslində atam demişdi ki, avtobusla gələrsən... Ancaq maşın adamı atıb-tutur, göz yummağa, mürgü vurmağa qoymur. Gic olursan. Axı qatarda gedəndə nə olur? Daha böyümüşəm, uşaq deyiləm ki. Tezliklə diplomumu da alıram. Bircə qalır işə düzəlmək... Şükür, sənin işlərin yaxşıdı, Səməd.

– Niyə ki?

– Müstəntiq işi yaxşıdı da. Hörmətin, yüksək məvacibin... – Nə fikirləşdisə, birdən üzünü Səmədə çevirdi: – Cənab müstəntiq, səndən bir xahiş etsəm, əməl edərsənmi?

– Gücüm çatsa, əməl edərəm.

– Səməd, səndən artıq dərəcədə xahiş edirəm, işinə vicdanla yanaş. Heç vaxt haqlını qoyub haqsızı müdafiə etmə! Günahı olmayanı türməyə basdırma, nə olar. Məzlumların qarğışı ağır olur, onları günahsız yerə tutdurma, yazıqdılar. Bir də ki, çalış, rüşvət almayasan. Rüşvət almaq hansısa zavallının həbsinə fərman verməkdi.

– Gülər, məsləhətin üçün sağ ol. Mən qəbul imtahanlarını test üsulu ilə vermişəm. Universitetə rüşvətlə girməmişəm ki, indi də rüşvət yığmaqla məşğul olum.

Əlbəttə, çalışacam ki, əlimə haram pul dəyməsin, vicdanımı, qeyrətimi rüşvətə, pula satmayım. Gecələr evimdə rahat uyuyum. İnsanların gözünə dik baxa bilim. Söz verirəm!

– Sağ ol, Səməd. Sən məni sevindirdin. Yoxsa ki, arxasızdı deyə, niyə insanların haqqı tapdanmalı, qəlbi qırılmalı, ömrü məhbəslərdə çürüməlidi? Onsuz da camaatın vəziyyəti yaxşı deyil. İşsizlik, kasıblıq baş alıb gedir. – Bir az durub sonra davam etdi. – Səməd, bax, götürək elə mənim tələbə yoldaşlarımı. Bilirsən, nə gündədilər? Vallah, müsibət çəkirlər. Yenə mən bacımgildə qalıb pis-yaxşı birtəhər ötüşürəm. Çoxunun qalmağa yeri, yaşamağa pulu yox. Harda qalsınlar, nə yesinlər, nə geysinlər, necə dolansınlar? Birinin valideyni yox, birininki işləmir, birininki təqaüdçü... Elə bil uşaqların çoxu universitetə əzab çəkmək üçün qəbul olub. Milli sərvətimiz olan neft bizə hansı xoşbəxtliyi gətirdi ki?! Ölkəmizdəki adamların sayı İstanbul kimi bir şəhərin əhalisindən iki dəfə azdı. Məgər vətəndaşlarımızı işlə təmin etmək bu qədər çətindi? Hökumətimiz hara baxır, nə işlə məşğuldu? Bu korrupsiyadı, nədi, deyəsən, axırımıza çıxacaq bizim...

– Yaxşı, yaxşı. Danışığına fikir ver ha. Elə eləmə ki, sabah şöbəyə çağırıb izahatını alım, – deyə Səməd gülərək söhbətə müdaxilə etdi.

Cavanlar elə şirin-şirin söhbət edirdilər ki, sanki yüz ilin dostları idilər. Bir-birinə suallar verir, cavablandı-

rır, deyib-gülürdülər. Səhərin necə açıldığını belə hiss etmədilər. Bir də gördülər ki, hava işıqlanır.

– Bəs biz yatmayacağıq? Səhər açılır ki... – Gülər soruşdu.

– Nə yatmaq? Daha gecdi, – Səməd dedi, – sərnişinlər yavaş-yavaş qalxır. Mənzil başına çatmaq üzrəyik.

– Səməd, sənin heç səhərə kimi oyaq qaldığın olmuşdumu?

– Yox, yadıma gəlmir, – deyə Səməd cavab verdi.

– Elə mənim də, – Gülər gülümsədi. – Deyirəm, qəribədi e, Səməd, gecənin necə keçdiyini mən heç hiss etmədim. Elə bil qatara indicə minmişdik.

– Doğrudur. – Səməd təsdiq etdi.

– Deyirəm, Səməd, mən gedib evimizdə doyunca yatacam. Bəs sənin yuxusuzluğun necə olacaq?

– Narahat olma, Gülər. Mən yorğun deyiləm ki. Gecəni səhərə qədər istirahət etmişəm. – Gülüşürlər.

Qatar fit verib vağzala daxil olur. Ayrılacaqlarını hiss edib bir-birinə baxırlar. Vaqonda səs-küy çoxalmağa başlayır. Əşyalarını yığışdıran kim, bələdçini səsləyən kim, uşağını çağıran kim... Səməd enməyə hazır vəziyyətdə durub Güləri gözləyir. Qız güzgüdə özünə ani nəzər salıb çantasını çiyninə salır. Əl uzadıb nisbətən böyük çantasını götürəndə Səməd onu qabaqlayır. Birlikdə vaqondan enirlər.

– İcazə ver, səni ötürüm, – Səməd deyir.

– Sağ ol, Səməd, özüm gedərəm. Razı olmaram ki, sən əziyyət çəkəsən... – gülür.

Bu dəfə əlini birinci Səməd uzadır:

– Səməd.

– Gülər. – Gülüşürlər.

– Gülər, telefon nömrəni vermədin.

– Sən heç istəmədin ki?

– Doğrudan?

– Doğrudan.

– Onda, zəhmət olmasa, de, yazım.

– Nömrəmi neynirsən?

– Ay qız, bu dünyanın işlərini bilmək olmaz. Olmadı belə, oldu elə.

– Elə, yəni necə? – Gülər soruşur.

– Yəni... – Səməd duruxdu. – Bəlkə, qismət oldu, daha yaxın dost olduq. Sən bunu istəmirsən?

– Nə bilim, vallah. Biz hələ dünən tanış olmuşuq... Məncə, pis oğlana oxşamırsan.

– Onda nömrəni ver ki, səni tapa bilim.

– İncimə, Səməd, mən nömrə verməyi xoşlamıram.

– Bəs səni necə görüm? Birdən yatmağa yerim olmadı, – gülümsəyir.

– İstəsən, taparsan. Yusif Nəbizadənin qızıyam. Rayonda onu tanımayan yoxdur. Di salamat qal, mən gedim.

– Gülər, sənin lə tanışlığıma çox sevindim.

– Mən də.

– Özündən muğayat ol, Gülər. Biz hələ görüşəcəyik.

Üzlərində xoş təbəssüm bir-birindən ayrılırlar.

Deyəsən, bu, müvəqqəti ayrılığa bənzəyirdi. Səməd yol gedə-gedə dayanmadan beynində təkrar edirdi: "Yusif Nəbizadə, Yusif Nəbizadə..." Bu ad ona tanış gəlirdi. Nə fikirləşdisə, birdən dayandı. Əlini cibinə salıb atasının verdiyi məktubu çıxardı. Gözlərinə inana bilmədi! Tale onu istədiyi ünvana aparırdı.

Darıxan ürəklər

Muradın kefi yox idi. Gecədən xeyli keçsə də, yerində qurcalanır, yuxuya gedə bilmirdi. Dünən dərsdən sonra dostu Fəridin dediyi "Zümrüddən əl çək, yoxsa sənin üçün pis olar!" sözləri qanını bərk qaraltmışdı. Dörd il dostluq edib çörək kəsdiyi tələbə yoldaşından bu sözləri eşitmək ona çox ağır gəlirdi. İş elə gətirmişdi ki, Fəridi qınaya da bilmirdi. Çünki hələ birinci kursda oxuyan vaxtdan Fəridin Zümrüdə eşq elan elədiyini hamı bilirdi. Murad o vaxt sevmək, ailə qurmaq barədə düşünmürdü də. Bütün diqqətini dərslərinə yönəltmişdi. Məqsədi universiteti əla qiymətlərlə başa vurmaq idi. Amma indi, axırıncı kursda oxuduğu bir vaxtda evlənmək haqqında düşünmək də lazım gəlirdi. Valideynləri layiqli bir qız tapmaq üçün onu çox tələsdirirdi.

Murad ata-anasının yeganə övladı idi. Valideynləri onun ailə qurub yeni həyata qədəm qoymasını böyük səbirsizliklə gözləyirdi. Maddi cəhətdən sıxıntıları yox idi. Muradın atası Əzim müəllim iş adamı, anası Nadirə xanım isə həkim idi. Valideynlərinin ürəyindən keçsə

də, Allah Murada nə bir bacı qismət eləmişdi, nə də ki qardaş. Lakin ailədə tək uşaq olmasına baxmayaraq, Muradı ərköyün böyütməmişdilər. Atasının başı iş-gücə qarışsa da, anası Nadirə xanım oğlunun tərbiyəsinə xüsusi fikir vermiş, onu daim nəzarətdə saxlamışdı. Yaşının az olmasına baxmayaraq, Murad hərəkətlərinə fikir verən, özünü harada, necə aparmaq lazım gəldiyini yaxşı bilən bir gənc idi. İndiyə kimi istər məhəllədə, istərsə də universitetdə davranışına görə ona irad tutan olmamışdı. Həqiqətən də tərbiyəsinə söz ola bilməzdi.

…Telefonun zəngli saatı Muradı yuxudan oyatdı. Gec yatdığı üçün gözlərini açmaq istəmirdi. Amma başqa çarə yox idi. Bir az da geciksəydi, anası dalınca gəlib səhər yeməyinə səsləyəcəkdi.

Əl-üzünü yuduqdan sonra gəlib süfrə arxasına keçdi.

– Niyə belə yorğun görünürsən, oğlum? – deyə anası xəbər aldı.

– Narahatçılıq yoxdu, ana. Hər şey yolundadır. Görünür, gec yatmışam, ona görə.

– Niyə, başına dönüm?! Ağrıyıb eləmirsən? – Nadirə xanım tez soruşdu.

Murad anasının narahat olduğunu görüb dedi:

– Yox, heç haram ağrımır. Hərdən olur da... Kefim lap əladı.

Muradı fikir aparmışdı. Bilirdi ki, Fəridlə yenidən qarşılaşmalı olacaq. Düşünürdü, necə etsin ki, dostu ilə münasibətləri korlanmasın, düşmənçiliyə çevril-

məsin. Onsuz da yüz dənə Fərid olsaydı belə, Murad Zümrüddən əl çəkən deyildi. Çünki buna haqqı da çatırdı. Murad tələbə yoldaşları arasında yeganə oğlan idi ki, Zümrüd ən çox onunla ünsiyyətdə olurdu. Murada daim qayğı ilə yanaşır, onun hər sorğu-sualını həvəslə cavablandırırdı. Başqalarından fərqli olaraq bir dəfə də olsun Murada "sən sus!" və yaxud "bunun sənə dəxli yoxdur" – deyə cavab qaytarmamışdı.

Zümrüd ilə Muradın dostluğu, əsasən, ikinci kursdan başlamışdı. Xasiyyətlərindəki uyğun cəhətlərin çoxluğu onların getdikcə bir-birinə daha da yaxınlaşmasına səbəb olmuşdu. Hər ikisi yalana nifrət edən, sözü ilə əməli düz gələn, haqsızlığa dözməyən, səmimi və dürüst gənc idi. Zümrüd rayondan gəlsə də, kənd qızlarına heç bənzəmirdi. Çox gözüaçıq, diribaş və ayıq idi. Özünü necə aparmaq lazım gəldiyini yaxşı bilirdi. Görünür, bu cür tərbiyə almasında müəllim işləyən valideynlərinin də rolu az olmamışdı. Başqa bir səbəb isə oxuduğu bədii kitabların təsiri ola bilərdi. Qruplarında Zümrüddən çox mütaliə edən tələbə yox idi. O, boş vaxtlarını, əsasən, kitab oxumağa sərf edərdi. Hər kitabdan bir nəticə çıxarsaydı, həyatda doğru yol tutmaq üçün Zümrüdə kifayət edərdi.

Murad fikirlərini cilalayıb Fəridə nə deyəcəyini götür-qoy edə-edə gəlib çatdı universitetə. O, auditoriyaya daxil olanda qarşısına birinci çıxan Zümrüd oldu.

– Niyə belə qaşqabaqlısan? Kim səni incidib? – deyə qız soruşdu.

– Hər şey qaydasındadı, Zümrüd. Görünür, bir az yorğunam.

– Yalan demə. Daş daşıyan adama oxşamırsan axı. Əgər xətrinə dəyən varsa, de, ənginə birini vurum, – deyə Zümrüd zarafat etdi.

– Baş üstə, – Murad gülümsədi. – Elə bir şey olsa, mütləq səni köməyə çağıracam.

Fərid arxa cərgədəki oturacaqlardan birində əyləşib sakitcə onlara tamaşa edirdi. Kefi yox idi. Beynində Muradla növbəti görüşünü planlaşdırır, ona nə deyəcəyini götür-qoy edirdi. Artıq Murad bu görüşə hazır idi. O, özünə dost bildiyi Fəridlə dalaşmaq, ədavət aparmaq fikrində deyildi. Necə hərəkət etmək lazım gəldiyini yaxşı bilirdi. Bu işdə aldığı tərbiyə, həyatda qazandığı təcrübə ona yol göstərəcəkdi.

Gözəllikdə Zümrüdün tələbələr arasında tayı-bərabəri yox idi. Allah lazım olan müsbət keyfiyyətlərin heç birini ondan əsirgəməmişdi. Ağlına, zərifliyinə, yaraşığına söz ola bilməzdi. Yeganə qüsuru yeriyən zaman sağ ayağını bir balaca çəkməsi idi.

Zümrüd universitetdə oxuduğu ilk günlərdən oğlanların diqqət mərkəzində olmuşdu. Tələbə yoldaşları Zümrüddə olan mədəni davranışı, mehribanlığı görüb ona eşq elan etməyə başlamışdılar. Əvvəllər Zümrüdə zarafatla söz atan cavanlar indi onun dalınca sürünür,

ürəyini ələ almağa çalışırdılar. Amma nə qədər səy göstərsələr də, heç birinin bu kamallı kənd qızını ələ almağa gücü çatmırdı.

Zümrüd oxuduğu illər ərzində ona qayğı ilə yanaşan hər bir oğlanı diqqətlə izləmiş, saf-çürük etmiş, kiminlə ailə qurub xoşbəxt ola biləcəyini çox düşünmüşdü. Və artıq qərarını da vermişdi. Dərslərə həmişə hazır gələn, oğlanlar arasında öz səliqə-sahmanı ilə seçilən, sözünün sahibi olan, dediyinə həmişə əməl edən, çətin məqamlarda ətrafdakı adamlarla necə davranmaq lazım gəldiyini yaxşı bilən Murad onun ürəyini çoxdan ovlamışdı. Zümrüd Muraddan həmişə sevgi görmüş, onunla necə mehriban rəftar etdiyinin şahidi olmuşdu. Ancaq universitetlə vidalaşmağa az qalmasına baxmayaraq, o hələ də Zümrüdə ürəyini açmamışdı. Bilirdi ki, Murad ağıllı oğlandı, razı olmaz ki, "sevirəm" sözünü ilk dəfə Zümrüd dilə gətirsin. "Bəyəm görmür ki, yalvaranlar, dalımca sürünənlər çoxdu. Bəs fikirləşmir ki, birdən kiməsə "hə" deyərəm" – deyə Zümrüd tez-tez fikrə gedir, Muradın nəyə görə susduğunu heç cür anlaya bilmirdi. Universiteti bitirməyə sayılı günlər qaldığından Zümrüdün narahatlığı getdikcə artırdı.

Zəng çalınan kimi tələbələr dərsdən çıxıb üz tutdular evlərinə. Zümrüd asta-asta yerisə də, Murad onu haqlayıb evlərinə yola salmadı. Qız bir şey anlaya bilmədi. Axı Murad belə deyildi. Fikirləşdi ki, görəsən, nə baş verib. Səhər hiss etmişdi ki, Muradın kefi yaxşı deyil.

Allaha dua edirdi ki, bu kefsizlik onunla bağlı olmasın. Zümrüd Muradın xətrinə dəyməsə də, ürəyinə hər şey gəlirdi. Hiss edirdi ki, ortada nəsə var.

Murad fikirli halda universitetdən çıxdı. Yanılmamışdı. Fərid irigövdəli palıd ağacının altında dayanıb onu gözləyirdi. Qətiyyətli addımlarla ona yaxınlaşıb dedi:

– Yəqin, məni gözləyirsən?

– Yanılmamısan! – Fərid cavab verdi. – Dediyim sözləri unutmamısan?!

– Bilirsən, dost…

– Biz dost-zad deyilik, – Fərid onun sözünü ağzında qoydu, – əgər dost olsaydıq, mənə qarşı elə hərəkət etməzdin.

– Nə etmişəm ki? – Murad soruşdu.

– Ta nə edəcəksən?! Araya girib dostluğumuza xəyanət etmisən! Bundan oyanası varmı?

– Fərid, əzizim, olarmı bir dost kimi və ya qrup yoldaşı kimi əsəbiləşmədən, soyuq başla hər şeyi müzakirə edək? Artıq biz uşaq deyilik axı kimsə başımıza ağıl qoysun. Bu gün-sabah müstəqil həyata başlayacağıq. İkimiz də ziyalı ailəsində böyümüşük. Bizim yaxınlığımız valideynlərimizin də dostluğuna səbəb olub.

– Sözünün canını de! Mən öz sevgimdən keçən deyiləm! Axırıncı sən gəlmisən, sən də getməlisən!

– Elə isə məni dinlə, Fərid. Əgər bilmirsənsə, bil və agah ol. Bəli, mən həqiqətən Zümrüdü sevirəm, özü də

səndən daha çox. Bütün varlığımla! Ancaq bunu hələ də ona deməmişəm. Qorxmuşam ki, "yox" cavabı alaram.

– Doğrudan?! Düz deyirsən? – Fərid təəccübləndi.

– Əlbəttə, doğrudan. Mənim səmimiliyimə şübhə edirsən?

– Yox, etmirəm. Bilirəm ki, sən yalanı sevmirsən.

Araya çökən ani sükutu Fərid pozdu:

– Qağa, elə isə niyə mənə "yox" desin? Fikirləşirdim ki, məni ona pisləyən, gözdən salan sənsən.

– Əgər məni elə tanımısansa, daha sənə sözüm yoxdur. Özün fikirləş, mən səni necə pisləyə bilərəm, Fərid? Adama deməzlərmi, əgər yaxşı oğlan deyilsə, xeyir ola onunla dostluq edirsən, çörək kəsirsən, evlərinə get-gəl edirsən? Mən səni…

– Məni bağışla, Murad. Sənə qarşı düz hərəkət etmədim. Zümrüdə olan məhəbbətim məni lap dəli edib.

– Belə şeylər olur, Fərid. Ancaq hər şeyi ürəyə salmaq da lazım deyil. Həyat davam edir, – deyə Murad bildirdi.

– Deyirsən, Zümrüddən əl çəkim?! – Fərid etiraz etdi. – Axı bu mümkün deyil! Mən onsuz yaşaya bilmərəm.

– Yaşayarsan, dost, yaşayarsan.

– Axı necə?! Mən bu illər ərzində ancaq onun həsrəti ilə yaşamışam! Qovuşacağımız günü səbirsizliklə gözləmişəm, – deyə Fərid ah çəkdi...

– Mənə diqqətlə qulaq as, dost. Gör dediklərim ağlına batır, ya yox? – deyə Murad söhbətə başladı. – Mənim fikrimcə, həyatda xoşbəxt olmaq üçün yalnız bir nəfərin sevməsi və ya sevilməsi kifayət etmir. Səni sevməyən bir qızla necə xoşbəxt ola bilərsən? Mən hələ bu ailədə böyüyəcək uşaqları demirəm. Sən, qadının sevmədiyi bir kişidən dünyaya gətirəcəyi uşaqların xoşbəxt gələcəyinə inanırsanmı? Səni sevməyən bir xanıma "həyat yoldaşı" demək nə dərəcədə doğrudur? Bu, səni ömür boyu narahat etməyəcəkmi?!

Fərid özünü saxlaya bilmədi:

– Əgər Zümrüd sənə "yox" desə, bununla barışarsanmı?

– Əlbəttə, – deyə Murad düşünmədən cavab verdi. – Mən ona sözümü bir dəfə deyəcəyəm. Uşaq deyil ki. Cavabına da hörmətlə yanaşacağam. Əgər ürəyində bir başqası varsa, mən araya niyə girim? Hamı insandır. Hər kəsin sevmək, xoşbəxt olmaq haqqı var. Başqasının qismətini əlindən almaq, məncə, kişilikdən deyil.

Fərid bu sözlərdən sonra elə bil ayıldı:

– Düz deyirsən, qardaş. Yalvar-yapışla ailə qurmaq olmaz. Mən ona sözümü dedim. O da mədəni şəkildə bildirdi ki, bu iş baş tutan deyil. Səbəbini soruşanda dedi ki, incimə, Fərid, mən başqasını sevirəm, – bir az ara verib yenidən davam etdi, – görünür, qismətimdə deyilmiş.

– Narahat olma, qardaş. Ömür hələ qabaqdadır. Nə bilmək olar, bəlkə, ondan da yaxşısına rast gəldin, – deyə Murad dostuna təsəlli vermək istədi.

– Çətin, heç inanmıram!

Dostlar əl sıxaraq ayrıldılar.

Murad bu görüşdən çox məmnun qaldı. Daha nə anası, nə də Zümrüd ona görə narahat olmayacaqdı.

Evə çatanda artıq anası işdən qayıtmışdı.

– Oğlum, indiyə kimi hardasan? Günorta da evə gəlməmisən. Yəqin, acından birtəhər oldun.

– Narahat olma, ana. Kafedə dostlarla nahar eləmişəm.

– Sağ ol, bala, – anası Nadirə xanım dilləndi, – düz eləmisən. Sənə demişəm də, mədəyə vaxtlı-vaxtında qulluq etməyəndə sonra əzabından qurtarmaq olmur.

Nadirə xanım hiss edirdi ki, oğlunun kefi çox kökdü, ancaq səbəbini soruşmağa tələsmirdi. Axşam yeməyini hazırladıqdan sonra iki stəkan çay süzdü: oğluna və özünə. Çayları zaldakı masanın üstünə qoyub Muradı səslədi:

– Oğlum, hardasan, gəl çay içək.

Murad elə susamışdı ki, bu təklif lap ürəyincə oldu. Otağından səsləndi:

– Gəldim, ana. Bu dəqiqə.

Nadirə xanım çay içə-içə oğlunun yaraşığına, boy-buxununa baxır, ürəyi dağa dönürdü. İllər uzunu bu günü gözləmişdi; oğlu nə vaxt böyüyəcək, universiteti

haçan bitirəcək, nə zaman evlənəcək? Oğlunun toyunu görüb arzusuna çatmaq istəyirdi. Fikirləşirdi ki, o günə çox qalmayıb. Üzünü Murada tutub dedi:

– Kefin yaman kökdü, oğlum. Səhər belə deyildin. Olmaya bir xəbər var?

– Var, ana, var! – deyə Murad inamlı şəkildə cavab verdi.

– Bıy, sənə qurban olum! O nə xəbərdi elə?

– Sizə gəlin tapmışam. Razılığınız olan kimi qıza bildirəcəm.

– Başına dönərəm sənin! Atan gələn kimi muştuluqlayacam. Univermaqda qəşəng bir sırğa görmüşəm, aldıracam ona, – Nadirə xanım sevincək dilləndi.

– Bəs mənə nə çatır? – Murad soruşdu.

– Evim-eşiyim qurban olsun sənə. Nə istədin ki, atan sənə almadı? Ürəyindən nə keçsə, deyərsən, – deyə anası cavab verdi.

– Zarafat edirəm, ana, – Murad dedi, – sizin sağlığınız mənə bəsdi. Üstümdə o qədər zəhmətiniz olub ki, ömür boyu borcunuzdan çıxa bilmərəm.

– Elə demə, sənə qurban, – anası dilləndi, – övlad böyütmək hər bir valideynin borcudur. Bizim də xoşbəxtliyimiz sənə bağlı deyilmi?

– Sağ ol, ana! Mən ikinizdən də yerdən-göyə razıyam. Allah niyyətinizi gözünüzdə qoymasın! – deyə Murad cavab verdi.

– Di yaxşı, çox yubatma, dözəmmirəm. Tez de görüm, nə qızdır elə tapmısan? Kimlərdəndi?

– Tanıyırsan onu. Bir dəfə görmüsən, ana.

– Harada, başına dönüm? Yubatma, tez de görüm.

– Ad günümdə sənlə də oynadı e. Hamıdan gözəl, hamıdan incə, hamıdan yaraşıqlı…

– Dayan, dayan! O topalı deyirsən?! Oğlum, sən heç nə danışdığını başa düşürsən?!

"Topal" sözü elə bil paslı bir xəncər kimi sancıldı Muradın ürəyinə. Donub yerində qaldı. Nitqi tutuldu. Ürəyi elə sancdı ki, yerə yıxılacağını zənn etdi. Fikirləşdi ki, ona bir şey olsa, anası narahat olub özünə əl atacaq, hay-həşir qoparacaq. Xoşbəxtlikdən, vəziyyəti yavaş-yavaş düzəlməyə başladı və hər şey yaxşı qurtardı. Nadirə xanım özü də çox pis oldu. Elə bil uşağı elektrik cərəyanı vurmuşdu. Dediyi sözə peşman idi. Oğlunun könlünü almaq istədi:

– Bala, sənin də xətrinə dəydim… Bilirəm, "könül sevən göyçək olar" deyiblər. Görünür, bu illər ərzində bir-birinizə isinişmisiniz. Ancaq bu ailə məsələsi elə bir şeydi ki, gərək yüz ölçüb, bir biçəsən.

Murad danışmaq istəmirdi. Qanı bərk qara idi. Anasına da hörmət xətrinə qulaq asırdı. Nadirə xanım dedi:

– Hamı bilir ki, sənə qız axtarırıq. Biz elçi getməkdən bizə elçi gəlirlər e, xəbərin var? Ailənə də, sənə də yaxşı bələddilər… Simuzər xalanı tanıyırsan da, qaynı qızını məsləhət bilir. Qonşumuz Sevinc müəllimə öz

qohumunu tərifləyir. Əmiqızın Gülər də deyir ki, hara getsəniz, rəfiqəm Leyla kimi qız tapa bilməyəcəksiz. O qızların hamısı da say-seçmə ailələrin uşaqlarıdır. Tərbiyələri, yaraşıqları, diplomları da ki öz yerində. Oğlum, özün fikirləş, bəs adama deməzlərmi ki, elə bunnan yana hay-həşir salmışdınız?! – Nadirə xanım ara vermədən danışırdı. – Oğlum, qızın fiqurası, gözəlliyi səni aldatmasın ha. Allah bilir, hansı dərədən azıb gəlib. Heç ailəsi ilə maraqlandınmı? Öyrənə bildinmi kimlərdəndi? Sayılıb-seçilən qohumları varmı? Ağıllı ol, mənim balam. Sevginin gözü kor olar. Yaxşı-yaxşı fikirləş. Sonrakı peşmançılığın faydası olmaz. Sən ancaq adımıza layiq olan bir qızla ailə qura bilərsən.

Bu vaxt Murad dözə bilməyib dedi:

– Ana, məni o qədər də ağılsız bilmə. Zümrüdlə ətraflı maraqlanmışam. Atası sən arzuladığın kimi nə nazir, nə prokuror, nə də ki deputatdı. Valideynlərinin ikisi də sadə kənd müəllimləridi. Zümrüdün tərbiyəsinə söz ola bilməz. Hər şeydən əvvəl məni valeh edən onun davranışı, ağlı və səmimiyyəti olub. Elə bilirsən, onun istəyəni yoxdu? Məndən də qəşəng, məndən də imkanlı oğlanlar var e. Heç birini yaxına buraxmır. Deyəsən, könlü mənədi.

Nadirə xanım narahatlığını gizlədə bilmir, Murad isə haqlı olduğunu isbatlamaqda israrlı görünürdü.

– Ana, təəssüf ki, sən onu yaxşı tanımırsan. Biləsən, necə kamallı, necə mehriban qızdır. Danışanda dilindən dürr tökülür, baxanda gözlərindən nur yağır. Əgər Zümrüdlə ailə qursam, xoşbəxt olacağıma inanıram. Sən bunu istəmirsənmi? Yoxsa sənə quru şan-şöhrət, adlı-sanlı qohumlar lazımdı?

– Niyə istəmirəm, ay oğul, – deyə Nadirə xanım bir az yumşaldı, – məgər səndən başqa məni həyata bağlayan ikinci bir şey varmı? Məndə günah yoxdur, bala. Özümdən asılı deyil narahat olmağım. Deyirəm, qızın yerişini görüb bizə gülənlər olmasın. Adamın beyninə min fikir gəlir, ay oğul. Heç olmasa ciddi bir xəstəliyi olmayaydı. Gözlənilməz bir faciə ilə qarşılaşsaq, inan ki, bağrım çatlar. Axı mən nəvə görmək istəyirəm!

– Elə danışma, ay ana. Allaha dua edək ki, salamatçılıq olsun. İnşallah, hər şey yaxşı olar, ürəyini sıxma.

– Sənə qurban olum, ay oğul. Sanki bilə-bilə bu başdan özünü oda atırsan.

Murad dedi:

– Narahat olma, ana. Allah qarşısında elə bir günahımız yoxdur ki, qarşımıza pis gəlin çıxsın. Ömrünüzü qeyrətlə, namusla yaşamısınız. Sən də, atam da evimizə haram tikə gətirməmisiniz. Qohumlarla, qonşularla həmişə mehriban olmuşuq. Qapımız evimizə gələnlərin üzünə hər vaxt açıq olub. Odur ki, qəlbini fərəh tut, ürəyini sıxma, ana.

Nadirə xanım nə deyəcəyini bilmirdi. Hiss edirdi ki, oğlunu yolundan döndərmək çətin olacaq. Murad araya çökən sükutu pozub söhbətinə davam etdi:

– Əziz anam, yolumda çəkdiyin əziyyətləri, keçirdiyin yuxusuz gecələri qiymətləndirməsəm, varlığınıza sevinib fəxarət duymasam, verdiyin süd mənə haram olar. Atam bu işə yox deməz. Bəs sən nə deyirsən? İcazə verirsənmi, Zümrüdün ağzını arayım?

Nadirə xanım kiriyib qalmışdı. Nə edəcəyini bilmirdi. Nəhayət, özünü ələ alıb dedi:

– Oğlum, bu dünya çox vəfasızdır. Əvvəl insanlara qucaq açır, sonra da onları torpaq altında öz ağuşuna alır. Mənim yeganə arzum səni həyatda xoşbəxt görməkdi. Əgər bu dünyadan köçəndə səndən nigaran getsəm, bil ki, məzarım od tutub yanar. Bax qorxuram ki, onda ruhum gəlib gecələr səni rahat yatmağa qoymaya. Əgər qızın bir qüsuru olmasaydı, mən nə deyə bilərdim? Qorxuram ki, Zümrüd ana olmağa hazırlaşanda problemlə üzləşək. Yoxsa mən sənə görə hər şeyə göz yummağa hazıram. Dediyim odur, oğlum, gərək elə hərəkət edək ki, aləmi özümüzə güldürməyək. Onsuz da onunla sən yaşayacaqsan, mən yox ki.

Murad səsini çıxarmadan sakitcə dayanmışdı. Anası elə zənn etdi ki, övladı onunla razılaşdığı üçün ağzına su alıb durub. Odur ki, oğlunun fikrini öyrənmək istədi:

– Hə, indi nə deyirsən, mənimlə razısanmı?

Murad anasının üzünə baxmadan dedi:

– Qoy atam gəlsin, evin ağsaqqalıdı, sonra qərar verərik.

Burda söhbət bitdi. Çox keçmədi ki, Əzim müəllim də gəlib çıxdı. Evə çökən ağır ab-havanı o dəqiqə hiss etdi. Ailədə nə baş verdiyini anlamaq istəsə də, bunu öyrənməyə tələsmədi. Şam süfrəsi yığışılandan sonra Əzim müəllim dedi:

– Ailədə nə baş verir? Bəlkə, mənə də deyəsiniz?

– …

– Doxtur, səninləyəm. Bu nə sükutdur evi alıb ağzına? Bilmək olmazmı?!

– …

– Oğlum, deyəsən, anan məndən küsüb. Bəlkə, sən danışasan.

– Ata, mən sənin lə təklikdə söhbət etmək istəyirəm, – Murad dedi.

– Nə deyirəm, oğlum, – üzünü həyat yoldaşına tərəf tutdu, – doxtur, sən çıxırsan, yoxsa biz tərpənək?

Nadirə xanım bir söz demədəm sakitcə durub getdi. Əzim müəllim dedi:

– Oğlum, nə məsələdi? Nə dilxorçuluqdu belə? Mənsiz evi idarə etmək belə çətindi?

– Ata, məsələ çox ciddi, həm də üzücüdü.

– Aha, belə de. Danış görək, qulağım səndədi, – Əzim müəllim xəbər aldı.

– Deməli, belə, ata. Anam həm sənin adından, həm də öz adından məni həmişə tələsdirib ki, qız tapım, məni evləndirəsiniz…

– Oğlum, buna görə narahat olma, deyərəm səni çox yormaz. Anadı da, istəyir toyunu görsün. Elə mən də.

– Ata, sən məni başa düşmədin. Məsələ bunda deyil. Mən neçə illərdir tanıdığım, ağlına, tərbiyəsinə bələd olduğum, məni anlayıb başa düşən bir qıza ürəyimi açmaq istəyirəm.

– Bunun nəyi pisdi ki, oğlum?

– Ata, qız kənddən gəlib. Atası da, anası da müəllimdi. Özünün də davranışına, dürüstlüyünə söz ola bilməz.

– Bəs problem nədədi axı? Məni başa salsana?

– Ata, mən istədiyim qız yeriyəndə ayağını bir az çəkir. Ancaq ağlına, tərbiyəsinə, mədəniyyətinə söz ola bilməz.

– Mən indi hər şeyi başa düşdüm. Deyirəm axı doxtur niyə belə qaşqabaqlıdı, – Əzim müəllim azca fikirləşib sözünə davam etdi, – Murad, sən heç ürəyini sıxma. Mən sənin lə tamamilə razıyam. Sağ ol ki, mənimlə kişi kimi söhbət edib hər şeyi anlatdın. Qaldı doxtura, ona görə narahat olma, atan onu haqqa gətirər.

Bu sözləri eşidən Murad sevincindən bilmədi nə etsin. Atasını qucaqlamaqdan özünü zorla saxladı. Əzim müəllim üzünü qapıya tərəf çevirib həyat yoldaşını səslədi:

– Doxtur, hardasan? Bir bu yana gəl görək.

Qulağı səsdə olan Nadirə xanım özünü həmən yetirdi. Boş stulların birində əyləşib ərinə tərəf baxdı. Əzim müəllim dedi:

– Doxtur, mən səni başa düşə bilmirəm. Oğlumuz evlənib bizi sevindirmək istəyir, sənsə muştuluq almaq əvəzinə qaşqabağını tökmüsən. Nə məsələdi?

– Ayağını dedi? – deyə Nadirə xanım yavaşca soruşdu.

– Əlbəttə, dedi. Məni başa sal görüm, sənə oğlumuzun xoşbəxtliyi lazımdır, yoxsa gəlinimizin yerişi?

Nadirə xanım səsini çıxarmadı. Əzim müəllim sözünə davam edib dedi:

– Arvad, neçə illərdi, bir yerdə yaşayırıq. Şükür Allaha ki, bu vaxta qədər aramızda ciddi bir mübahisə, söz-söhbət olmayıb. Bilirsən niyə? Ona görə ki, birbirimizi sevib evlənmişik. Böyüklərin xeyir-duası ilə ailə qurmuşuq.

Araya ani bir sükut çökdü. Sonra Əzim müəllim ciddi bir görkəm alıb dedi:

– Doxtur, sənə bir sual verəcəyəm. Sən o sualı mütləq cavablandırmalısan. Deyirəm, bəlkə, mən indiyə kimi səni yaxşı tanımamışam. Sən öz cavabınla mənim bütün şübhələrimə son qoymuş olacaqsan. İndi mənə de görüm, sabah mən qəzaya düşüb qollarımı, ayaqlarımı itirsəm, nə edəcəksən? Məni atıb gedəcəksən, yoxsa oğluma sarılıb başıma dolanacaq, gecə-gündüz qulluğumda duracaqsan?!

Nadirə xanım heç nə deməyib susdu. Əzim müəllim əsəbi halda yumruğunu masaya çırpıb bağıraraq dedi:

– Cavab ver, xanım Nadirə!!! Səninləyəm!

Nadirə xanım da, oğlu da tutulmuşdu. Murad danışsaydı, dili söz tutmazdı. Gözləri dolmuşdu. O, atasını indiyə kimi belə qəzəbli görməmişdi. Nadirə xanım özünü ələ alıb oğlunun boynunu qucaqladı. Başını qaldırmadan ərinə dedi:

– Bu nə sözdür danışırsan, a kişi?! Allah heç vaxt bizi sənsiz eləməsin. Bağrımızı qan elədin ki. Mən cəhənnəmə, bu nübarımızın ürəyini sıxmayaydın.

– Özün yaxşı bilirsən, onun qəlbinə dəyən kimdir… Bu söhbətə bir də qayıtmırsan. Bir şeyi yadından çıxarma: heç kim bilmir ki, sabah onun başına nə iş gələcək.

Anası oğlunun üzündən öpüb getdi. Murad da çox gözləmədi, atası ilə sağollaşıb öz otağına çəkildi. Əslində tək qalmaq üçün ayrıldı, yatmaq üçün yox. Çünki gecəni yata bilməsi çətin məsələ idi.

…Zümrüd dərsə hamıdan qabaq gəlmişdi. Muradın dünənki biganəliyi onu üzdüyündən gecəni rahat yata bilməmişdi. Səbirsizliklə sevdiyi oğlanın gəlişini gözləyirdi. Nəhayət, Murad gəlib çıxdı. Yuxusuzluq gözlərinin qızartısından o dəqiqə sezilirdi. Murad gülən gözlərini sevgilisinə tuşlayan kimi Zümrüdün bütün nigarançılığına son qoyuldu. Tənəffüs zamanı söhbətə ilk başlayan Zümrüd oldu.

– Murad, dünən məni niyə yola salmadın? Yolumuz bir deyildi ki?

– Bağışla, Zümrüd, şəhərdə xırda-para işlərim vardı. Yaxşısı budur, de görüm, necəsən? – Murad xəbər aldı.

– Sənin kimi: yorğun, yuxusuz.

– Yuxusuz olduğumu hardan bildin? – Murad təəccüblə soruşdu.

– Qızarmış gözlərin haray çəkib hər şeyi xəbər verdi, – Zümrüd gülümsədi.

Murad söz tapa bilmədi:

– Haqlısan, Zümrüd… Bu gün dərsdən sonra ətraflı söhbət edərik.

Universitetdən çıxıb üz tutdular həmişə getdikləri "Sevinc" kafesinə.

Kafedə adam az idi. Nahar vaxtı arxada qalmışdı. Şam yeməyinə isə hələ vardı. Küncdəki masanın arxasında oturub lal-dinməz bir-birinin üzünə baxırdılar. Sözə birinci başlayan Murad oldu:

– Zümrüd, fikrin nədir, rayona getmək, yoxsa Bakıda qalmaq?

– Bakıda?! Evsiz-eşiksiz mənim buralarda nə işim var, ay Murad? Atam-anam bu dörd ildə nələr çəkib, bir Allah bilir. Yenə rayon yerində birtəhər ötüşmək olur.

Murad gözlənilmədən söhbəti dəyişdi:

– Zümrüd, sən heç ailə qurmaq barədə düşünürsənmi?

– Nəyə görə soruşursan? – deyə Zümrüd suala sualla cavab verdi.

– Deyirəm, yəni könül verdiyin bir oğlan-zad varmı?

– Yox, yoxdu.

– Doğrudan? Bəs sənə necə, aşiq olan biri varmı?

– Var elə bir oğlan, necə ki?

– Sən bir işə bax, mən heç bilmirdim… Onun kim olduğunu bilmək olarmı?

– Əlbəttə, olar. O oğlan illər uzunu mənə qayğı göstərən, hər sevincini mənimlə bölən, dar günümdə, çətin anlarımda həmişə yanımda olan, öz köməyini heç vaxt məndən əsirgəməyən dünyalar qədər sevdiyim birisidi.

Murad çox narahat oldu. Sifəti pörtdü. Canına əsməcə düşdü. Fikirləşdi ki, deyəsən, arzuları puç olur, xoşbəxtlik ondan üz döndərir. Dili topuq vura-vura astaca soruşdu:

– O bəxtəvər kimdi elə? Mən onu tanıyırammı?

– Tanıyırsan, Murad. Özü də lap yaxşı tanıyırsan. O adam mənimlə üz-üzə oturub gözlərimin içinə baxan, amma "səni sevirəm" kəlməsini deməyə cəsarəti çatmayan Murad Camalzadədi.

Murad özünü itirdi. Bilmədi nə etsin. Başını aşağı salsa da, həyəcanını gizlədə bilmədi. Özünü birtəhər toparlayıb dedi:

– Zümrüd, əzizim, bilirsən ki, səni necə çox sevirəm. Düzü, deməyə cürət etmirdim. Qorxurdum, birdən "yox" cavabı alaram, ürəyim buna tab gətirməz.

– Sən bir bunda dilə bax! Bu sözləri hardan öyrənmisən? – deyə Zümrüd zarafatla soruşdu.

– Əzizim, bilirsən ki, mən fağır bir oğlanam. Məni dilə gətirən sənə olan məhəbbətimdi.

– Görürəm, çox fağırsan! Dil-dil ötür, özü də deyir fağıram.

Bir müddət heç biri danışmadı. Sakitcə oturub bir-birinə baxdılar. Araya çökən sükutu Zümrüd pozdu:

– Murad, gecdi, bəlkə, gedək?

– Hara? Mənə cavab vermədin axı. Valideynlərimi sevindirə bilərəmmi?

Zümrüd ciddi görkəm alıb dedi:

– Məni sevdiyinə, mənimlə ailə qurmaqda qərarlı olduğuna əminmisən?

– Əlbəttə, Zümrüd. Məgər sən buna şübhə edirsən? – Murad cavab verdi.

– Elə isə de görüm, bəs niyə indiyə kimi məni üzüntüdən qurtarmırdın? – deyə Zümrüd narazı şəkildə xəbər aldı.

– Axı sənə izah etdim. Əgər "yox" cavabı alsaydım, necə olardım? O universitetə gedib-gələ bilərdimmi? – Murad dedi.

– Bəs qorxmurdun ki, bir başqasına könül verərəm?

– Yox, qorxmurdum. Birincisi, ona görə ki, əgər həqiqətən məni sevirdinsə, bunu etməzdin. İkincisi də, belə bir fikrin olsaydı, mütləq mənimlə məsləhətləşərdin! – deyə Murad cavab verdi.

– Ay çoxbilmiş! Gör bir hara qədər hesablamısan. Doğru deyirsən, məntiqlə elədi.

Kafedən çıxıb söhbət edə-edə düzəldilər yola. Söhbətin şirinliyindən bir saatlıq yolun necə tez gəlib keçdiyinə özləri də məəttəl qaldı. Sabaha qədər ayrılmaq lazım idi. Sağollaşma anında Murad Zümrüdün əlini buraxmadı:

– Mənə bir söz demədin, Zümrüd. Fikirləşirdim ki, cavablarımla qarşında bəraət almışam.

– Düz deyirsən, Murad. Sənin lə razıyam. Ancaq məni tələsdirmə, nə olar. Bu naz satmaq deyil ha. Özün xasiyyətimə bələdsən. Sabah sənə cavab verəcəyəm. Gecəni rahat yata bilərsən…

Sevgilisi ümid verdiyi üçün Murad evlərinə kefi kök gəlmişdi. Fikirləşirdi ki, Zümrüddən inciməyə dəyməz. Axı onun da böyükləri var. Valideynlərinin razılığı, xeyir-duası olmadan o, Murada bir söz deyə bilərdimi? Ən azı anası ilə məsləhətləşməliydi.

Murad mətbəxdə oturub çay içirdi. Nadirə xanım oğlunun başına sığal çəkib dedi:

– Mən nə edirəmsə, yalnız sənə görə edirəm. Təki sən xoşbəxt ol. Mənim başqa bir umacağım yoxdu. Özümdən asılı deyil ki, danışıram da. Dünənki söhbətə görə də məndən incimə.

– Allah eləməsin, ana. Oldu, keçdi. Zümrüd yaxşı qızdı, özün görəcəksən. Ağıllıdı, mehribandı. Onu məndən də çox istəyəcəksən.

– Danışmadınız? Nə deyir? Elçiliyə nə vaxt gedirik? – Nadirə xanım xəbər aldı.

– Darıxma, ana. Sabah Zümrüdlə görüşüb hər şeyi həll edəcəyəm.

Hava işıqlanmağa başlamışdı. Səhərin sayrışan al şəfəqləri pəncərədən Murada əl eləyirdi. Telefonun zəngli saatı hay-küy salmamış Murad gözlərini açmışdı. Yuxudan tez dursa da, özünü gümrah hiss edirdi. Qalxıb əl-üzünü yudu. Bəzi əl-qol hərəkətləri etdi. Sonra səhər yeməyini yeyib dərsə yollandı. Auditoriyaya, demək olar ki, Zümrüdlə eyni vaxtda ayaq basdı. Sanki sözləşib gəlmişdilər. Zümrüdün sifəti açılmış, yanaqları qızarmışdı. Elə bil üzündə ay doğmuşdu. Muradın isə gözləri gülürdü. İkisi də bəxtəvər görünürdü. Dərsin başlamasına hələ yarım saat qalırdı. Otaqda onlardan başqa kimsə yox idi. Murad dedi:

– Zümrüd, uşaqlar gəlməmiş mənə bir söz deyə bilərsənmi? Atamgil sizə getmək istəyir, yəni kənddəki evinizə.

Zümrüd gülümsədi:

– Murad, dərsdən sonra çimərliyə gedə bilərikmi? Mən sənə olan eşqimi Xəzərin qumlu sahilində bəyan etmək istəyirəm.

– Əlbəttə, olar. Burada nə var ki? Səndən cavab almaq üçün dünyanın harasına desən, getməyə hazıram. Təki sənin ürəyincə olsun, – deyə Murad cavab verdi.

Bu bir neçə saat elə ağır gəlib keçdi ki, Muradı lap hövsələdən çıxardı.

…Sevgililər taksini yola salıb dənizin ləpədöyəninə qədər yeridilər. Günorta saat üç olardı. Dəniz çox sakit idi. Suyun temperaturu çimmək üçün yetərli olmasa da, narın ləpələr üstündə əl-qol atan bir neçə adam diqqəti cəlb edirdi. Murad sevgilisinin əllərindən tutub düz gözünün içinə baxdı. Ona elə gəldi ki, Zümrüdün gözləri Xəzərlə müqayisədə daha dərindir. Bir anlıq ürəyindən keçdi ki, eşqdən alışıb-yanan ürəyini söndürmək üçün Zümrüdü bağrına basıb dodaqlarından öpsün. Lakin iradəsini toplayıb bu fikrindən vaz keçdi. Düşündü ki, onsuz da o ana çox qalmayıb. Üzünü sevgilisinə tutub dedi:

– Eşidirəm səni, həyatım. Bu da istədiyin qumlu sahil. İndi ürək sözlərini deyə bilərsənmi?

– Murad, səni çox yormaq istəmirəm. İcazə ver, əvvəlcə dənizə bir baş vurum, sonra sözümü deyərəm. Kim bilir, rayona gedəndən sonra Xəzərlə bir də haçan görüşəcəm.

– Sən nə danışırsan, Zümrüd?! – Murad heyrətini gizlədə bilmədi, – sənə soyuq olar! Çimərlik dövrü başlamayıb axı! Sən o əl-qol atanlara baxma. Onlar vərdiş ediblər. Bəlkə, hələ qışı da buralardadılar.

– Sən qəti narahat olma, Murad. Elə mən də öyrəncəliyəm. Çimərlik paltarını geyinib gəlmişəm. Soyuqdan heç bir qorxum yoxdu. Məgər unutmusan, axı mən dağ kəndində böyümüşəm. Gözlərini yum, soyunum, mən deyəndə açarsan.

Zümrüd təkid etdiyindən Muradın razılaşmaqdan başqa çarəsi qalmadı. O, indiyə kimi sevgilisini çimərlik paltarında görməmişdi. Qorxurdu ki, Zümrüdün ağ bədənini, əsrarəngiz gözəlliyini görüb özündən getsin. Muradı xəyaldan Zümrüdün səsi ayırdı:

– Yaxşı, bəsdi durub maddım-maddım üzümə baxdın, utanıram axı.

Zümrüd qurşağa qədər soyunmuşdu ki, Murad dözməyib gözlərini açdı. Sevgilisinin ağappaq sinəsini, məmədandan boylanan döşlərini görüb az qaldı huşunu itirsin. Zümrüd dedi:

– Ay xatakar, sənə deyən oldumu gözlərini aç?!

Murad sevgilisinin günəş şüaları altında parlayan füsunkar bədəninə baxırdı. "İlahi, gör necə də gözəldi!" – deyə az qaldı fərəhindən qanadlansın. O, Zümrüdün döşlərini şairlərin vəsf etdiyi kimi nə bir cüt almaya bənzətdi, nə də ki nara. Ona elə gəldi ki, Zümrüdün sinəsində sayrışan günəşin bir parçasıdı. O, özünü itirmişdi. Zümrüd sakitcə dayanıb gülümsəyirdi. Murad isə sevgilisinin gözəlliyi qarşısında mat qalmışdı, onun cazibəsindən çıxa bilmirdi. "İlahi, mən necə də xoşbəxtəm!"

Zümrüd dedi:

– Bəsdi baxdın. Üzünü çevir, yoxsa çıxıb gedəcəm.

Murad bir söz deməyib üzünü çevirdi. Və bir neçə dəqiqə keçəndən sonra Zümrüdün məlahətli səsini eşitdi:

– Murad, su soyuq deyil. İstəyirsən, sən də gəl.

Murad yavaşca geri döndü. O, ləpələrin ətəyində qürurla dayanan Zümrüdü görən kimi yerindəcə donub qaldı. Sir-sifəti pörtdü, dünya başına fırlandı. Murad gözlərinə inanmaq istəmirdi. Zümrüdün sağ ayağı dizdən aşağı protez idi. "Deməli, buna görə həmişə şalvar geyinirmiş" – düşündü. Murad özünü itirmişdi, nə edəcəyini bilmirdi. Zümrüdə tərəf baxsa da, gözlərinə anası Nadirə xanımın gah qəzəbli, gah da ki, üzgün sifəti görünürdü.

Zümrüd gülümsəyərək Murada baxmaqda davam edirdi…

Robot 50 KDK 101

Direktor kompüterdəki bir neçə səhifəni nəzərdən keçirib görülən işlərin təfsilatı ilə tanış oldu. Müəssisədə hər şeyin plan üzrə getdiyini görəndə özündə bir rahatlıq tapdı. Sonra iş masasının sağ tərəfindəki aparatın yaşıl düyməsini sıxıb sahə rəisini yanına çağırdı. Çox keçmədi ki, Robot 51 KMS 507 qapını döyüb içəri girdi. Direktor başını qaldırıb yarızarafat-yarıciddi şəkildə soruşdu:

– Rob, bu gün işə gecikmişdin. Bir problem yox idi ki?

– Cənab direktor, ayaqlarımdakı ləngliyi və beynimdəki passivliyi aradan qaldırmaq üçün "Spektr" reabilitasiya mərkəzinə baş vurmalı oldum. Yarım saatın içində sazlayıb yola saldılar. Siz deyən ciddi bir məsələ deyildi. İndi heç bir giley-güzarım yoxdu, – deyə Robot 51 KMS 507 cavab verdi.

– Çox gözəl! Sağlamlığınıza həmişə fikir verin. İşimizin keyfiyyət və səmərəliliyi sizlərdən çox asılıdır, – bir az ara verib davam etdi, – rob, mən bu müəssisəyə gələndə adi bir işçi idim: Robot 49 DKM 102. Yəni

2049-cu ildə yığılıb dünyaya gələn DKM seriyalı, 102 saylı adi robot. Bu gün isə görürsənmi, artıq direktor kürsüsündə əyləşmişəm. Demək istədiyim odur ki, kim öz işinin öhdəsindən layiqincə gəlirsə, diqqətdən yayınmır, əvvəl-axır layiq olduğu qiyməti alır. Sənə tövsiyəm budur ki, özünə qarşı həmişə tələbkar olasan. Əgər düzünü bilmək istəyirsənsə, sənin işgüzarlığın, təşkilatçılıq bacarığın mənim çox xoşuma gəlir. Aydındırmı?

– Bəli, cənab direktor, – deyə Robot 51 KMS 507 bildirdi. – Əlavə bir tapşırığınız varmı?

– Çalışın, işlərimiz axsamasın. Əgər yeni işçi qüvvəsinə ehtiyac olarsa, xəbər edərsiniz, Mərkəzə məlumat verərəm.

– Hələlik buna ehtiyac yoxdur, cənab direktor. Gedə bilərəmmi?

– Yox, rob. Səni buna görə çağırmamışam. Bu gün nahar fasiləsindən sonra işçilərə şad bir xəbərim olacaq. Bütün heyət müşahidə zalına toplansın. Sonrasını orada biləcəksiniz. İndi gedə bilərsən.

– Baş üstə, – deyib Robot 51 KMS 507 otağı tərk etdi.

Direktor növbəti dəfə düyməni sıxıb mədəni işlər üzrə müavini Robot 51 KSD 317-ni yanına çağırdı. O, çox keçmədən içəri girib salam verdi. Direktor robun salamını sualla qarşıladı:

– Necəsən, şair? İşlər necə gedir?

– Hər şey yolundadır, cənab direktor. Bir sıxıntımız yoxdur. – Robot 51 KSD 317 cavab verdi.

– Şair, sənə bir sual verim.

– Buyurun, cənab direktor.

– Deyin görüm, bu şairlik sizdə öncədən mövcud idi, yoxsa sonradan yarandı? Şeirləriniz mənim xoşuma gəlir. Hərdən oxuyuram.

Təşəkkür edirəm, cənab direktor. Xeyr, əvvəllər şairliyim yox idi. Bu, məndə sonralar yaranmağa başladı. Gözəl təbiətimizə, robot və insanlarımıza olan vurğunluğum özümdən asılı olmayaraq beynimin ədəb şöbəsinin sürətli inkişafına səbəb oldu. Artıq özümü şeirsiz, poeziyasız təsəvvür edə bilmirəm, – deyə Robot 51 KSD 317 bildirdi.

Çox gözəl! Demək belə, şair, bu gün nahar fasiləsindən sonra müşahidə zalında möhtəşəm bir yığıncağımız olacaq. Orada sizi mühüm bir xəbərlə tanış edəcəyəm. Yaxşı olar ki, iclasdan sonra incəsənət ustaları kollektivimiz qarşısında bədii proqramla çıxış etsinlər. İnsan ansambllarını da dəvət edərsiniz. Qoy konsert proqramı rəngarəng və maraqlı olsun.

Baş üstə, cənab direktor, – deyib Robot 51 KSD 317 icazə alaraq kabinetdən çıxdı.

Direktor yerindən qalxıb həyətə çıxmaq istəyirdi ki, qapı yenidən döyüldü.

– Buyurun, – deyə direktor səsləndi.

Bu onun sevimli işçisi Robot 50 KDK 101 idi.

– Nə lazımdır, dost? – deyə direktor soruşdu.

– Narahat etdiyim üçün bağışlayın, cənab direktor. Sizdən bir xahişim var, ona görə gəlmişəm, – deyə işçi utana-utana dilləndi.

– Çəkinmə, rob! Biz ki dostuq. Sözünü de.

– Cənab direktor, sizdən üzr istəyirəm… Müəssisədə məndən başqa hamı evlidir... Bəzən çətinliklərlə qarşılaşanda başqalarına ağız açmalı oluram… Mənə də bir qulaq yoldaşı tapılsaydı, pis olmazdı.

– Haqlısan, rob, – direktor fikirləşmədən cavab verdi. – Narahat olma, mən bu işi yoluna qoyaram. Gərək əvvəlcə gələcək həyat yoldaşın üçün müəssisəmizdə bir iş ayarlayaq, sonra. Söz verirəm ki, bu məsələni tezliklə həll edəcəyəm, – bir az ara verib sonra soruşdu: – Hansı sinfə aid olsun?

– Mənimlə eyni kateqoriyadan olsa, kifayətdir. Sinfi önəmli deyil.

– Aydındır. Gedə bilərsən, dost, – deyə direktor gülərək Robot 50 KDK 101-i yola saldı.

***

Müşahidə zalı ağzına qədər işçilərlə dolu idi. Hamı səbirsizliklə direktorun gəlişini gözləyirdi. Robotlar yerini tutan kimi direktor zala daxil olub iri addımlarla tribunaya yaxınlaşdı. Sonra üzünü salondakılara tutub böyük fərəh hissi ilə danışmağa başladı:

– Əziz həmkarlarım! Mərkəzdən aldığım çox mühüm bir məlumatı sizlərin diqqətinə çatdırmaq istəyirəm. Uzun illər apardığımız çalışmalar, elmi tədqiqatlar öz bəhrəsini vermək üzrədir. Məhz sizlərin fədakarlığı, bacarığı sayəsində planetlərarası "Sonsuz səma" peykimiz artıq Qasr planetinə enmək ərəfəsindədir.

Xəbər səslənən kimi "Ura!" sədaları ətrafa yayıldı. İşçilər o dəqiqə direktoru sorğu-suala tutmağa başladı:

– Cənab direktor, deyə bilərsinizmi nəyə görə əvvəlcə biz Qasra uçmalı olduq? Onların Yerə enmək istəyi yoxdurmu?

– Bilirsinizmi, – deyə direktor izah etməyə başladı, – Qasrdakı robotlar bizə müttəfiq kimi baxmırlar. Onlar Yer planetinə "İşgəncə kürəsi" adını veriblər. Buradakı təhlükəsizliyə, əmin-amanlığa inamları çox azdır. Çünki uzun illər Yerdəki insanların kütləvi qırğın və digər silahlarla bir-birini məhv etdiklərinin şahidi olublar. Qasrlılar ilk vaxtlar burada normal həyatın hökm sürdüyünə belə inanmırdılar. Lakin biz, çətinliklə də olsa, onları əmin edə bildik ki, artıq Yer kürəsində hakimiyyət insanların deyil, yüksək intellekt və mədəniyyətə sahib olan robotların əlindədir. Daha Yer üzərində əvvəlki kimi torpaq, dəniz, mülk, sərvət, pul, dil, din davası getmir.

Hörmətli roblar, bilin ki, kosmik inkişafımızın ən yüksək mərhələyə qədəm qoymasında sizlərin müstəsna rolu danılmazdır. Lakin bununla belə, 40 il bundan əvvəl

ilk robotları yaradan o dövrün mütəfəkkir alimlərinin, dərin zəka sahiblərinin əməyini də qiymətləndirməmək olmaz. O insanlar biz robotların ilk nəslini icad edib ərsəyə gətirdikləri üçün alqışa layiqdirlər.

Kim bilir, əgər biz – indiki nəslin robotları olmasaydıq, bu gün təbiətdən, insanlardan – ümumiyyətlə, canlılardan Yer kürəsində bir iz qalacaqdımı? Çətin. Yeni, daha təhlükəli silahların kəşfi və istehsalı uğrunda yarışa girən böyük dövlətlər çoxdan bu gözəl dünyamızı xarabazara çevirib məhv etmişdilər. Biz hakimiyyəti ələ alıb nəsli kəsilməkdə olan insanlara həyat bəxş etdik. Və bununla bəşəriyyət qarşısında özümüzün ən böyük xidmətlərimizdən birini göstərmiş olduq.

– Cənab direktor, zəhmət olmasa deyin, Qasrdakı robotlarla hansı dildə ünsiyyət qururuq?

– Danışıqlar prosesində müəyyən çətinliklər oldu. Biz əvvəllər müxtəlif videogörüntülər və şəkillər göndərməklə özümüzü bir-birimizə tanıdırdıq. Lakin sonralar ortaq dil yaratmağa başladıq. Artıq bu gün minə yaxın sözdən qarşılıqlı şəkildə istifadə edə bilirik.

– Onların bizə oxşarı varmı? – yerdən kimsə səsləndi.

– Bəli, var. Oranın süni zəka sahibləri, demək olar ki, biz robotlarla eyni biçimdədirlər. Lakin insanları Yer kürəsindəki adamlardan nəzərəçarpacaq dərəcədə kiçikdirlər.

– Deyə bilərsinizmi, buradakı insanların da Qasra getməsi mümkün olacaqmı?

– Biz, bildiyiniz kimi, insanların əsrlər öncə bir planetdən başqa planetə necə getdiyini araşdırırıq. İşıq sürətilə hərəkət edən peyklərdə insan orqanizmi yüksək təzyiqə davam gətirə bilmədiyi üçün adamların qitələrarası səfərlərdə iştirak etməsini reallaşdırmaq olduqca çətin bir işdir. Buna baxmayaraq, şübhə etmirəm ki, mükəmməl layihələr üzərində çalışan alimlərimiz bu problemi yaxın gələcəkdə həll edəcəklər. Ancaq o da ola bilər ki, Yerdəki mənəvi mühitin korlanmasından ehtiyat edən Qasr planetinin məsul robotları yad insanların onların ölkəsinə ayaq açmasına izn verməsinlər.

– Cənab direktor, Qasra səfərimiz yolun uzaqlığına görə zamanımızı çox almır ki?

– Düzdür, insan erası dövründə bu gediş-gəliş məsələsi böyük bir problem idi. Lakin indi işıq sürəti ilə hərəkət edən peyklərimizin timsalında vaxt itkisi baxımından ciddi bir problemimiz yoxdur.

Növbəti sual direktorun sevimli işçisi Robot 50 KDK 101-dən gəldi:

– Zəhmət olmasa, deyin, Qasr planeti ilə bağlı sizi düşündürən ən mühüm məqamlar nədən ibarətdir?

– Maraqlı sualdır. Məmnuniyyətlə öz fikirlərimi sizinlə bölüşüm. Deməli, bayaq dediyim kimi, oranın robotları ilə insanları buradakılara çox bənzəyirlər. Bu, onu deməyə əsas verir ki, insanlar vaxtilə eyni planetdə yaşayıblar. Məni ən çox düşündürən məsələlərdən biri budur ki, qədim sivilizasiyalar dövrü insanların pla-

netlərarası ilk köçü haradan başlayıb: Yerdən Qasra, yoxsa əksinə. Bu hələlik bizim üçün sirr olaraq qalır. Məni düşündürən ikinci maraqlı cəhət ondan ibarətdir ki, görəsən, onlar da bizim kimi canlılara təsir etməyən şüasız atom enerjisi kəşf edə biliblərmi? Oradakı əsas enerji mənbəyinin günəş batareyaları, yoxsa atom ampulaları olması haqqında məlumata malik deyilik. Nə bilmək olar, bəlkə, bizə məlum olmayan tamamilə yeni bir enerji növü əldə ediblər.

Qasr planetinə məxsus qitələrarası peyklərin hərəkət trayektoriyaları, uçuş sürəti, onlardakı reaktorların hansı gücə malik olması haqqında da bilgimiz yoxdur.

Doğrusu, bu məsələlər məni çox düşündürür. Qaldı ki, Qasr planeti barədə informasiya şəbəkələrində yayılan bəzi fikir və mülahizələrə, bütün bunlar alimlərimizin şəxsi düşüncələrindən başqa bir şey deyil. Məncə, yaxın gələcəkdə bu və digər suallara ətraflı cavab veriləcəkdir.

Hörmətli həmkarlarım, bir şeyə əmin ola bilərsiz ki, biz möhtəşəm ixtiralarla adımızı Yer kürəsi tarixinə əbədilik həkk edə biləcəyik.

Bu sözləri eşidən kimi robotların "Ura!" səsləri yenidən ətrafa yayıldı.

– Hörmətli həmkarlarım və dostlarım, – deyə direktor çıxışına davam etdi, – bir azdan peykimiz Qasr planetinə enəcək. Yer kürəsindəki əksər robot və insanlar canlı yayımda Qasrdakı robotlarımızın səsini

dinləyəcəklər. Bu, dünya tarixində indiyə qədər misli-bərabəri görünməmiş bir hadisə olacaq. Ümidvaram ki, Qasr planetinə enişimiz müvəffəqiyyətlə başa çatacaq. İndi bütün müəssisələrdə, idarə və təşkilatlarda, evlərdə hamı monitorların qarşısında oturub diqqətlə xəbərləri izləyir.

***

Konsert proqramı heç kimin yadına düşmürdü. Hamı Qalaktikadan gələsi yeni xəbəri gözləyirdi.

Çox keçmədi ki, səliqə ilə geyinmiş bayram əhval-ruhiyyəli bir rob ekranda göründü. Bu, Mərkəzi Məlumat Bürosunun mətbuat katibi Robot 50 SMK 172 idi. Bütün diqqətlər ona yönəlmişdi.

– Əziz həmvətənlərim! Yer planetinin robot və insanları! Sizin hamınızı təbrik edirəm! "Sonsuz səma" peykimiz böyük uğurla Qasr planetinə eniş etmişdir!

Bu xəbəri eşidən kimi robot və insanlar qışqırmağa, fərəhdən uşaq kimi atılıb-düşməyə başladılar. Hamı qucaqlaşaraq bir-birini təbrik edir, sevincini ətrafdakılarla bölüşürdü.

Bu uğurlu səfərdən sonra elə bil Yer kürəsinin qulaqları "Sonsuz səma" peykindən gələn dalğalara köklənmişdi. Demək olar ki, hamı Qasr planetindən gözlənilən yeni xəbərlərin sorağı ilə nəfəs alırdı. Artıq bilirdilər ki, Yerdən gedən nümayəndə heyətini Qasrda çox böyük coşqu və mehribanlıqla qarşılayıblar. Ünsiy-

yət məsələsində isə ciddi bır problem yaranmayıb. Tərəflər bir-birini bəzi sözlər və telepatiya vasitəsilə anlaya biliblər.

Qasr planeti haqqında ümumi təəssürat yaransın deyə, Yerdən gedən qonaqları müxtəlif təcrübə sahələrinə aparıblar. Qasrdakı zavod və müəssisələrlə tanışlıq Yer robotlarının böyük marağına səbəb olub. Başqa diqqətçəkən məqamlar da ortaya çıxıb. Məlum olub ki, qanunların yazılmasında və təsdiqində oradakı insanların heç bir rolu yoxdur. Nəzarət mexanizmi və səlahiyyətlər bütünlüklə robotların əlindədir. Aydın olub ki, Qasrda yaşayan insanlar yaltaqlığın, ikiüzlülüyün, dələduzluğun nə olduğunu bilmirlər. Onların rüşvət və korrupsiya barədə anlayışı belə yoxdur. Oranın adamları çox mehribandır. Xoşbəxt və firavan bir ömür yaşayırlar.

Planetlərarası ilk görüşdə əldə edilən ən mühüm razılaşmalardan biri ondan ibarət olub ki, tərəflər elm və texnologiya sahəsində səylərini birləşdirmək haqqında qərar qəbul ediblər. Bundan başqa Qasr nümayəndə heyətinin başçısı söz verib ki, başqa planetlərdən təhlükə gözlənildiyi halda onlar bu barədə Yer kürəsini anında xəbərdar edəcəklər.

Qasr nümayəndələri qeyd ediblər ki, çox zəngin bir planetə sahibdirlər və Yer kürəsini qiymətli metallarla davamlı şəkildə təchiz edə bilərlər. Deməli, elə ilk görüşdəcə Yer planeti özünün əlvan metallara olan tələbatını ödəmək imkanı əldə edib.

Artıq son bir həftə ərzində "Sonsuz səma" peykindən gələn məlumatlar əsasında Yerdə Qasr planetindəki insanlar haqqında xeyli rəy formalaşmışdı. Məlum olmuşdu ki, Yer planetindən fərqli olaraq, oradakı insanlar yalnız öz bilik və bacarığına güvənməklə yüksək vəzifə tuta bilərlər. Lazımi savadı və peşəkarlığı olmayan işçi daha yaxşı vəzifəyə keçmək üçün daim çalışmalı, öz üzərində işləməli və səviyyəsini artırmalıdır. Yer kürəsindən fərqli olaraq, Qasrda rüşvətxor, simasız müdirlərə təsadüf olunmur. Savadsız, səriştəsiz, mürgülü məmurlar ordusu olmadığı üçün cəmiyyətin inkişafına və xalqın rifah halına ağır zərbələr vura biləcək halların təşəkkül tapması mümkün deyil. Varlanmaq ehtirası və paxıllıq hissi deyilən bir şey yoxdur. Oradakı insanlar qızıla, daş-qaşa, sərvətə əhəmiyyət vermədiyi üçün məvaciblərini sağlam yaşamlarına sərf etməklə xoşbəxt həyat sürürlər.

Aydın olub ki, Qasrda elm və texnologiyanın inkişafı Yerdən olduqca üstündür. Ancaq bu, o anlama gəlməyə əsas vermir, deyilsin ki, əsrlər öncə ilkin olaraq insanlar Qasr planetindən Yerə eniblər. İzah olunur ki, belə bir mülahizə ilə çıxış etmək hələ tezdir. Yalnız gələcək elmi araşdırmalardan sonra bu suala dolğun cavab vermək mümkün olacaq.

Qasrdan alınan məlumatlardan aydın oldu ki, orada yaşayan insanlar arasında siqaret çəkənlərə az təsadüf

olunur. Bu cür adamlar cəmiyyət arasında nüfuz sahibi sayılmır. Onlara ruhi xəstə kimi baxanlar da var.

İçki aludəçiləri və alkoqola meylli adamların yaşaması üçün xüsusi qəsəbələr salınıb ki, onlar da barmaqla sayılacaq qədər azdır. Bununla belə, həmin qəsəbələrdə spirtli içkilər azad şəkildə satılmır. Bunun üçün ayıltma məntəqələri olan xüsusi restoranlara getmək lazım gəlir. Qanuna əməl etməyən vətəndaşlar qəsəbədən kənara çıxmaq hüququndan məhrum edilirlər. Təkrar qanun pozuntusu olarsa, məhkumluq qaçılmazdır. Cəzanın müddəti və ağırlıq dərəcəsi "Spirtli içki haqqında qanun"la tənzimlənir.

***

Bir həftə sonra Qasr planetinə gedən "Sonsuz səma" peyki onun üçün doğma olan Yer kürəsinə qayıtdı. Oradakı görüşlər, kosmik fəza ilə bağlı qarşıda duran vəzifələr haqqında televiziya və radiolarda geniş müzakirələr getməyə başladı. Bildirildi ki, Qasr planeti nümayəndələrinin qonaqlardan yeganə xahişi ondan ibarət olub ki, Yerdəki mənəviyyatsızlığa son qoymaq üçün insanların müalicəsi üzərində ciddi işlər aparılsın. Onların sağalıb insan kimi yaşaması üçün xüsusi tədbirlər həyata keçirilsin.

Növbəti mühüm hadisə Qasr nümayəndə heyətinin Yerə səfər etməsi olacaqdı. Yer planetinin sakinləri səbirsizliklə onların gəlişini gözləyirdi.

***

İş vaxtı sona yaxınlaşırdı. "Reaktor" müəssisəsində hər robot öz işi ilə məşğul idi. Direktor masanın üstündəki aparatın düyməsini sıxıb Robot 50 KDK 101-i yanına çağırdı. Çox keçmədi ki, Robot 50 KDK 101 qapını döyüb içəri girdi.

– Necəsən, dost? – deyə direktor soruşdu.

– Yaxşıyam, cənab direktor. Siz yaxşı olun.

– Rob, səni təbrik edirəm!

– Nə münasibətlə? – deyə robot 50 KDK 101 təəccüblə xəbər aldı.

– Məgər yadından çıxıb? – direktor dedi, – axı sənə söz vermişdim. Sabah saat 10-da hava limanına gedib həyat yoldaşını qarşılaya bilərsən. Onun adı Robot 54 KEU 182-dir .

Robot 50 KDK 101 təşəkkürünü bildirib sevincək halda otaqdan çıxdı.

Povest

Naməlum adam

Açıq pəncərədən baharın tər havası dəyirdi üzünə. Gözlərini aydın səmaya zilləyib özünü unutmuşdu. Ağ, yaşıl, qırmızımtıl həbləri ovcunda tutub bərk-bərk sıxmışdı. Həyatın təzadlarını, bəlkə də, ilk dəfə idi ki, belə dərindən hiss edirdi. Qarşısında əlvan rənglərə bürünən təbiətin dolğunluğu, xatirələrində ölümün sovurduğu boz sonsuzluq vardı. Son vaxtlar nə edəcəyini bilmirdi Dilbər xanım. Fikri özündə deyildi. Ömür-gün yoldaşı Aydın müəllimin qəfil ölümü onu ağır duruma salmışdı. Qəlbində dərin bir boşluq, tənhalıq və kimsəsizlik hiss edirdi. Bütün günü həyət-bacada dolanır, bir yerdə qərar tuta bilmirdi. Ərinin qırx mərasimindən sonra oğlu Amillə qızı Esmira də onunla sağollaşıb öz evlərinə getmişdi. Oğlu nə qədər təkid etsə də, anası onun yanına köçmək istəməmiş, öz evində – ərinin dəfn olunduğu doğma şəhərdə qalıb yaşamağa üstünlük vermişdi. Xidmətçi, aşpaz və başqa işçilər yanında olsa da, Dilbər xanım özünü tənha hiss edirdi. Çəkdiyi əzabları üzündən oxumaq çətin deyildi. Ərinin ölümünə inana bilmir, onsuz necə yaşayacağını

təsəvvür belə etmirdi. Bir atalar sözü tez-tez yadına düşürdü: "Sən saydığını say, gör fələk nə sayır".

Artıq iyun ayı gəlmişdi, ancaq yayın istisindən əsər-əlamət görünmürdü. Havalar xoş keçdiyindən şəhərdə işləyənlərin çoxu bağ evinə köçməyə həvəs göstərmirdi.

Dilbər xanımın yaşı çox olmasa da, ərinin vəfatından sonra elə sarsılmışdı ki, tanımayanlar onun yetmiş yaşlı nurani bir qadın olduğunu zənn edərdilər. Günlərini, əsasən, həyətindəki bağda keçirirdi. Ağacların arasında gəzişir, çiçəkləri oxşayır, təbiəti seyr edirdi. Gül kollarının çoxu rəhmətlik ərinin sifarişi ilə gətirilib əkilmişdi. Hər baxdığı ağac, oxşadığı çiçək ona ərini xatırladırdı. Onların əkildiyi vaxtı, həmin vaxt olan söhbətlərini yada salırdı. Gündüzlər həyətdə gəzib dolanmaqdan yorulan qadın axşamlar evə keçəndə dünyadan ayrılıb dörd divar arasında yenə də öz xatirələrinə qapanıb qalırdı.

Yaşadığı evə gəlin köçdüyü vaxtları xatırladı. Onda qayınatası ilə qayınanası sağ idi. Bu gün isə onlarla birlikdə həyat yoldaşını da itirmişdi. "Ay gidi dünya, səndən hər şey gözləmək olarmış!" – deyə ah çəkdi. Həyət də, bağ da, ev də yerindəydi, ancaq ailənin üç sütunu artıq dünyadan köçmüşdü.

Subay vaxtları Aydın müəllimə qız bəyəndirə bilmirdilər. Anası ilə şərt kəsmişdi ki, əgər ona tükü tükdən seçən, hər şeyin yerini bilən, ağıllı bir qız tapsa-

lar, evlənəcək, tapmasalar yox. Axırda iş elə gətirmişdi ki, adları sadalanan qızlar içərisində bacısının təklif etdiyi Dilbər xanımla ailə qurmağa razılıq vermişdi. Dilbər xanım sayılıb-seçilən, hörmətli bir nəslin qızı idi. Elə ilk günlərdən yeni gəldiyi ailəyə isinişmiş, hamının hörmətini qazana bilmişdi. Taleyindən də çox razı idi. Lakin ərinin gözlənilməz ölümü onu tamam sarsıtmış, gələcəklə bağlı bütün planlarını alt-üst etmişdi. Bundan sonrakı ömrünü Aydın müəllimsiz necə yaşayacağını təsəvvür edə bilmirdi. Bu vaxta qədər aralarında heç bir inciklik, söz-söhbət olmamışdı. Həmişə mehriban və xoşbəxt ömür sürmüşdülər. "Görünür, gözə gəldik", deyə Dilbər xanım hərdən fikrə dalardı. İndi xadimə, aşpaz, gözətçi və bağbandan başqa ətrafında kimsə yox idi. Onlar Dilbər xanım üçün böyük təsəlli idilər. Dilbər xanım gəlin köçən gündən onların hamısını bu evdə görmüşdü. Münasibətlər olduqca isti idi. Dilbər xanım onlarla işçi kimi deyil, ailənin üzvü kimi rəftar edərdi. Hamısı da xoş xasiyyətli, səmimi insanlar idi. Öz işlərinə məsuliyyətlə yanaşan vicdanlı adamlardı. Elə bil seçilib bu evə yığılmışdılar.

Oğlu Amil ali təhsilini başa vurandan sonra elə oxuduğu şəhərdə də qalıb işləmək qərarına gəlmişdi. Görünür, seçimində yanılmamışdı. Belə ki, öz bilik və bacarığı sayəsində adi bir işçidən şəhər meri vəzifəsinə qədər yüksələ bilmişdi. İşgüzarlığı, insanlarla dil tapmaq bacarığı, səmimi və dürüst olması Amil müəllimi xalqın

sevimlisinə çevirmişdi. O, tez-tez şəhər gəzintisinə çıxar, insanlarla söhbət edər, onların istək və arzuları ilə maraqlanardı. Qarşıya çıxan problemlərin tez bir zamanda aradan qalxması üçün əlindən gələni edərdi. Amil müəllim anasına tez-tez baş çəkə bilmədiyi üçün onunla, əsasən, telefon vasitəsilə əlaqə saxlamalı olurdu. Qızı Esmira xanım həyat yoldaşının xasiyyətinə bələd olduğu üçün anasıgilə tez-tez getməzdi. Ancaq, insafən, qayınatasının vəfatından sonra Nadir bəy özü Esmira xanıma demişdi ki, kişinin qırx mərasiminə qədər anasının yanında qalıb ona həyan olsun. Esmira Dilbər xanımın yeganə qız övladı olsa da, anası onu ərköyün böyütməmişdi. Evdə xidmətçi ola-ola, ona həmişə iş buyurmuş, öyüd verib demişdi ki, gərək qız uşağı zirəng olsun. Yoxsa gedib ər evində baş çıxara bilməz. Doğrudan da, artıq Esmira xanım öz evinin sahibi idi. O, öz işgüzarlığı, səliqə-sahmanı, mehribanlığı ilə düşdüyü ailənin sevimlisinə çevrilmişdi. Qayınanası, qayınatası, hətta baldızı da onu çox sevirdi. Bir oğul övladı dünyaya gətirəndən sonra da Esmira xanımın xasiyyəti dəyişilmədi. O, əvvəlki kimi, yenə də hər işə əl atır, öz köməyini ailədən əsirgəmirdi. Ona olan hörmət azalmır, əksinə getdikcə artırdı.

...Otaqda üç nəfər idilər: aşpaz vəzifəsini yerinə yetirən Gülçöhrə xala, xadimə işləyən Simuzər arvad və Dilbər xanım. Evin biş-düş işinə baxan Gülçöhrə xalanın yaşı çox olsa da, cavan görünürdü. Yanaqları-

nın gənclikdəki təravəti hələ getməmişdi. Səliqəsinə, bacarığına söz ola bilməzdi. Onun bişirdiyi dadlı yeməklərdən indiyə kimi narazı qalan olmamışdı. Əvvəllər bazarlıq işinə Aydın müəllim özü baxardı. O, rəhmətə gedəndən sonra bu işi evin sürücüsü Vəkil yerinə yetirməyə başladı. Amma qırx mərasimindən sonra sürücü, Dilbər xanımdan üzr istəyib işdən çıxdı və Aydın müəllimdən sonra bir daha o maşına oturmayacağını bildirdi. Odur ki, bazarlıq işini hər dəfə bir adam yerinə yetirməli olurdu. Dilbər xanım bişirilən dadlı şam yeməyi üçün aşpaza təşəkkürünü bildirdi, sonra isə süfrəni yığışdırmağı xahiş etdi. Aşpazla birlikdə Simuzər arvad da əl-ayaq edib stolu qaydaya saldı.

Bu evdə işçilərdən Dilbər xanıma ən yaxın olanı xadimə işləyən Simuzər arvad hesab olunurdu. Çünki başqalarından fərqli olaraq Dilbər xanım çox vaxt onunla ünsiyyətdə olur, tapşırıqlarını ona verirdi. Simuzər arvad ziyalı ailəsində dünyaya göz açmışdı. Dünyagörüşünə və davranışına görə o biri işçilərdən fərqlənirdi. Onun maaşı da başqa işçilərinkindən yüksək idi. O, Dilbər xanımın təkcə işçisi deyil, həm də sirdaşı idi. Dilbər xanım darıxanda çox vaxt dərdini onunla bölüşərdi. Söhbətləri tuturdu. Simuzər arvad çox diqqətcil və ayıq adam idi, xanımın nə istədiyini az qala baxışlarından duyurdu. Başqalarından fərqli olaraq Simuzər arvad gecələri Dilbər xanımın yanında

qalar, öz evlərinə az-az gedərdi. Söhbət edəndə çox aramla danışırdı. Fikirlərini səlis ifadə etməyi bacarırdı.

Dilbər xanım çayını içib qurtarandan sonra balkona çıxıb asta səslə xadiməyə dedi:

– Gedə bilərsiniz.

Xadimə:

– Xanım, nahar yeməyi üçün nəsə hazırlatdırımmı?

– Elə bir sifarişim yoxdu. Sağ olun.

Xadimə sözünə davam edib dedi:

– Xanım, yatağınızı hazırlamışam. Pəncərənin bir gözü açıqdı. Məsləhətdisə, bağlayım.

– Hava xoşdu. Qoy qalsın.

Bir aydan çox idi ki, evə gələnlərin ardı-arası kəsilmirdi. Dilbər xanım çox yorğun görünürdü. Başı yasdan təzə-təzə açılmağa başlayırdı. Adəti üzrə şam yeməyindən əvvəl bir az gəzib təmiz hava almaq üçün evin arxa hissəsində yerləşən, sıx kollarla, ağaclarla əhatə olunmuş bağçaya keçdi. İşçilərinə də tapşırdı ki, gəzinti zamanı kimsə ona yaxınlaşıb narahat etməsin. Bərk yorulmuşdu. Çiyninə nazik bir şal atıb həyət qapısına tərəf getdi. Ayağındakı çəkələyi çıxarıb həmişə gəzintiyə geydiyi zərif dəri üzlüyü olan alçaq dabanlı ayaqqabısını geydi. Sonra həyat yoldaşından, daha doğrusu, qayınatasından yadigar qalan bağa gəzintiyə yollandı. Adəti üzrə bağçaya göstərilən qulluğa, yaradılan səliqə-sahmana diqqət yetirib məmnunluqla başını

tərpətdi. Bağban Cəfər kişi gözə dəymirdi. Hava qaralandan çıxıb getmişdi evlərinə. Ümumiyyətlə, bağbanın qabiliyyətinə söz ola bilməzdi. Bütün günü başını aşağı salıb öz işləri ilə məşğul olar, bağçada gözəllik yaratmaq üçün əldən-ayaqdan gedərdi. Öz peşəsini sevirdi. Bir söz soruşmasaydın, səsini eşidə bilməzdin. Çox qoçaq və zəhmətkeş insan idi. İşləməkdən yorulmazdı. Saatdan xəbəri olmazdı. Səhər tezdən işə gələr, qaranlıq düşəndə çıxıb gedərdi. Öz işindən zövq alan və işini bilən adam idi. Budama və suvarma işlərini vaxtlı-vaxtında aparar, səliqə-sahmana xüsusi fikir verərdi.

Dilbər xanım gəzə-gəzə bağın axırına qədər irəlilədi. Bəzək kolları ilə sıx şəkildə sətirlənən sonuncu sıraya çatanda gözlərinə inanmadı. Təqribən onunla eyni yaşda olan səliqə ilə geyinmiş yaşlı bir kişi sağ çiyninə alma ağacına söykəyib gülümsəyərək ona baxırdı. Kişinin sifəti, mehriban baxışları tanış gəldiyi üçün Dilbər xanım təşviş keçirmədi.

– Siz kimsiniz? Burada nə gəzirsiniz? – deyə soruşdu.

– Narahat olmayın, xanım. Mənim burada olmağım sizin üçün heç bir təhlükə yaratmır. Əksinə…

– Siz bura necə gəldiniz? Kim sizi buraxdı?

– Dilbər xanım, xahiş edirəm, bir az səbirli olun. Mən sizə hamısını danışacam.

– Mənim adımı haradan bilirsiniz? – xanım soruşdu.

– Mən bu şəhərdə olmuram.

– Bəs nə üçün gəlmisiz? Niyə danışmırsız? Gəlişinizin məqsədi nədir?

– Xanım, xahiş edirəm, bir az səbirli olun. Mən kənar adam deyiləm. Sizə hər şeyi anladacam. Ancaq buna zaman lazımdı.

– Elə isə gedək içəri, evdə rahat söhbət edərik.

– Bu, mümkün deyil. Belə etsək, həyatınız üçün böyük təhlükə yarana bilər, – kişi dedi.

– Sizi anlaya bilmədim. Məni ölümlə qorxudursunuz?

– Xeyr, xanım, – kişi cavab verdi, – bizim bir yerdə görünməyimiz ikimizin də həyatına son qoya bilər.

– Axı siz kimsiz?! – deyə xanım səbrini boğa bilmədi.

– Bilirsiz, xanım, söhbət etmək üçün biz burda yox, şəhərdə heç kimin xəbərdar olmadığı bir yerdə, ikilikdə görüşməliyik. Bu sizin yaşamınız, həyatda qalmanız üçün çox önəmlidi.

Dilbər xanım hövsələdən çıxmağa başladı:

– Siz özünüz haqqında mənə heç nə demir, ancaq tələblər irəli sürürsüz. Axı mən tanımadığım adama necə güvənə bilərəm?

– Xanım, görüşməmişdən əvvəl məsələnin mahiyyəti və özüm haqqında sizə məlumat verəcəm. Siz əvvəl razılıq qərarı barədə düşünün. İndi isə mən gedim.

– Yox! Getməyin! Mən sizə qulaq asmaq istəyirəm, sizi dinləmək istəyirəm, – xanım hökmlü şəkildə bildirdi.

– Bağışlayın, Dilbər xanım, biz bir yerdə görünməklə həyatımızın sonunu gətirə bilərik. Vacib olan odur ki, mən sizinlə təklikdə görüşə bildim. Gündüz vaxtı sizə yaxınlaşıb kiminsə gözünə görünə bilməzdim. Unutmayın ki, mənim gəlişim daha çox sizin üçün, ailəniz üçün önəmlidi. Eşidəcəkləriniz barədə susmağınız ilk növbədə sizin üçün lazımdır. Yoxsa hamınızın həyatını təhlükəyə atmış olarsınız. Odur ki, yaxşı-yaxşı düşünün. Bu barədə kimsə – hətta oğlunuzla qızınız da heç nə bilməməlidi.

– Siz mənim uşaqlarımı da tanıyırsınız? – Dilbər xanım heyrətlə soruşdu.

– Narahat olmayın, mən sizə hamısını danışacam. Amma məbadə mənim haqqımda kiməsə deyəsiniz. Ən etibarlı adamınıza belə.

Kişi fikrini tamamlayan kimi çəkilib hündür, sıx kolların arasında görünməz oldu. Dilbər xanım ağır düşüncələr içərisində evə döndü. Yemək yemədi. Yataq otağına keçib uzansa da, gözünə yuxu getmədi. "Bu kişi kimdi? Mən onu tanıyırammı? Mənim həyatıma qəsd etmək kimə lazımdı? Qaranlıqda bizi kim görə bilərdi axı? Belə çıxır ki, işçilərimdən kimsə mənim düşmənimdi, xəbərim yoxdu? Axı onların hamısı illərin sınağından çıxmış çox etibarlı, vəfalı insanlardı. Onlar mənim xidmətçilərim, işçilərim yox, ailə üzvlərimdi. Övladlarım da onları çox istəyir, doğma hesab edirlər.

Dilbər xanım səhərə kimi gah sağa çevrildi, gah da sola. Nə qədər istəsə də, gözünə yuxu getmədi. Dan

yeri sökülən kimi yerindən qalxdı. Əl-üzünü yumaq üçün vanna otağına keçdi. Güzgüyə baxanda gözlərinə inanmadı. İnsan bir gecədə nə qədər dəyişilərmiş?!

Xadimə çox ayıq yatırdı. Xanımın oyandığını duyub içəri girmək üçün qapını döydü.

– Gəlin, – Dilbər xanım səsləndi.

– Sabahınız xeyir olsun, xanım, bu gün nə yaman tez durmusuz? Bir şey lazımdırmı?

– Hə, çay içəcəm.

– Baş üstə, – deyib xadimə çıxdı.

Dilbər xanım yenə fikrə getdi. Səhərə qədər özünə verdiyi suallar cavabsız qalmışdı. Nə edəcəyini bilmirdi. Sanki tikan üstündə oturmuşdu: "Bəlkə, xadimə ilə aşpazı çağırıb başıma gələnləri danışım? Mənim onlardan gizli bir sirrim yoxdu. Qırx ildi bu evin sakinidirlər. Bəlkə, zəng edim, qızım özünü yetirsin? Heyf ki, oğlum uzaqdadı. Onu çağırsaydım, daha yaxşı olardı. Axı mən tanımadığım yad bir adama necə inana bilərəm? Of…

Çox çək-çevirdən sonra Dilbər xanım bu qərara gəldi ki, səhər yeməyini yeyib təmiz havaya çıxsın. Bir az gəzib-dolansın. Evə qayıdıb yuxusunu alandan sonra durub soyuq başla yenidən hər şeyi götür-qoy eləsin.

Yemək vaxtı xadimə soruşdu:

– Xanım, narahat görünürsüz. Üz-gözünüzdən yorğunluq yağır.

– Elədi, – deyə Dilbər xanım cavab verdi, – gecəni rahat yata bilməmişəm. Deyəsən, dünən axşam bağda gəzəndə mənə soyuq oldu.

– Hə, ola bilər, – xadimə dilləndi, – havaların dönən vaxtıdı.

Dilbər xanım gəzə-gəzə dünənki görüş yerinə tərəf yollandı. Bağban onu görən kimi dönüb həyətin qurtaracağındakı kiçik otağına tərəf getdi. Dilbər xanım bağın kənarı ilə gəzir, naməlum kişinin həyətə haradan düşdüyünü bilmək istəyirdi. Ha baxdısa, heç nə anlaya bilmədi. Geri dönüb yavaş-yavaş evə sarı gəldi. Çox narahat idi. Bir az yatıb yorğunluğunu çıxarmaq istəyirdi.

Yuxudan oyananda gün günortaydı. Gecədən xeyli keçənə qədər yata bilmədiyindən sonra nə vaxt yuxuya getmişdi, bilmirdi. Gözlərinin acısını aldığı üçün nisbətən məmnun görünürdü. Qalxıb pəncərəni açdı, təmiz havanı ciyərlərinə çəkdi. Yataq otağından çıxıb zala keçdi. Televizoru işə salıb divanda oturdu. Qulluqçu yaxınlaşıb nahar süfrəsinin hazır olduğunu bildirdi.

– Hələ yemək fikrim yoxdu. İstəyəndə özüm deyəcəm. Mənə çay verin, – Dilbər xanım dedi.

– Baş üstə. Hansı mürəbbədən gətirim? – xadimə soruşdu.

– Mürəbbə istəmirəm. Kəllə qənd verərsiniz.

Dilbər xanımın gözləri televizora zillənsə də, orada nədən söhbət getdiyindən xəbəri yox idi. Fikri-zikri

dünənki kişinin yanında qalmışdı. "Bu adam haradan peyda oldu? Bəs indiyə kimi niyə ortaya çıxmırdı? Görəsən, məqsədi nədi? Ona etibar edə bilərəmmi?"

Çay içə-içə yad kişi ilə bağlı atacağı sonrakı addımları götür-qoy etməyə başladı. "Səbrli olmalıyam. Məncə, bu görüş barədə hələlik kiminləsə söhbət edib məsləhətləşməyə ehtiyac yoxdu. O kişi pis adama oxşamırdı. Söhbətindən səmimiyyət duyulurdu. Əgər mənə qarşı pis bir niyyəti olsaydı, elə həmən gecə həyatıma son qoya bilərdi. Deyəsən, burada bir sirr gizlənir. Hələlik düşüncələrimi başqaları ilə bölüşməsəm, yaxşıdı". Beləcə, öz-özünə danışmaqdan yoruldu.

Ayağa qalxdı. Özündən asılı olmayaraq zalın içərisində var-gəl etməyə başladı. Qarışıq fikirlər, dünənki görüşün həyəcanı ona rahatlıq vermədiyindən bir yerdə qərar tuta bilmirdi. Axşam olmasını, gecənin gəlməsini səbirsizliklə gözləyirdi. Onu rahat buraxmayan suallara cavab almaq istəyirdi. İztirabı, səbirsizliyi hərəkətlərindən aydın sezilirdi. İndi artıq çaba göstərməyin heç bir əhəmiyyəti yox idi. İşçilər indiyə kimi Dilbər xanımı bu qədər narahat və qərarsız görməmişdi. Amma kimsə cürət edib bunun səbəbini ondan soruşa bilmirdi. Dilbər xanımın bu halını ərinin vəfatı ilə bağlayır, ona həssaslıqla yanaşırdılar. Bilirdilər ki, Aydın müəllimdən sonra özünü ələ alıb tək qalmağa alışa bilmir. Həmçinin Dilbər xanım yas məclisində

demişdi ki, kişi gedəndən sonra neynirəm bu qədər işçini evdə saxlayım. Uşaqlar bizdən ayrılandan sonra rəhmətliyin ürəyi gəlmədi, onları evdən çıxarsın.

İndi işçilər o sözləri xatırlayıb fikirləşirdilər ki, xanım işçilərin sayını azaldacaq, ancaq bilmir ki, kimdən başlasın.

Bağban fikirləşirdi ki, həyət-bacadakı səliqə-sahman xoşuna gəlməsə, xanımla vidalaşmalı olacaq. Əgər onu işdən çıxarsalar, gedib harada başını qatacaqdı, bilmirdi. Gülçöhrə arvad düşünürdü ki, yəqin, Dilbər xanım onun bişirdiyi eyni xörəklərdən bezib. Gözətçi işləyən Nəriman dayı daha çox narahatlıq keçirirdi. Düşünürdü ki, Dilbər xanımın onu çölə ötürməyə daha çox haqqı çatır. Uzun illərin sınağından məharətlə çıxsa da, daha qocalıb əldən düşüb. Evə bir oğru gəlsə, onun qarşısını hansı hünərlə ala bilər? Təmizlik işlərinə baxan qadının işi gündə bir dəfə həyət-bacaya əl gəzdirməklə bitərdi. Həftənin bir günü pal-paltarı yumağa kifayət edirdi. Söhbətcil deyildi. Heç kimin işinə qarışmazdı. Vaxtının çox hissəsini işçilər üçün ayrılmış otaqda televizora baxmaqla keçirərdi. İstədiyi vaxt icazə alıb evlərinə gedə bilirdi. Hətta işə gecikəndə belə, ona söz deyən olmazdı. Ona görə Salatın arvad fikirləşirdi ki, xanımla vidalaşan ilk işçi o olacaq, yəqin. Ancaq narahat deyildi: "Çıxarar, gedib başqasının qapısını süpürərəm", – deyə özünə təsəlli verirdi. Dilbər xanımın xadiməsi Simuzər arvad, həmkarlarından fərqli

olaraq, darıxmırdı. Çünki o, uzun illər Dilbər xanıma qulluq göstərməklə bərabər, həm də ona qulaq yoldaşı olmuşdu. Hətta Dilbər xanım bəzi məsələlərdə qərar verməzdən əvvəl onunla məsləhətləşərdi. Ona görə Simuzər arvad özü üçün bir təhlükə gözləmirdi. Xanımın rahatsızlığını isə onun soyuqlaması ilə əlaqələndirirdi.

Hava qaralmağa başlamışdı. Görüş vaxtı yaxınlaşırdı. Həyəcanla bərabər, Dilbər xanımın ümidi də artırdı. Düşünürdü ki, qəfil qonaq ona hər şeyi anladacaq və nəhayət, intizarına son qoyulacaq.

İşçilərinə fikir vermədən həyətdə bir az gəzişib yenidən evə qayıtdı. Əl-üzünü yuyub zala keçdi. Qulluqçunun sorğusuna cavab olaraq yeməkdən qabaq çay içəcəyini bildirdi. Sonra pəncərə tərəfdəki kresloda oturdu. Nəzərlərini getdikcə qaralan səmaya zilləyib yenidən fikrə daldı: "Bu adam kim ola? Məni qətlə yetirmək kimə lazımdı axı? Əgər belə bir şey varsa, onda nəyə görə heç bir ipucu əldə edə bilmirəm? Yox, bu mümkün deyil! Bəlkə, bu məsələ oğlumla bağlıdır? O vaxt nə qədər çalışsalar da, onu seçkilərdən çəkindirə bilmədilər. Görünür, indi əvəz çıxmaq istəyirlər. Axı böyük bir şəhərin meridir. Aha! Deməli, bu qətl söhbəti doğrudusa, o mənimlə bağlı olmaya da bilər. Əgər qətl qərarı gündəmdədisə, deməli, mən yubanmadan övladlarımı xəbərdar etməliyəm. Allah eləməmiş, yoxsa… Yazıq qızım, onun heç cangüdəni də yoxdur. Bəs nə

etməli? Yox, belə olmaz! Mən lap başımı itirmişəm… Gərək əvvəlcə kişi ilə görüşüm. Bəlkə, bu, tam başqa bir məsələdir. Gərək səbrli olum. Özümü ələ ala bilməsəm, işləri korlaya bilərəm".

Dilbər xanım elə dərin düşüncələrə qərq olmuşdu ki, çayın gətirilməsindən də, soyuyub buza dönməsindən də xəbərsiz idi. Yalnız qulluqçunun təkrar sorğusu onu fikirdən ayırdı:

– Xanım, bağışlayın, sizinləyəm. Şam süfrəniz hazırdı. Əgər istəyirsinizsə, yeməyi bura gətirək.

– Yox, niyə ki? – Dilbər xanım cavab verdi.

– Nəsə qayğılı görünürsüz? – deyə xadimə bir söz almaq ümidi ilə maraqlandı.

Dilbər xanım hərəkətlərindən özünü büruzə verdiyini anlayıb tez vəziyyətdən çıxış yolu tapdı:

– Elədi, Simuzər. Son vaxtlar rəhmətlik tez-tez yuxuma girir. Gərək ona bir "Yasin" oxutduram, – deyib yerindən qalxdı. Mətbəxə keçib yüngülvari şam elədikdən sonra yenidən zala qayıtdı. Başını qatmaq üçün televizoru işə saldı. Fikri qarşıdakı görüşün yanında idi. Elə bil gözlərinə heç nə görünmür, qulaqları heç nə eşitmirdi.

Nəhayət, vaxt gəlib yetişdi. Dilbər xanım bayıra açılan qapıya yaxınlaşdı. Alçaqdaban çöl ayaqqabılarını geyinib həyətə çıxdı. Şübhə doğurmamaq üçün həmişəki kimi, tələsmədən hərəkət etmək qərarına gəldi. Aramla dünənki görüş yerinə doğru irəliləməyə

başladı. Həyəcandanmı, yoxsa qorxudanmı ürəyi sürətlə döyünməyə başladı. Həmən yerə çatanda qanı bərk qaraldı. Saqqallı kişi heç yerdə gözə dəymirdi. "Ola bilsin, gecikib", – deyə Dilbər xanım fikirləşdi. Odur ki, geri dönməyə tələsməyib gözləmək qərarına gəldi. Amma xeyli vaxt keçsə də, naməlum kişidən bir xəbər çıxmadı. Dilbər xanım çox yubanmaq istəmədi. Xadimə narahat olub arxasınca gələ bilərdi. Odur ki, kor-peşman geri dönməyə məcbur oldu.

Gecə yatağa girsə də, gözünə yuxu getmədi. İndi onu daha çox öz taleyi deyil, saqqallı kişinin aqibəti düşündürürdü: "Axı o zavallının həyatı da təhlükədə idi. Görəsən, hansısa namərdin gülləsinə tuş gəlmədi ki? Əgər onu itirmiş olsam, Allah eləməsin, onda düşmənimin kim olduğunu da bilmərəm. Gərək keçən gecə ayaqlarına düşüb yalvaraydım, bəlkə, rəhmə gələrdi".

Dilbər xanım səhərə yaxın yuxuya getsə də, çox yata bilmədi. Bir tərəfdən rahatsızlığı, o biri tərəfdən isə günəşin al şəfəqləri onu yataqdan qalxmağa məcbur etdi. Başının ağrıması səbəbsiz deyildi. Özünə söz verdi ki, bu gün müxtəlif suallarla beynini yormayacaq, sakitcə oturub gecəni gözləyəcək. Lakin sözünə əməl edə bilmədi. İradəsindən asılı olmayaraq müxtəlif fikirlər beynindən süzülüb keçir, sakit oturmağa imkan vermirdi. Əslində onu narahat edən, beynini yoran həyatına ediləcək sui-qəsd qorxusu deyildi. Əsas

nigarançılığı saqqallı adamın kimliyi və övladlarının gələcək taleyi ilə bağlı idi. Bilmirdi ki, bu təhdid, hədə təkcə ona aid olan məsələdi, yoxsa bütün ailəsi təhlükə altındadı?! O qədər qaranlıq məqamlar, cavabsız suallar var idi ki... Bu günün uzunluğu dünənkindən də çox çəkdi. Gündüzün aydınlığı qaranlığa qovuşub əridikcə gecənin gəlişi yaxınlaşırdı.

Dilbər xanım yenə də müxtəlif vasitələrlə başını qatır, vaxtın keçməsini gözləyirdi. Əgər saqqallı kişi gəlsəydi, ona bir neçə sual verib cavab almaq üçün yalvaracağını planlaşdırırdı. Suallarını ürəyində təkrarlayırdı: "Siz kimsiniz? Məni haradan tanıyırsız? Övladlarım üçün hansısa bir təhlükə varmı? Əgər mən könüllü təslim olsam, balalarıma toxunmazlar ki?"

Şam süfrəsi yığışılmış, hər kəs öz otağına çəkilmişdi. Dilbər xanım istəsə də, həyəcanın girdabından qurtara bilmirdi. Özünü ələ alıb asta addımlarla bağa gəzintiyə çıxdı. Daha dəqiq desək, naməlum kişi ilə görüşə yollandı. Əvvəl saqqallı kişini görəndə qorxub ehtiyat etmişdisə, indi əksinə, onunla görüşə bilməyəcəyinin narahatlığını yaşayırdı. Görüş yerinə çatmağa bir az qalmış intizarında olduğu kişinin səsini eşitdi:

– Narahat olmayın, mən burdayam.

Dilbər xanım ürəklənib addımlarını yeyinlətdi. Elə bil illər uzunu həsrətini çəkdiyi doğma bir adamı ilə görüşəcəkdi.

– Gəlmisizmi?! – xanım çatan kimi soruşdu.

– Əlbəttə, gəlməyə bilərdimmi? – deyə saqqallı kişi cavab verdi.

– Bəs dünən niyə gəlmədiz? Çox narahat oldum sizə görə.

– Gəldim, gəldim, necə gəlmədim, – deyə kişi sakit tərzdə cavab verdi.

Dilbər xanım təəccüblə soruşdu:

– Necə yəni gəldim? Mən hər yerə baxdım, siz yox idiniz. Əgər gəlmişdinizsə, onda mənimlə niyə görüşmədiz?

Kişi xanımın gözlərinə baxıb ciddi bir şəkildə dedi:

– Mən sizə demişdim ki, diqqətli olasınız. Siz isə mənim sözlərimə məhəl qoymaq istəmirsiniz.

– Sizi başa düşmədim, – deyə xanım təəccüblə kişiyə baxdı.

– Elə isə qulaq asın, sizi başa salım, – kişi izah etməyə başladı, – elə ki siz dünən qapıdan çıxıb mənə tərəf gəlməyə başladınız, bir qadının arxanızca düşüb sizi izlədiyini gördüm. Odur ki, dayanmadan görüş yerindən uzaqlaşdım.

– Siz nə danışırsınız? Bu ola bilməz! Bəlkə, sizi qara basırmış? – deyə xanım heyrətini gizlədə bilmədi.

– Yox, məni qara basmırdı. Siz boyda, amma dolu bir qadın idi. Səhv etmirəmsə, başına ağ kəlağayı bağlamışdı, – deyə kişi cavab verdi.

– Hə, hə, yadıma düşdü. Doğru buyurursuz, – deyə Dilbər xanım özünü saxlaya bilmədi, – o mənim

xadiməm idi. Çiynimə atdığım şalı unudub evdə qoymuşdum, gətirmişdi onu versin.

– Simuzər arvad? – deyə saqqallı kişi soruşdu.

– Siz onu hardan tanıyırsız? – deyə Dilbər xanım heyrət içində ucadan xəbər aldı.

– Susun! Siz nə edirsiniz? Bizi eşidən olar. Axı niyə tələsirsiniz? Dedim ki, hər şeyi izah edəcəyəm, – deyə saqqallı kişi çımxırdı.

– Elə isə niyə məni üzürsünüz? – deyə xanım soruşdu, xəbəriniz varmı ki, yuxum ərşə çəkilib, rahatlığım yoxdu. Ağlıma min cür fikir gəlir. Allah eləməsin, əgər övladlarımın başına bir iş gəlsə… İlahi, gör mən nə danışıram?!

Dilbər xanım ağlamsındı, üzündə çarəsizliyin və üzüntünün ifadəsi vardı.

Saqqallı kişi həmsöhbətinin əzab çəkməsini istəmədi:

– Siz nə danışırsız, xanım? Bu işin onlara heç bir aidiyyəti yoxdu.

– Bəs elə isə onda niyə bu məsələyə aydınlıq gətirib məni əzabdan qurtarmaq istəmirsiz? – deyə xanım yalvarırmış kimi yanıqlı bir tərzdə soruşdu.

– Bilirsizmi, xanım, – deyə kişi söhbətin davamını gətirdi, – mən təhlükənin nədən ibarət olduğunu sizə demək üçün əvvəl bir şeydən əmin olmalıyam…

– Nədən?! Mən hazır! Xahiş edirəm, deyin!

– Gərək mənim sizə çatdıracağım məlumatı heç kim bilməsin. Hətta doğma oğlunuz belə. Bu məndən çox sizin özünüz üçün gərəkli olan bir məsələdir.

– And olsun Allaha, sizə söz verirəm ki, heç kimə bir kəlmə deməyəcəm.

– Yaxşı, mən sizə inanıram. Daha gecdi, gedin dincəlin. Sabah sizə hər şeyi anladacam, – deyə saqqallı kişi bildirdi.

– Siz nə danışırsınız?! Mən sabaha qədər dözə bilmərəm! Ürəyim buna tab gətirməz! Məgər halımı görmürsünüz?! Axı mən anayam. Həyat yoldaşını itirmiş ağbirçək qadın! Mənə rəhminiz gəlsin! – deyə Dilbər xanım gözləri yaşlı halda saqqallı kişidən imdad dilədi.

– Artıq çox gecdi, Dilbər xanım, qorxuram, arxanızca gələn olar.

– Yox, yox! Narahat olmayın. Tapşırmışam, gələn olmaz, – xanım inamla cavab verdi.

Kişi dedi:

– Bəs evə gecikməniz şübhə doğurmazmı?

– Xeyr. Qətiyyən! Demişəm ki, tək qalmaq istəyirəm. Sözümdən çıxmazlar, vəziyyətimi başa düşürlər.

Saqqallı kişi Dilbər xanımı çox üzməmək üçün ona ipucu vermək qərarına gəldi:

– Yaxşı, xanım. Mən sizə inanaraq və eyni zamanda güvənərək bir söz deyəcəyəm, ancaq məbadə bu barədə kiməsə danışasız.

– Əmin ola bilərsiz, – deyə xanım göz yaşlarını silib qayğılı nəzərlərini qonağa zillədi.

– Elə isə sizdən bir ricam olacaq.

– Buyurun, mən hazır.

– Mən sizə ipucu verəndən sonra başqa şey soruşmayasınız. Qalanlarını sabah sizə danışaram. İndi həm çox yorğunam, həm də yuxusuzam.

– Etirazım yoxdu. Qoy siz deyən olsun, – deyə xanım razılaşmağa məcbur oldu.

Naməlum adam əyilərək Dilbər xanımın qulağına dedi:

– Söhbət sizin ərinizin qətlindən gedir.

– Ola bilməz! Siz nə danışırsınız! Onu öldürüblər?! – xanım öz həyəcanını gizlədə bilmədi.

Saqqallı kişi tez sözünə davam etdi:

– Bax, gördünüzmü, xanım? Səsinizin tonuna fikir verdinizmi? Xahiş edirəm, bir də belə etməyəsiniz. Gedin yaxşı-yaxşı dincəlin. Sabah söhbətimizi davam etdirərik.

Saqqallı kişinin sözünü bitirməsi ilə geriyə dönüb gözdən itməsi bir oldu. Dilbər xanımsa şoka düşmüş adamlar kimi bir müddət yerindən tərpənə bilmədi. O, kişiyə inanmağa başlamışdı, onun sözündə həqiqətin işartılarını görürdü. Odur ki, evə qayıtdıqdan sonra yatağına girib hər şeyi götür-qoy etməyə başladı. Yadına düşdü ki, Aydın müəllim ildə iki dəfə tibbi müayinədən keçirdi, ürəyindən də heç bir şikayəti

yox idi. Həkimlər tərəfindən onun ölümünün infarkt kimi dəyərləndirilməsi tamamilə yanlış idi. Bəlkə də, saqqallı kişinin sözünə inanmazdı, amma bir nüans bu məsələdə şübhələri artırırdı. Axı əri evdə olarkən rəhmətə getməmişdi. Şəhərə gəzməyə çıxmış və iki-üç saat sonra skamyada oturduğu yerdə meyidi tapılmışdı. Dilbər xanım olub-keçən hadisələri elə dəqiqliklə xatırlayırdı ki, elə bil iki gün yuxusuz qalan o deyildi. Bundan sonra o istəsəydi də, yata bilməzdi. Bir şeyi anlaya bilmirdi ki, ərini nə üçün qətlə yetiriblər, axı onun heç kimlə ədavəti, düşmənçiliyi yox idi. Aydın müəllim pis adam olmamışdı. Hamı ilə salam-sabahı olan qeyrətli bir kişi idi. Kasıblara əl tutar, borca gələnləri qapıdan boş qaytarmazdı. Kiməsə bir pisliyi keçməmişdi. İstər-istəməz yadına oğlu ilə kürəkəni düşdü. Çünki onların ətrafına yaxşı bələd deyildi. "Bəlkə, paxıllıqdandı? Məgər ona görə adam öldürərlər?!" – deyə özü də bu fikrindən daşındı.

Əvvəlki iki gündən fərqli olaraq Dilbər xanım bu gecə 4-5 saat yata bildi. Səhər yerindən qalxanda sir-sifətində dünənki iztirabdan əsər-əlamət qalmamışdı. Saqqallı kişinin hansı niyyətlə gəldiyini bildiyi üçün əhvalı bir az düzəlmişdi. Ümid edirdi ki, tezliklə ərinin qatillərinin kim olduğunu biləcək və onları həbs etdirəcək. Bunu da bilirdi ki, bu işdə naməlim kişi ilə oğlu onun ən yaxın köməkçiləri olacaq.

İşçilər Dilbər xanımın çöhrəsindəki "qaranlığın" çəkildiyini görüb sevindilər. Artıq onlar da özləri ilə bağlı sıxıcı düşüncələrdən azad olmuşdular. Xanım isə həmişə olduğu kimi, yenə də onların diqqət və qayğısı ilə əhatə olunmuşdu.

Dilbər xanım nəzərləri ilə günəşi çoxdan yola salmışdı. Artıq şam yeməyi tamamlanmış, çay süfrəsi yığışılmışdı. Keçən gecə evə gec qayıtması işçilərdə şübhə doğurmasın deyə, qulluqçuya dedi:

– Bağda xeyli gəzib təmiz hava aldığıma görə rahat yatdım. Bu gün yenə doyunca gəzib təmiz hava alacam. Kimsə mənə görə narahat olub dalımca gəlməsin.

– Baş üstə, – deyə Simuzər arvad cavab verdi.

***

Dilbər xanım görüş yerinə yaxınlaşanda gördü ki, naməlum adam əvvəlki kimi alma ağacının yanında durub onu gözləyir. Bu dəfə saqqallı kişiyə əlini uzatdı:

– Salam.

– Əleyküm salam, – kişi əl verib incə nəvazişlə görüşdü, – necəsiniz? – deyə ilk sualı da o verdi.

– Çox sağ olun, yavaş-yavaş özümə gəlirəm, – deyə xanım bildirdi və sonra sözünə davam edib dedi:

– Əgər zəhmət deyilsə, bu gün sizdən bir neçə sualıma cavab almaq istərdim.

– Hansı suallara? – deyə kişi ehtiramla soruşdu.

– Siz ərimin ölümündə kimi günahkar bilirsiniz? Onu öldürməkdə məqsəd nə idi? Mənim həyatıma olan təhlükə hardandı? Nəyə görə…

– Bir dəqiqə, xanım. Mən sizin vəziyyətinizi başa düşürəm, ancaq bu qətldə qaranlıq məqamlar olduğu üçün bəzi şeyləri aydınlaşdırmalıyam. Hər şeyi dəqiqləşdirəndən sonra sizə ətraflı məlumat verəcəm.

– Sizi başa düşdüm, – xanım dedi, – bunun üçün nə qədər vaxt lazım olacaq?

– Yəqin ki, çox çəkməz. Sizdən bir neçə sualıma cavab alandan sonra oğlunuzla görüşməliyəm. Bu işi onunla birlikdə həll edəcəyik.

Bu sözləri eşidəndə Dilbər xanım xeyli yüngülləşdi, bilirdi ki, oğlu Amil atasının qanını yerdə qoymaz. Üzünü saqqallı kişiyə tutub dedi:

– Suallarınızı verə bilərsiniz, mən hazır.

– Elə isə deyin, əriniz qətlə yetirilən gün kimsə onu görüşə dəvət etmişdimi? Evdən çıxanda sizə bir söz dedimi?

Xanım fikirləşmədən cavab verdi:

– Ərimlə son dəfə görüşdüyüm gün ömrüm boyu yadımdan çıxmaz. Səhər saat on olardı. Həmişəki kimi sağollaşıb evdən çıxdı.

– Bəs çıxanda bir söz demədimi?

– Yox, demədi. Mən hara getdiyi ilə maraqlandım. Dedi ki, bir adamla görüşməliyəm, inşallah, nahara evdəyəm.

– Kimlə görüşəcəyini demədimi?

– Xeyr. Başqa heç nə demədi.

– Sizcə, o adam kim ola bilərdi?

– Vallah, bilmirəm. Heç vaxt onun işlərinə qarışmamışam. Mənimki ev, ailə, uşaqlar…

– Başa düşdüm. Bəs əriniz rəhmətə getməzdən qabaq tanımadığınız adamlardan sizə gələn olmuşdumu?

– Belə hal olub. Mən o anı yaxşı xatırlayıram. Ona görə ki, ərim yad kişiləri evə gətirməzdi. Adətən, onları restoranda qonaq edərdi. Ancaq təqribən ölümündən bir ay qabaq qapımıza bır nəfər gəlib ərimi soruşdu. Kişinin çölə çıxıb "niyə qapıda durmusan, keç içəri" deməsi ilə həmin adamın evimizə girməsi bir oldu. Onlar qonaq otağında xidmətçinin gətirdiyi çayı içib söhbətləşdilər. Bu çox çəkmədi, sonra kişi ilə birgə evdən çıxıb harasa getdilər.

– Əla. Elə isə deyin görüm, sonralar o kişi gözünüzə heç dəydimi? Deyək ki, bazarda, yolda və s.

– Xeyr. Bir daha görmədim.

– O adamın sifət quruluşu necə idi? Yaddaqalan əlamətləri var idimi?

– Bəli. Ağ, bəstəboy, dolu bir kişiydi. Yumru gözlükləri olan optik şüşəli eynək taxmışdı. Qaradinməz adama oxşayırdı. Mən onun səsini eşitmədim. Aydın müəllim danışır, o isə ara-sıra başını tərpədirdi.

– Deyirsiniz, tanımadığınız adam idi.

– Bəli. Birinci dəfə görürdüm.

– Sağ olun, Dilbər xanım. Sizdən çox vacib məlumatlar aldım, – bir az ara verib söhbətinə yenidən davam etdi: – Sizə bir tövsiyəm olacaq.

– Buyurun, eşidirəm, – xanım dedi.

– Sizi əmin edirəm ki, hələlik həyatınız üçün ciddi bir təhlükə görmürəm. Əsas odur ki, bizi bir yerdə görməsinlər. İstəyim budur ki, bağdakı gecə gəzintilərinizi dayandırasınız. Ehtiyatlı olmağınız məsləhətdir, – deyə saqqallı kişi bildirdi.

– Nə deyirəm ki, elə də edərəm, – xanım cavab verdi.

Kişi məmnunluqla başını tərpədib dedi:

– Mən daha getməliyəm. Salamat qalın. Sabah səhər oğlunuzun yanına yola düşürəm. Özünüzdə şübhə yaratmadan gündəlik həyatınıza davam edin. Tezliklə oğlunuzla birgə sizə baş çəkəcəyik.

– Yaxşı yol. Allah köməyiniz olsun. Oğluma salamlarımı çatdırarsınız. Onsuz da hər gün zəngləşirik, siz yenə də deyərsiniz. Yolunuzu səbirsizliklə gözləyəcəm.

– Sağ olun, xanım. Bir sözümü də unutmayın, məbadə bu barədə telefonda oğlunuza nəsə deyəsiniz.

– Narahat olmayın, – deyə xanım əminliklə bildirdi.

Saqqallı kişi vaxt itirmədən təyyarə ilə Amil müəllimin yanına yola düşəcəyini bildirib getdi.

O, sabahısı gün səhər saat onda artıq şəhər meriyasının binasında idi. İçəridə adam az olsa da, saqqallı kişinin şəhər meri ilə görüşməsi mümkün olmadı. Qəbul otağında ona dedilər ki, şəxsiyyət vəsiqəsi ilə yaxınlaşıb ərizə yazmalı, gəlişinizin məqsədini bildirməli və əlaqə saxlamaq üçün telefon nömrəsi qoymalısınız.

Saqqallı kişi bu görüşün çox mühüm əhəmiyyət daşıdığını bildirsə də, xeyri olmadı. "Qanun yol vermir, vətəndaş, elə hər gələn sizin kimi deyir" cavabını aldı. Saqqallı kişi daha söz tapa bilmədi. Bununla belə, ümidini üzməyib axşama kimi bayır qapısında gözləmək qərarına gəldi.

Amil müəllim kabinetində meriyanın işçiləri ilə masanın üstünə sərilmiş hansısa vacib layihəni müzakirə edirdi. Önəmli bir yerdə inşa ediləcək göydələn şəhərin ümumi mənzərəsinə xələl gətirməməli idi. Odur ki, xırdalığına qədər hər şey fikir süzgəcindən keçirilir, ətraflı müzakirə olunurdu. Gərgin işdən sonra Amil müəllim özündə yorğunluq hiss etdi. Şəhərin baş memarına və digər məsul əməkdaşlara tapşırdı ki, nahardan sonra yenidən onun yanında olsunlar. İşçilər gedən kimi Amil müəllim pencəyini geyinib otaqdan çıxdı. Tez qayıtmalı idi ki, layihə məsələsini bu gün yekunlaşdırıb qurtarsın.

Saqqallı kişi səbirsizliklə Amil müəllimi gözləyirdi. AA seriyalı "Mersedes" markalı maşın binanın giriş qapısına yan alanda naməlum adam başa düşdü ki, şəhərin meri nahar etməyə yollanacaq. Tez özü üçün uyğun bir yer seçdi ki, Amil müəllimin xidməti avtomobilinə yaxın olsun. Saqqallı kişi qara kostyumlu, ağ köynəkli, üstü cizgili qalstuk taxmış hündür boylu gənci görən kimi tanıdı. Bu o idi – Amil müəllim.

Atasına çox bənzəyirdi. Saqqallı kişi özünü itirməyib qabağa yüyürdü:

– Amil müəllim, sizə vacib sözüm var!

İki addım atmışdı ki, cangüdən qabağını kəsdi:

– Vətəndaş, bu nə hərəkətdi edirsiniz? Çəkilin kənara.

Amil müəllim bu cür hallarla tez-tez rastlaşdığı üçün kişiyə məhəl qoymadı. Qapısı açıq maşının arxa oturacağına əyləşdi. Cangüdən isə ön tərəfdə, sürücünün yanında oturdu. Maşın hərəkətə başlayanda saqqallı kişi qeyri-ixtiyari olaraq merin arxasınca qışqırdı:

– Mən sizin atanızın dostuyam!

Avtomobil 50-60 metr gedib dayandı. Amil müəllim maşından düşüb qəfil peyda olan qonağa tərəf gəlməyə başladı. Saqqallı kişi özünü itirməyib inamlı addımlarla ona sarı yürüdü. Üz-üzə gəlib dayandılar. Cangüdən kənarda durmuşdu. Amil müəllim dedi:

– Siz kimsiniz?

– Amil müəllim, mənim sizdən heç bir xahişim yoxdu. Gəlişimin məqsədi bir işdə sizə köməklik etməkdi, – deyə saqqallı kişi bildirdi.

– Siz kimliyinizi bildirmədiniz, – mer təkrar soruşdu, – atamı hardan tanıyırsınız?

Saqqallı kişi Amil müəllimə bir addım yaxınlaşıb yavaş səslə dedi:

– Kimliyimi tezliklə biləcəksiniz. Sizə atanız barədə danışmaq istəyirəm. Təklikdə söhbət etsəydik, pis olmazdı, – deyə saqqallı kişi bildirdi.

– Buyurun maşına, – deyib mer oturmaq üçün yanında ona yer göstərdi. Sonra isə üzünü sürücüyə tutub dedi: – Sür meşəyə.

"Meşə" şəhərin kənarında bağçası, şəlaləsi, fəvvarəli hovuzları olan gözəl bir restoran idi. Bahalı yer sayıldığından onun öz müştəriləri olardı. Sakit və mənzərəli bir guşə idi. Amil müəllim vaxtaşırı bura gəlib həm nahar edər, həm də bir az dincələrdi.

Maşını görən kimi işçilər merin qabağına yüyürdülər:

– Buyurun, Amil müəllim, yeriniz hazırdır, – deyib meri şəlalənin yaxınlığında yerləşən, söyüd ağacının altındakı boş masaya dəvət etdilər.

– İçəridə oturacağıq, – deyə mer bildirdi.

– Kabinet də hazırdı, Amil müəllim, – inzibatçı tez dilləndi, – buyurub keçə bilərsiniz.

Süfrəçi sifarişi qəbul edib getsə də, araya çökən sükutu pozan olmadı. Yemək masası hazır olandan sonra Amil müəllim süfrəçiyə dedi:

– Sağ olun, daha içəriyə tez-tez baş vurmağa ehtiyac yoxdu, bir şey lazım olsa, çağırış düyməsini basarıq. Bayırdakı yoldaşlara da yemək verərsiniz.

– Baş üstə, – deyib süfrəçi diri addımlarla otağı tərk etdi.

Amil müəllim süfrəyə əl uzatmamış dedi:

– Sizi eşidirəm, söhbətə başlaya bilərsiniz.

– Bəlkə, yeməyinizi yeyəsiniz sonra? – deyə naməlum adam təklif etdi.

– Narahat olmayın. Sizi bir az dinləyim, sonra yeyərəm.

Kişi birbaşa söhbətə keçdi:

– Mən sizin atanızın qətlə yetirilməsi qənaətindəyəm.

Bu sözdən sonra Amil müəllimin heç bir həyəcan keçirmədiyini görən kişi çox təəccübləndi. Şəhər meri sakitcə oturub ona baxırdı. Araya çökən sükutu yenə də Amil müəllim pozdu:

– Buyurun, davam edin, mən sizi dinləyirəm.

– İki-üç ay bundan əvvəl qəzetdə bir elana rast gəldim. Bildirilirdi ki, kim rəssam Nəqşicahanlının "Tənha qadın" əsərini dövlətə təqdim etsə, beş milyon manat məbləğində mükafat alacaq. Orada qeyd olunmuşdu ki, həmin əsər 30 il bundan qabaq dövlət muzeyinin bərpa emalatxanasından müəmmalı şəkildə yoxa çıxıb. Mən hazırlaşıb sizə gəlmək, bu barədə atanıza xəbər vermək istəyirdim. Amma…

– Niyə susdunuz, davam edin. Mən sizi dinləyirəm, – deyə Amil müəllim diqqətlə həmsöhbətinin üzünə baxdı.

– Lakin soraqlaşıb öyrəndim ki, atanız gözlənilmədən vəfat edib. Düşündüm ki, bu adi, vaxtı gələn ölüm ola bilməz.

– Niyə ki? – Amil müəllim tez xəbər aldı, – bunun atamın ölümü ilə nə əlaqəsi var?

– Elə məsələ də bundadır. O əlaqəsi var ki, həmin tablo sizin evinizin foyesində divardan asılmışdı.

– Siz nə danışırsınız?! – Amil müəllim qeyri-ixtiyari qabağa əyildi.

– Bu məlumat sizdə hardandı? Dediniz, atamın dostusunuz, deməli, bizim evdə də olmusunuz.

– Əlbəttə, olmuşam. Özü də lap çox. Mən sizin atanızın şəxsi sürücüsü idim. Uşaq vaxtı maşında səni o qədər gəzdirmişəm ki. O vaxt sən çox balaca idin, 6-7 yaşın ancaq olardı. Meşəyə gəzməyə gedər, çayda çimər, göldə balıq tutardıq.

Amil müəllim yerindən yavaşca qalxıb kişiyə yaxınlaşdı. Diqqətlə kişinin gözlərinə baxıb həyəcanlı halda dedi:

– Məhərrəm əmi, bu sizsiniz?!

– Bəli, oğlum, düz tapmısan, bu mənəm, – deyib kişi də ayağa qalxdı. Amil müəllim kişinin boynuna sarılıb onu bərk-bərk qucaqladı. Hər ikisinin gözləri doldu. Amil müəllim o qədər kövrəlmişdi ki, az qalırdı uşaq kimi ağlasın. Məhərrəm kişidən atasının ətrini alırmış kimi onu bağrına basıb ayrılmaq istəmirdi. Xeyli keçəndən sonra yerlərinə əyləşdilər. Amil müəllim dedi:

– Məhərrəm əmi, atamın ölümü ilə bağlı mənim də şübhələrim var idi. Çünki dəfndən bir ay sonra həkim dostlarımdan biri bu ölümdə infarkt əlamətləri görmədiyini mənə eşitdirmişdi. Amma mən bunu ailəmizə, anama deyib onlara ikinci dəfə zərbə vurmaq istəmədim. Əgər siz atamın qatilini tapmaqda mənə

kömək etsəniz, ömür boyu sizin qulunuz olmağa hazıram.

– Elə demə, oğlum. Sənin atanın qayğısı, dəyərli məsləhətləri olmasaydı, mən ev-eşik yiyəsi ola bilməzdim. İşdən çıxanda da rəhmətlikdən halallıq alıb getmişdim. Mənə etdiyi yaxşılıqları heç zaman unuda bilmərəm.

Bu vaxt Amil müəllimin telefonuna zəng gəldi. O, qarşı tərəfi dinlədikdən sonra dedi:

– Mənim çox vacib bir işim çıxdı. Mənsiz başlaya bilərlər. Sabah birlikdə yenə müzakirə edərik. Önəmli bir məsələ olmasa, çalışın, bu gün məni narahat etməyəsiz.

Məhərrəm kişi anladı ki, telefon zəngi meriyadandı. Amil müəllimin işə getmədiyini görüb arxayın şəkildə söhbətinə davam etdi:

– Oğlum, Amil, deməli, mən atanın ölümünü həmin tablo ilə əlaqələndirirəm.

– Niyə ki? Beş milyona görə? Axı o şəkil yerindədir. Bir də hələ bilmək olmaz o əsər Nəqşicahanlının əsəridi, ya yox.

– İcazə ver, mən sənə hər şeyi izah edim, – deyə Məhərrəm kişi məmnun bir şəkildə dilləndi.

– Buyurun.

– Deməli, Amil, bir gün atanın dostu Əsgər müəllimi maşınla sizə gətirirdim. Yol boyu söhbət edib mənə bəzi məsləhətlər də verdi. Danışığından hiss etdim ki, çox savadlı adamdı. Sizə çatanda mən də maşından dü-

şüb onunla birlikdə evə girdim. İçəri keçən kimi həmin adam divardakı şəkli görüb dedi: "Nəqşicahanlının əsəri burda nə gəzir?" Mən də özümdən asılı olmadan "Aydın müəllimə hədiyyə ediblər", – dedim. Aramızda olan bu söhbəti sizdəki xidmətçi Simuzər arvad da eşitdi. O vaxt mən bu söhbətə o qədər də əhəmiyyət vermədim. Çünki tablonun bu qədər qiymətli olduğunu bilmirdim. Yaxşı yadımdadı, mən rəhmətlik Aydın müəllimlə parkda gəzən vaxt bir uşaq əlində tablo bizə yaxınlaşıb yalvarmağa başladı ki, evdə çörək pulumuz qurtarıb, bu şəkli alın. Tablo Aydın müəllimə xoş gəldiyindən on manat verib onu aldı. Elanı oxuyanda mənə aydın oldu ki, uşaq həmin əsəri bərpa emalatxanasından oğurlayıb bizə satıbmış. Görünür, azyaşlı olduğu üçün onun emalatxanaya girməsinə fikir verən olmayıb.

– Mən sizi çox yaxşı başa düşürəm. Siz hadisələrin gedişini öz mülahizələriniz əsasında məntiqi cəhətdən çox düzgün qurursunuz, ancaq unutmayaq ki, biz bununla kimi isə mühakimə edib istintaqa cəlb edə bilmərik, – deyə Amil müəllim fikrini Məhərrəm kişinin diqqətinə çatdırdı.

– Orası elədi, – deyə Məhərrəm kişi təsdiq etdi, – amma bu, bildiklərimin hamısı deyil, məndə sənin üçün önəmli olan başqa fakrlar da var.

– Eləmi? – deyə Amil müəllim özünü saxlaya bilmədi.

– Bəli, – deyə Məhərrəm kişi baş hərəkəti ilə də fikrini təsdiqlədi, – məsələ burasındadı ki, mən bura gəlməzdən əvvəl gedib gizli şəraitdə ananla da görüşdüm.

– Aha! Belə de! Deməli, anamla da görüşmüsünüz. Nə əcəb bu barədə mənə heç nə deməyib?

– Mən xahiş etdim ki, hələlik bu haqda heç kimə heç nə deməsin. Bunun ümumi işimizə ziyanı ola bilər. Fikirləşdim ki, bu sui-qəsd hadisəsini gizli şəkildə müzakirə etsək, daha yaxşı olar. Axı mənim sizin şəhərdə yenidən görünməyim kimlərinsə ürəyinə şübhə toxumu səpə bilərdi. – Məhərrəm kişi dərindən nəfəs alıb söhbətinə davam etdi, – heç soruşmursan, məndəki bu qiyafət nədir? Fikirləşdim ki, məni bu licimdə heç kim tanımaz. Çünki ömür boyu nə saqqal saxlamışam, nə də başımda papaq olub. Üstəlik də o dövrdən otuz illik bir vaxt keçir.

– Məsələ aydındır, – deyə Amil müəllim başı ilə təsdiqlədi. Sonra saata baxıb Məhərrəm kişiyə ərklə dedi:

– Əmi, gecdi, gedək evə, qalanını bizdə söhbət edərik.

Məhərrəm kişi qəti etirazını bildirdi:

– Yox, yox! Sən nə danışırsan, gedə bilmərəm.

– Niyə getmirsiz, əmi, – Amil müəllim soruşdu, – burda evimiz ola-ola, hoteldə qalmaq istəyirsiz?

– Amil, bala, məni düzgün başa düş, bizim bir yerdə görünməyimiz nəyə lazımdı? Heç şəhərdə də

görüşməyimiz doğru olmaz. İşləri korlaya bilərik. Nə zaman lazım olarsa, gəlib burda görüşərik.

– Sizi başa düşdüm. Elə isə söhbətimizə davam edək, – deyib Amil müəllim stolun üstündəki çağırış düyməsini basdı. Bir dəqiqə keçmədi ki, süfrəçi içəri girdi.

– Buyurun, Amil müəllim, eşidirəm.

– Bunları yığışdırmasanız da, olar. Bizə bir çay gətirin.

– Baş üstə, Amil müəllim. Mürəbbə də olsunmu?

– Hansını məsləhət bilsəniz, verərsiniz.

– Baş üstə, – deyib süfrəçi otaqdan çıxdı.

Süfrəyə, demək olar ki, toxunulmamışdı. Bir-iki tikə yeyilmişdi, ya yox. Bütün diqqət qətl hadisəsinin üstündə cəmlənmişdi.

– Harda qaldıq? – deyə Amil müəllim xəbər aldı, – hə, deməli, anamla da görüşdünüz.

– Hə. Ona bəzi suallar verib vəziyyəti bir az da aydınlaşdırdım.

– Məsələn?

– Öyrəndim ki, atanın ölümündən əvvəl sizin evə ananın heç zaman üzünü görmədiyi bir kişi gəlib. Bilirsən ki, atan heç vaxt evə yad adam dəvət etməzdi. O kişi hansısa bəhanə ilə atanla görüşmək üçün sizin evə daxil olub və içəri keçməsi ilə evi tərk etməsi cəmi on beş-iyirmi dəqiqə çəkib. Əgər çay içməsəydi, yəqin, evi daha tez tərk edəcəkdi.

Süfrəçi qapını döyüb içəri girdi. Otağa bir anlıq sükut çökdü. O, çayları süzüb tez də çıxdı. Məhərrəm kişi söhbətinə davam etmək istəyəndə Amil müəllim onu qabaqladı:

– Demək istəyirsiz ki, o kişinin bizə gəlməkdə əsas məqsədi şəkli öz gözləri ilə görmək olub?

– Tamamilə haqlısan! Fikrimcə, quldurlar onu bir mütəxəssis kimi içəri salıblar ki, əsərin orijinal olub-olmadığını dəqiqləşdirsinlər.

– Yəqin ki, – deyə Amil müəllim Məhərrəm kişinin fikrini dəstəklədi. Sonra isə hadisələrin davamının necə olduğunu izah etməyə çalışdı. – Görünür, atamla görüşəndə şərtlərini qəbul elətdirə bilmədikləri üçün onu qətlə yetiriblər.

– Çox şeylər ola bilər, – Məhərrəm kişi çayından bir qurtum içib sözünün davamını gətirdi, – məncə, atanın əsər barədə heç bir məlumatı olmayıb. Çox güman ki, o, bu xəbəri quldurlardan eşidib. Təklif olunan şərtlərlə razılaşmadığı üçün onu yerindəcə öldürüb, sonra da meyidi oturacaqda yerləşdiriblər.

– Məncə də elədir, – deyə Amil müəllim təsdiq etdi, – atam kimdənsə qorxan, çəkinən, kiminsə qabağında sınan kişi deyildi. Görünür, xarakterinə bələd olduqları üçün qətl hadisəsini əvvəlcədən planlaşdırıblar.

– Mən də elə düşünürəm, – deyə Məhərrəm kişi təsdiq etdi, – ancaq önəmli olan başqa şeydir. Məsələ burasındadır ki, şəkil barədə xəbəri başqalarına iki

nəfər çatdıra bilərdi. Simuzər arvad savadsız olduğu üçün mən ondan şübhələnmirəm. Çox güman ki, bu məlumat lotulara ziyalı müəllimdən sızıb, – deyə Məhərrəm kişi öz fikrini bildirdi.

– Yoox! Sən nə danışırsan. Məncə, Əsgər müəllim elə iş görməz. O, çox qeyrətli, kəsdiyi çörəyi ayaqlamayan kişilərdəndir. Şəhərin ən hörmətli ziyalılarından biridir.

– Orası elədir, – deyə Məhərrəm kişi razılaşdı, – ancaq o, bunu hansısa məclisdə bilməyərəkdən də deyə bilərdi. Məsələn, deyərdi ki, Nəqşicahanlının "Tənha qadın" əsərini Aydın müəllimə hədiyyə eləyiblər.

– Bəli. Bu ola bilərdi. Bəs fikrinizcə, indi biz nə etməliyik? – deyə Amil müəllim xəbər aldı.

– Mən evinizə gələn yad kişi barədə anandan soruşdum. Dilbər bacı onun səsini eşitməsə də, bəzi əlamətlərini yadda saxlaya bilib. Həmən kişinin bəstəboy, dolu, ağsifət bir adam olduğunu dedi. Yumru gözlüklü, optik şüşəli eynəkdə imiş.

– Maraqlıdı, siz onu tanıya bildinizmi? – deyə Amil müəllim soruşdu.

– Xeyr, beləsini xatırlamıram. O ya mütəxəssis kimi başqa şəhərdən dəvət olunubmuş, ya da ki, bütün gününü öz emalatxanasında keçirən rəssamlardandır. Görünür, təklif olunan məbləğ onu da yoldan çıxarıb. Əlbəttə, bütün bu dediklərimiz hələlik ancaq fərziyyədi.

– Elədir, – deyə Amil müəllim razılaşdı, – ancaq unutmayaq ki, fərziyyə də olsa, həqiqətə çox oxşayır. Nə fikirləşirsiniz, indi biz hardan başlamalıyıq?

– Mənə elə gəlir ki, eynəkli yad kişidən başlamaq lazımdır. Çünki əlamətlərinə əsasən, onu tapmaq çətin olmaz.

– Mən başqa cür düşünürəm, – deyə Amil müəllim sözə başladı, – eynəkli kişini ayıltmaqla biz əsas hədəfimizdən yayına bilərik. Yaxşı olar ki, evi nəzarətə götürək. Ancaq elə edək ki, heç kim bizdən şübhələnməsin. Onlar indi fürsət gözləyirlər ki, evə soxulub şəkli oğurlasınlar. Biz həmin anda onları ələ keçirməliyik.

– Bunu bacara bilərikmi? – deyə Məhərrəm kişi soruşdu, – bəlkə, polis idarəsinə gedək.

– Yox, bunu etmək olmaz. Bəlkə, bu işdə polisin də əli var. Mənim cinayət-axtarış şöbəsində işləyən etibarlı bir dostum var – Bakir müəllim. Çox təcrübəli mütəxəssisdir. Onun köməyindən istifadə edərik. Dost yolunda ölümə gedər. Əməliyyat planlarını o özü qurar.

– Doğru buyurursan, – Məhərrəm kişi dedi, – onda mən təcili geri qayıdım. Sənlə orada görüşərik.

– Bəlkə, bu gecə qalıb dincələsiniz, – Amil müəllim soruşdu.

– Yox, qala bilmərəm. Hər dəqiqənin bir hökmü var. Gedim evinizin həndəvərində fırlanım. İt uşağına etibar yoxdu.

– Onda şəxsiyyət vəsiqənizi verin, sizə bilet götürək, – deyə Amil müəllim əlini qabağa uzatdı.

– Məndən ötrü narahat olma, özüm gedərəm. Məni şəhərdəki dalanlardan birində endirərsiniz.

Amil müəllim dedi:

– Elə isə vizit kartımı götürün, lazım olar.

– Sən də mənim telefon nömrəmi və qaldığım ünvanı yaz. Gələn kimi zəng vurarsan.

...Məhərrəm kişi gəncliyini keçirdiyi şəhərdə onun üçün doğma olan yerlərə baş vurur, xatirələrə dalırdı. Bir-iki saat gəzəndən sonra yorulduğunu hiss edib şəhərin kənarında bir ay müddətinə kirayələdiyi mənzilinə qayıtdı. Divanda uzanıb dincəlmək qərarına gəldi. Gecə yaxınlaşanda gedib Dilbər xanımla görüşəcəkdi. Məqsədi Amillə görüşündən söhbət açıb ona təskinlik vermək idi.

Məhərrəm kişi çayını içəndən sonra televizoru söndürüb evdən çıxdı. Vaxtı öldürsün deyə, piyada getmək qərarına gəldi. Gəzə-gəzə gəlib Dilbər xanımgilin yaşadığı məhəlləyə çatdı. Ətraf sakitlik idi. İnsanlar şirin yuxuya dalmışdılar. Hökumət şəhərdə sürü halında gəzən küçə itlərini hara "ezamiyyətə" yollamışdı, bilən yox idi. Həyət evlərindəki itlərdən də soraq gəlmirdi.

Məhərrəm kişi bayır tərəfdən divarın dibindən qalxan qoca söyüd ağacına yaxınlaşdı. O, cavan vaxtlarında evdə adam olmayanda bu ağaca dırmanaraq həyətə asanlıqla düşə bilirdi. Ancaq indi əvvəlki qıv-

raqlığı qalmamışdı. Odur ki, ətrafa nəzər salıb çox ehtiyatla daş hasarın üstə çıxdı. Sonra hasarın üstü ilə cənuba tərəf 6-7 addım irəliləyib başqa bir ağac vasitəsilə ehmalca həyətə endi.

Bağda sakitlik idi. Heç bir səs-səmir duyulmurdu. Məhərrəm kişi görüş yerində oturub dinməzcə gözləyirdi. Aradan xeyli vaxt keçsə də, Dilbər xanım gəlib çıxmadı. Məhərrəm kişi zəng edib görüşəcəkləri barədə Dilbər xanıma demək istəsə də, sonda "qaşınmayan yerdən qan çıxarmayaq" düşüncəsi ilə bu fikrindən vaz keçdi. Dilbər xanımın sözünə əməl edib gecə gəzintisinə çıxmaması Məhərrəm kişini çox sevindirdi. O, bağı tərk edib qaldığı evə tərəf yollandı.

Məhərrəm kişi səhər yataqdan qalxanda saat 11-ə qalırdı. Hiss etdi ki, yorğunluqdan və bir neçə gecənin yuxusuzluğundan əsər-əlamət qalmayıb. Əl-üzünü yuyub özünə bir çay süzdü. Televizoru yenicə işə salmışdı ki, telefonun zəngi çalındı. Amil müəllim idi.

– Buyur, eşidirəm, – Məhərrəm kişi dilləndi.

– Salam, əmi. Gəlmişəm. Anama baş çəkim, sizinlə görüşəcəyəm. Olduğunuz yerdə qalın.

– Baş üstə. Evdə oturub səni gözləyirəm.

Evlərinə girəndə Amil müəllimi ilk qarşılayan "Tənha qadın" oldu. Oğlunun gəlişi Dilbər xanım üçün gözlənilməz olmadı. O, bunu büruzə vermədən dedi:

– Oğlum, xoş gəlmisən! Necəsən? İşlərin necə gedir? Nə əcəb işdən vaxt tapa bildin?

– Yaxşıyam, ana. Bilirəm ki, atamdan sonra çox sıxılırsan. İmkan var idi, dedim, sənə bir baş çəkim. Üç-dörd gün yanında qalıb gedəcəm.

– Sağ ol, ay bala, – deyə Dilbər xanım dilləndi, – Allah səni mənə çox görməsin. Əgər sən olmasaydın, mən neynərdim? İndi mən ancaq sənինlə, qızımla, nəvələrimlə nəfəs alıram.

Simuzər arvad çay verir, ev-eşiyə əl gəzdirir, gedən söhbətləri də eşidirdi. Amil müəllim dedi:

– Ana, məncə, yasdan sonra evimizə bir az əl gəzdirsək, pis olmaz, bəzi xırda-para təmir işləri aparıb səliqə-sahman yaradarıq. Yəqin ki, beş-on günlüyünə bağ evinə köçəsi olacağıq.

– Nə deyirəm, ay oğul. Necə məsləhətdir, elə də olsun.

Amil müəllim dedi:

– Mən gedim usta ilə danışım, lazım olan materialları alım. Nahara yubansam, nigaran qalma. Axşam şam yeməyinə evdəyəm.

– Yaxşı yol, oğlum. Özündən muğayat ol.

Amil çölə çıxıb qapıda onu gözləyən maşının qabaq oturacağına əyləşdi. Avtomobili idarə edən onun uşaqlıq dostu Mir İbrahim idi.

– Seyid, zəhmət olmasa, Əlixan məhəlləsinə sür.

– Baş üstə, rəis, – deyə dostu dilləndi.

– Yaxşı görək ə, rəis özünsən, dolama məni.

– Niyə dolayıram ki. Maşallah, xidməti maşının, cangüdənin, mamılı-matan katibələrin. Rəis deyilsən, bəs nəsən?

– Yaxşı, yaxşı, rəisəm. Əl çək yaxamdan.

– Rəis, düzünü de görüm, neçə arvad saxlayırsan? Onu da deyim ki, müsəlman qanununa əsasən, dördünnən artığı haramdı.

– Miri, səni and verirəm cəddinə, bu gün mənə ilişmə. Çox yorğunam. Könlündən nə keçirsə, sabah döşəyə bilərsən.

– Baş üstə, rəis, mən pas. Zarafat qurtardı.

Amil müəllim maşını Əlixan məhəlləsindəki köhnə hamamın arxasında saxlatdırıb dedi:

– Seyid, sən get, lazım olsan, çağıraram.

– Ə, burda nə işin var? – seyid soruşdu.

– Bir tanışımla görüşməliyəm. Sənin vaxtını çox almayım.

– Oldu, rəis. Mən getdim. Rəis deyirsə get, deməli, getmək lazımdır.

Amil müəllim beşmərtəbəli binanın birinci qatında yerləşən 16 saylı mənzilə yaxınlaşdı. Əlini qapıya uzadıb dəstəyi yavaşca aşağı sıxdı. Qapı açıq idi. Bu zaman dostu Bakiri arxasında gördü. Onun necə yaxınlaşdığını hiss etmədiyi üçün təəccübləndi. Bu vaxt otaqdan səs gəldi:

– Qapı açıqdı, gəlin, – Məhərrəm kişi qabağa çıxıb yol göstərdi, – keçin içəri.

Amil müəllim otağa nəzər salıb dedi:

– Özünüzə pis yer tapmamısız: səliqəli, işıqlı, xudmani. Tanış olun, dostum Bakirdir, sizə danışmışdım.

– Mənim də adım Məhərrəmdi, Məhərrəm kişi.

– Çox şadam, – Bakir bəy bildirdi.

Əvvəlcə sözə Amil müəllim başladı:

– Deməli, biz Bakir müəllimlə hər şeyi müzakirə etmişik. Sizin fikirlərinizlə, demək olar ki, razıyıq. Mülahizələriniz özünü doğruldur. Şəkil hələ ki yerindədi. Görünür, oğrular onu aparmaq üçün fürsət gözləyir. Bundan sonra görüləcək işlərə Bakir müəllim rəhbərlik edəcək. Məhərrəm əmi, əgər ailənizin yanına qayıtmaq istəyirsinizsə, gedə bilərsiniz.

– Siz nə danışırsınız? Mən bu işi belə qoyub gedə bilmərəm. Qoy bir nəticə əldə olunsun, sonra.

Bu dəfə Bakir müəllim məsələyə aydınlıq gətirmək istədi.

– Məhərrəm əmi, sizin narahatlığınızı anlayıram, siz də bizi başa düşün. Axı bilmək olmaz ki, onlar evə nə zaman basqın edəcəklər – üç günə, ya üç aya.

– Mən sizin fikrinizi qəbul edirəm, – Məhərrəm kişi dedi, – ancaq izninizlə, bir həftə, on gün gözləyim, əgər bir nəticə olmasa, çıxıb gedərəm.

– Yaxşı, – deyib Amil müəllim oturduğu yerdən qalxdı.

– Ancaq siz bizim tərəflərdə görünməyin. Əgər oğrular evimizi nəzarətdə saxlayırsa, sizin gözə dəyməyiniz onlarda şübhə yarada bilər. Planlarımız alt-üst olar.

– Onda xahiş edirəm, arada zəng edib mənə məlumat verəsiniz. Evdə televizorla başımı qataram.

Amil müəllim və dostu Bakir bir az gedib arxa dalana döndülər. Döngədəki köhnə "Mersedes" onları gözləyirdi. Bakir sükan arxasına keçdi, Amil müəllim onun yanında əyləşdi. Maşın sürətini artıraraq şəhərin kənarındakı Asnı çayına tərəf yol aldı. Dostlar ətrafı gül-çiçəyə bürünən, zümzüməsi ürəkləri riqqətə gətirən doğma çaya çatanda hava artıq qaralmışdı. Bu yerlərdən Amil müəllimlə Bakir bəyin sonsuz uşaqlıq xatirələri boylanırdı. Lakin indi dostlar bura nə uşaqlıq illərini yada salmağa, nə də ki təbiətin füsunkar gözəlliyini seyr etməyə gəlmişdilər. Yeganə fikirləri Amil müəllimə ata, Bakir bəyə isə hardasa, əmi sayılan bir kişinin – hörmətli el ağsaqqalının qətlinə fərman verən nadürüstlərin ələ keçirilməsi planını müzakirə etmək idi. Xeyir-şər məclislərindən kənarda qalmayan, el yolunda canını fəda etməyə hazır olan, hamıya qayğı ilə yanaşan, qapısından heç kimi naümid qaytarmayan hörmətli bir insanı qətlə yetirən namərdlər layiqli cəzalarını almalı idilər.

Amil təyyarədən enən kimi Bakir bəylə görüşmüş, onunla hər şeyi ətraflı müzakirə etmişdi. İndi əsas məsələ bütün detalları son xırdalığına qədər götür-qoy etmək idi. Kiçik bir səhv bütün planları məhv edə bilərdi.

Maşından düşüb çay kənarındakı iri daşların üstündə oturdular. Söhbətə Bakir bəy başladı.

– Qağa, narahat olma, əmimin qatillərini tapacağıq.

– Mən sənə güvənirəm, Bakir, – deyə Amil müəllim cavab verdi.

Bakir bəy sözünə davam etdi:

– Cinayətin üstünü açmaq üçün ən bacarıqlı və etibarlı işçiləri bir araya gətirmişəm. Hətta təqaüddə olan bir dostumu da bu işə cəlb etmişəm. Plan hazırdır. Amil, sənin əsas işin nə olacaq, bir də yadına salıram. Mağazadan beş-on kisə sement, əlli-altmış ədəd kərpic, dörd-beş banka boya alırsan. Sonra materialları yük maşınına yığırsan. Yenə deyirəm, iri maşın tutarsan ki, kənardan daha çox diqqət çəksin. Tikinti materiallarını maşına özün yığdırarsan ki, ətrafdakılar səni görsün. Həmən günü söhbət əsnasında evdəkilərə və qonşulara eşitdirərsən ki, təmir işləri ilə əlaqədar olaraq müvəqqəti bağ evinə köçmək zorundasınız. Gözətçidən başqa evdə heç kim qalmır. Küçədə dayanan, yoldan keçən adam olsa, fikir vermə. Sabahısı gün nahardan sonra yola düşməyə hazırlaşın. Maşınlara aramla oturun ki, hamınızın evdən çıxdığını müşahidə edə bilsinlər.

– Necə demisənsə, hamısı yadımdadı, narahat olma. Deyə bilərsənmi, Bakir, nəyə görə biz tikinti materialları gələn gün deyil, sabahısı gün nahardan sonra yola düşürük? – Amil müəllim maraqlandı.

– Ona görə ki, evdən tələsik çıxıb yola düşsəniz, bu, qarşı tərəfdə şübhə yaratmış olar, – deyə Bakir müəllim cavab verdi.

– Başa düşdüm. Bəs oğrular evə girməsə, necə olacaq. Təmir işləri başlayacaqmı?

– Bəli. Suvaq işini mayor Abdullayev yerinə yetirəcək. Palçıq işinə dostum Mahir baxacaq. Onun yanından quş da uçub keçə bilməz. Rəngsaz işini də kapitan Mədədliyə həvalə etmişəm. O, şəklin həndəvərində olacaq. Cinayətkarlar tanımasın deyə, bu üç nəfəri başqa şəhərlərdən dəvət etmişəm. Akademiyadan tələbə yoldaşlarımdır.

– Onların həyatı üçün bir təhlükə yoxdu ki?

– Narahat olma, Amil, uşaqlar hamısı silahlı olacaq.

– Sağ ol, Bakir, gözəl plan qurmusan.

– Bu hələ hamısı deyil. Məhəllənizə girib-çıxan avtomobillərə müşahidə kameraları vasitəsilə dostumuz Xəqani müəllim nəzarət edəcək. O, hər bir maşının kimə məxsus olduğunu, sürücünün kimliyini anında təsbit edib bizə məlumat verəcək. Düzdü, ola bilər ki, oğrular sizin burada olmanızdan ehtiyat edib evinizə basqın etməsin. Ona görə də təmir işi gedən müddətdə həyətinizin hər tərəfində gizli kameralar quraşdırılacaq. Təmir qurtardıqdan sonra isə kameralar vasitəsilə müşahidələri davam etdirəcəyik.

– Sağ ol, qardaş, görürəm ki, əlindən gələni əsirgəməmisən. İnşallah, cinayətkarlar tutulandan sonra yoldaşlarının da hörmətini edərik.

– Heç nəyə gərək yoxdur, – Bakir müəllim o dəqiqə etirazını bildirdi, – onlar mənim xahişimlə gəliblər. Yaxın dostlarına kömək etməyə.

– Təşəkkür edirəm, qağa. Təki bu iş həll olunsun. Yerdə qalanlar xırda məsələlərdi.

– Əlbəttə, – Bakir bəy təsdiq etdi, – indi əsas diqqətimizi cinayətkarların tutulmasına yönəltməliyik. Sənin mənə bir tapşırığın olsa, xəbər edərsən. Fikir ver ki, zəng edəndə yanında kənar adam olmasın. Məndə ümidverici bir məlumat olsa, səni xəbərdar edəcəm. Yaxşı yadıma düşdü, sənə deyiləsi bir söz yadımdan çıxıb.

– Buyur, rəis.

– Deməli, Amil, bağda olarkən çalış həyətdə xırdapara işlərlə başını qatasan. Əgər səni izləyən varsa, qoy görsün ki, həqiqətən də bağda ananın yanında qalırsan.

– Səni başa düşdüm, qardaş. Yadımdan çıxmaz, – deyə Amil müəllim bildirdi.

– Elə isə gedək. İndi anamız da səni gözləyir.

– Gedək, Bakir, gedək.

Bakir bəy dostunu evlərindən xeyli aralı, asfalt yolun kənarında maşından düşürüb gözdən itdi. Amil müəllim evlərinə girəndə Dilbər xanımın sifətinə nurlu bir təbəssüm qondu, gözləri güldü.

– Gəl, oğlum, gəl. Şam yeməyi səni gözləyir.

– Nə hazırlamısan, ana? – Amil müəllim xəbər aldı.

– Oğlum, mən sənin sevimli yeməyini bilirəm. Aşpaza demişəm, dolma və plov hazırlayıb sənin üçün. Bilirəm ki, gəlinim yaxşı plov süzə bilmir. İstədim ağzının dadını dəyişəsən. Axı çoxdandı Gülçöhrənin bişirdiyi xörəklərdən yemirsən.

– Anacan, olmazdı ki, bunları bir-bir bişirəydiniz?!

– Nə bilim, ay oğul. Dedim, birdən işin çıxar, gedərsən.

– Narahat olma, anacan, hələ 3-4 gün burdayam, – deyib oğlu qolunu anasının boynuna saldı.

Yeməklər Amilə o qədər xoş gəldi ki, hər iki xörəkdən doyunca yedi. Dilbər xanım oğlunun iştahla yediyini görüb çox sevindi.

Çay süfrəsi zaldakı masanın üstündə açıldı. Ana-bala xeyli söhbət etdilər. Dilbər xanım bilirdi ki, oğlunun gəlməsinə səbəb saqqallı kişidir. Lakin evdəkilərin yanında bunu büruzə vermir, özünü şübhəli aparmırdı. Saqqallı kişinin dediklərinə əməl edirdi ki, ailəsi üçün yeni bir təhlükə yaranmasın. Dilbər xanım sözarası oğlundan soruşdu:

– İnşallah, təmirə nə vaxt başlayırsan?

Amil müəllim dedi:

– Sabah lazım olan materialları alım, baxarıq. Ustaları görüb danışmışam. Yəqin, iki-üç günə başlarıq.

...Heç kim gözə dəymirdi. Hər kəs öz otağında şirin yuxuya getsə də, Amil müəllimin yuxusu ərşə çəkilmişdi. Atası ilə bağlı fikirlər onu göz yummağa qoymurdu. Qatili tapmaq onun üçün təkcə övladlıq borcu deyil, həm də bir qeyrət məsələsi idi. Narahatlıq keçirsə də, qəlbindəki bir hiss ona qatilin tapılacağını deyirdi.

Səhər açılan kimi Amil müəllim ləngimədən yerindən qalxdı. Çöldə əl-qol hərəkətləri edib bir az gəzişdi.

Bağlarında bir dəfə dövrə vurandan sonra evlərinə qayıtdı. Əl-üzünü yuyub süfrə arxasına keçdi. Dilbər xanım onun sol tərəfində oturub sağ əlilə başına sığal çəkdi. Amil anasının üzünə baxıb gülümsədi. Artıq saat on idi. Amil müəllim yarım saat sonra evdən çıxmalı, təqribən saat on ikidə yük maşını ilə birlikdə həyətlərinin qapısında olmalı idi.

Yük maşını qapıya çatanda qonşulardan iki nəfər ayaq üstə dayanıb söhbət edirdi. Amil müəllimi görən kimi əl verib görüşdülər. Qalın bığları olan orta yaşlı kişi dedi:

– Müəllim, icazə verin, biz də əl ataq.

– Sağ olun, qonşu. Minnətdaram. Özümlə işçi gətirmişəm, – deyə Amil müəllim təşəkkürünü bildirdi.

Fəhlələr materialları səliqə ilə həyətə yığdılar. Nəm çəkməsin deyə, sement kisələrinin altına taxta parçaları qoyub üstünə polietilen örtük çəkdilər. Hiss olunurdu ki, işlərini bilən adamdılar. Gözətçi öz otağında mürgü vurduğundan hələ heç nədən xəbəri yox idi.

Amil müəllim fəhlələrin pulunu verib yola saldı. Sonra evə girib televizoru işə saldı. Kresloda oturub xadimədən çay gətirməsini xahiş etdi. Divanda əyləşən anası soruşdu:

– Oğlum, yenə qəzet oxuyacaqsan?

– Yox, anacan. Çay içib şəhərə çıxacam. Qoy işdən gəlsinlər, bacımgilə də baş vuracam.

– Narahat olma, oğlum. Qıza zəng eləmişəm, axşam köçlü-külfətli bizdədirlər.

– Belə de. Onda mən də şəhərdə çox yubanmaram, – ardınca Amil müəllim soruşdu: – Necə yola gedirlər?

– Şükür, yaxşıdırlar. Uşaq olandan sonra daha da mehribanlaşıblar, – deyə anası bildirdi.

Amil müəllim çayını içib şəhərə çıxdı. Əslində elə bir işi yox idi. Bilmirdi, nə etsin ki, vaxt tez gəlib keçsin. Gəzə-gəzə bir də gördü ki, gəlib çatıb şəhərin mərkəzindəki "Böyük bağ" parkına. Yaxınlaşıb hovuzun kənarındakı boş oturacaqlardan birinə əyləşdi. Nədənsə adamlar gözə seyrək dəyirdi. Bu vaxt telefonuna zəng gəldi.

– Salam, qağa, necəsən? – Bakirin səsi eşidildi.

– Mən yaxşıyam, sən yaxşı ol, – deyə Amil müəllim cavab verdi.

– Əynin nazikdi, parkda çox gəzmə.

– Baş üstə, indi gedirəm.

Amil müəllim asta-asta yaxınlıqdakı kafeyə daxil oldu. Cavanlardan biri onu tanıyıb yer göstərdi:

– Amil müəllim, gəlin əyləşin.

– Sağ olun, mən burda – kənarda oturacağam, – deyə Amil müəllim əli ilə küncdəki masanı göstərdi. Sonra isə çay sifariş verdi.

Cavanlar televizorda futbolu seyr edirdilər. Azarkeşlik etdikləri komanda hesabda geridə olduğu üçün qanları qara idi. Heç birinin səsi çıxmırdı.

Az sonra kafedən çıxıb evlərinə tərəf yollandı. Anası nigaran qalmasın deyə, yemək yeməyib aclığını evdə söndürmək istəyirdi.

Dilbər xanım onu görcək dedi:

– Lap vaxtında gəlmisən. Sənə daş küftəsi hazırlatmışam.

Amil müəllim dedi:

– Ay ana, sənə qurban, belə getsə, mən lap filə dönərəm ki.

– Heç nə olmaz, – anası dilləndi, – indiyə kimi yeməkdən ziyan görən olmayıb.

Nahardan sonra Amil öz otağına keçib rəfdəki kitabları nəzərdən keçirməyə başladı. Onların arasından Razinin "Unudulmuş dəfinə" əsərini götürüb arxası üstə divana uzandı. Kitab Amilə o qədər maraqlı gəldi ki, üç-dörd saatın necə tez gəlib keçdiyini hiss etmədi. Bacısı Esmiranın səsi gəlməsəydi, kitabdan ayrılan deyildi.

– Qağa, hardasan?!

– Gəldim, bacı, gəldim, – Amil otağından səsləndi. Qaldığı yerdə kitabın vərəqini qatlayıb onu götürdüyü yerə qoydu. Sonra bacısına tərəf yüyürdü.

– Ay səni xoş gördük, mənim əziz bacım.

Görüşüb qucaqlaşdılar. Atalarının yanlarında olmaması hər ikisini kövrəltdi. Esmiranın gözləri doldu. Dilbər xanım üzünü qızına tutub dedi:

– Yaxşı, yenə başlama. Qardaşının ürəyini sıxırsan axı.

Esmira göz yaşlarını silib dedi:

– O mənim təkcə qardaşım deyil, həm də atam əvəzidir. Ailəmizin başçısıdı, ana.

Amil müəllimin gözləri doldu. Özünü ələ alıb qolunu bacısının boynuna saldı:

– Bəsdi, ağlama. Ana düz deyir. İndi biz uşaqlarımızın tərbiyəsi ilə məşğul olmalı, onları babalarının adına layiq böyütməliyik. Əsas məqsədimiz bu olmalıdır. Bunu bacarsaq, atamızın da ruhu şad olar.

Çox keçmədi ki, kürəkən də gəlib çıxdı. Elə bu vaxt Esmiranın bir yaşlı oğlu da yuxudan oyandı. Elə bil uşaq atasının nəfəsini duyub, gözlərini açdı. Amil müəllim onu qucağına alıb üzündən öpdü:

– Ə, necəsən, pəhləvan?! – deyə onu dindirməyə başladı. Uşağın dodaqları qaçdı. Dayısını yaxşı tanımadığı üçün gözləri bərələ qalmışdı. Uşağın ağlayacağından ehtiyat edən Amil müəllim onu anasına verdi.

Axşam cansıxıcı olmadı. Amil müəllim yeznəsindən şəhərlə bağlı müəyyən məlumatlar ala bildi.

Artıq gecədən xeyli keçmişdi. Dilbər xanım kürəkənigili evlərinə getməyə qoymadı. Səhər yeməyindən sonra Esmira ailəsi ilə birlikdə ata evini tərk etdi.

Dilbər xanım yır-yığış edib hazır vəziyyətdə dayanmışdı. Yeməkdən korluq çəkməsin deyə, gözətçinin soyuducusu ərzaqla doldurulmuşdu.

Nəhayət, bağ evinə getmək vaxtı gəlib çatdı. Sifarişlə çağırılan taksilər darvazanın qarşısında dayanıb müştərilərini gözləyirdi. Aydın müəllim rəhmətə gedəndən sonra onun maşını qarajdan bayıra çıxmamışdı. Evin ağsaqqalına hörmət əlaməti olaraq hələlik

o maşından istifadə olunmurdu. Hər kəs çantasını götürüb evdən çıxdı. Dilbər xanım evin qapısını bağlayıb açarları Nəriman kişiyə uzatdı:

– Ev-eşik sənə əmanət, biz getdik.

– Baş üstə! – deyə gözətçi elə qürurla cavab verdi ki, tanıyan olmasaydı, deyərdi ki, halal olsun belə cəsarətli mühafizəçiyə. Çünki ilk baxışdan Nəriman kişinin qocalıb əldən düşdüyünü sezmək o qədər də çətin deyildi. Ağsaqqal günün çox hissəsini giriş qapısının yanında yerləşən mühafizə otağında olardı. Əsas işi darvazanı döyənlərin kimliyi ilə maraqlanmaq idi. Hərdən çıxıb həyət-bacada dolanar, çox vaxt da otağında çay içə-içə televizora baxardı. Həyətin divarları hündür olduğu üçün kimsə onu aşmağa cürət etməzdi. Təsadüfi halda həyətə top düşəndə Nəriman dayı uşaqlara deyinərdi: "Bax bir də düşsə, məndən inciməyin ha, götürüb tikə-parça edəcəyəm!" Ancaq bu hal hər dəfə təkrar olunardı.

Amil müəllim öndəki taksiyə əyləşmişdi. Maşınlar yola düşən kimi əməliyyata rəhbərlik edən Bakir müəllim yoldaşlarına məlumat verdi: "Ev boşaldı. Gözətçidən başqa hamı getdi. Bütün diqqətinizi cəmləyin. Məsuliyyətinizi birə-beş artırın! Obyektə gələn yolları nəzarətdə saxlayın. Şübhəli bir şey hiss edən kimi mənə məlumat verin. Sutkanın iyirmi dörd saatı efirdəyəm".

Taksilər yenicə yola düşmüşdü. Bu vaxt küçədə Dilbər xanımın qapıbir qonşusu Zöhrə arvadın evində

kirayədə qalan Zamirə göründü. Hamilə olduğu üçün hamı ona xüsusi hörmətlə yanaşırdı. Zamirə sağ əlində boş bir kisə yanlarını basa-basa Dilbər xanımın darvazasına yaxınlaşdı. Ovcunun içi ilə qapının cəftəsini yavaşca döyərək səslədi:

– Dilbər xala! Ay Dilbər xala!

Çox keçmədi ki, Nəriman dayının səsi eşidildi:

– Kimsən, ay bala? Nə lazımdır?

– Mənəm ey, Nəriman dayı. Zamirədi. Rabilin yoldaşı. Kisənizi gətirmişdim, – deyə qadın gəlişinin məqsədini açıqladı.

Nəriman kişi onu səsindən tanıdı:

– Bıy, qızım, sənsən? Bu dəqiqə açıram, – deyib qapıya yaxınlaşdı.

Zamirə içəri girib qapını yavaşca örtdü. Kişi haləhval tutmağa macal tapmamış Zamirə kisənin arasında gizlətdiyi bıçağı çıxarıb onu sərrast bir zərbə ilə dəstəyinə qədər Nəriman kişinin ürəyinə sapladı. Yazıq kişi qışqırmağa belə macal tapmadan qan içində yerə sərildi. Zamirə vaxt itirmədən gözətçinin otağına keçdi. Divardan asılan topa açarları götürüb tez evin qapısını açdı. "Tənha qadın" əsərini divardan götürüb özü ilə gətirdiyi kisəyə saldı. Bütün bu hadisələr, bəlkə də, bir dəqiqə çəkmədi. Heç nə olmayıbmış kimi, Zamirə darvazanı açıb yavaşca küçəyə çıxdı. Məskunlaşdığı həyətə daxil olmaq istəyirdi ki, bir nəfər arxadan onu bərk-bərk qucaqladı.

– Alçaq! Şərəfsiz qadın! Canını qurtara bilməyəcəksən!

Bu vaxt pusquda duran əri Rabil həyətdən çıxıb tez arvadının köməyinə gəldi. Çatan kimi yumruq və ayaq zərbələrini işə salıb tanımadığı adamı döyməyə başladı. Sir-sifəti qan içində olan yaşlı kişi müqavimət göstərərək tablonu əlindən vermək istəmirdi. Gücü azaldığından vəziyyəti getdikcə ağırlaşırdı. Tablonun əldən gedəcəyini hiss edən kişi var gücü ilə qışqırmağa başladı:

– Kömək edin! Kömək edin!

Heç bir dəqiqə keçmədi ki, Bakir müəllimin adamları cinayətkarları dövrəyə alıb yaxaladılar. Sir-sifəti qana bulaşmış yaşlı kişi sinəsinə sıxdığı tablonu polis işçilərinə təhvil verdi. Bakir müəllim hələ gəlib çatmamışdı. Polis işçilərinin tanımadığı bu adam Məhərrəm kişi idi.

Yerdə çoxlu əski parçaları gözə dəyirdi. Bunlar dava vaxtı Zamirənin donunun altında gizlətdiyi balıncın içindən yerə tökülmüşdü. İki ay əvvəl məhəlləyə köçən Zamirə bu kələyə əl ataraq özünü hamilə kimi göstərmişdi.

Bakir bəy gəlib çıxdı. Amil müəllim isə hələ yolda idi. Zavallı Nəriman kişi ömrünü çoxdan tapşırmışdı. Polislərin qurduğu planlar onun həyatını qurtarmaq üçün yetərli olmadı. Aydın müəllimdən sonra daha bir nəfər cinayətin qurbanı oldu.

Çox keçmədi ki, Amil müəllim də özünü hövlnak halda hadisə yerinə çatdırdı. O, Məhərrəm kişini qan içində görüb həyəcanlı halda soruşdu:

– Sənə nə olub, əmi? Kim səni bu hala salıb? Axı sən burada olmamalıydın!

Cavab Bakir müəllimdən gəldi:

– Məhərrəm əmi olmasaydı, cinayətkarlar qaçıb aradan çıxacaqdı. Onun sayəsində bunları yaxalaya bildik.

Amil müəllim yenidən soruşdu:

– Əmi, özünüzü necə hiss edirsiz? Sizi indicə həkimə aparacam.

– Narahat olma, bala. Mən yaxşıyam. Hayıf Nəriman kişidən... Yaxşı ki, alçaqları yaxalaya bildik, – Məhərrəm kişi dedi.

Amil müəllim təəccüblə soruşdu:

– Əmi, bəs siz bura haçan gəldiniz?

– Gecədən çardaqda pusquda durmuşdum. Ürəyimə dammışdı ki, gələcəklər. Zənnim məni aldatmadı. Nə yazıq ki, qəfil zərbənin "hamilə" qadından gələcəyini bilmədim, yoxsa hay-küy qoparıb Nəriman kişini xilas edə bilərdim. Düzdü, cansız bir sənət əsərini xilas edə bildik, amma çox təəssüf ki, xeyirxah bir ailə başçısını qoruya bilmədik.

***

Cinayətkarlar qolları qandallı, polis şöbəsində sorğu-sual olunurdu. Bakir müəllim və iki başqa müstəntiqdən başqa Amil müəllim və Məhərrəm kişi də orada idi. İstintaq zamanı aydın oldu ki, Zamirə və Rabil ər-arvad deyil, eyni cinayətkar qrupun üzvləridir. Şəklin orijinallığını dəqiqləşdirmək üçün Aydın müəl-

limgilə baş vuran optik eynəkli kişi mütəxəssis kimi başqa yerdən dəvət olunubmuş. Məhərrəm kişi ilə Amil müəllim mülahizələrində yalnız bircə yerdə yanılmışdılar: nə Əsgər müəllimin, nə də Simuzər arvadın bu cinayətdə əli yox idi. "İş verən" funksiyasını tablonu Aydın müəllimə satan adam həyata keçiribmiş. Elandan xəbər tutan kimi uşaqkən törətdiyi cinayət haqqında oğrulara məlumat verib. Onlar da qiymətli əsəri ələ keçirmək üçün fəaliyyətə başlayıblar.

Bakir müəllim işin tam başa çatdırılmasında israrlı idi. Odur ki, cinayətkar qrupun o biri üzvlərini də ələ keçirmək üçün növbəti əməliyyata start verdi.

Amil müəllim bu xoş xəbəri anasına çatdırmaq üçün çox tələsirdi. Yolüstü maşını saxlayıb bir dəstə gül aldı. Fikrində tutmuşdu ki, atasının məzarını ziyarət edib ona köhnə dostunun etibarından, qoçaqlığından söhbət açsın. Və elə oradaca Məhərrəm kişinin əlindən öpüb ona dərin təşəkkürünü bildirsin.

MÜNDƏRİCAT

Ön söz 3

Müəllifdən 7

Hekayələr

Vətən 11
Atasının balası 18
Ehsan 23
Kisəçi 31
Ağsaqqal 36
Qonaq 42
Putyovka 48
Oğru 61
Tanışlıq 65
İki qonşu 71
Elçilik 80
Fəryad 86
Dilənçi 97
Velosiped 106
Qatarda 117
Darıxan ürəklər 126
Robot 50 KDK 101 152

Povest

Naməlum adam 167